**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

**"Azərbaycan folklorunun ilkin nəşrləri" seriyası**

# HÜSEYNQULU SARABSKİNİN ŞƏXSİ FONDUNDAN FOLKLOR MƏTNLƏRİ

**BAKI – 2021**

**AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur**

**Tərtib edənlər:** **f.ü.f.d., dos. R.Xəlilov**
**f.ü.f.d., dos. A.Xürrəmqızı**
**f.ü.f.d., dos.A.Hüseynova**

**Elmi redaktoru:** **Akademik M.Kazımğolu-İmanov**

**Hüseynqulu Sarabskinin şəxsi fondundan folklor mətnləri.** Bakı: Elm və təhsil, 2021, 140 səh.

"Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasının növbəti kitabı Azərbaycan mədəniyyətinin tanınmış siması Hüseynqulu Sarabskinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan şəxsi fondundakı folklor mətnləri əsasında tərtib edilmişdir.

folklor.az

H $\frac{4603000000}{\text{N-098-2021}}$ Qrifli nəşr

Folklor İnstitutu, 2021

## “Azərbaycan folklorunun ilkin nəşrləri” seriyasından çap olunmuş kitablar

1. **Atalar sözü.** Tərtib edəni Məmmədvəli Qəmərli. Transliterasiya və sözlüyün müəllifi Rza Xəlilov, “Ön söz”ün müəllifi İsrafil Abbaslı, elmi redaktoru Hüseyn İsmayılov. Bakı: Səda, 2003

2. **Arvad ağısı.** Tərtib edəni Mirzə Abbas Abbaszadə. Transliterasiya, “Ön söz”ün və sözlüyün müəllifləri Rza Xəlilov, Afaq Xürrəmqızı, elmi redaktoru İsrafil Abbaslı. Bakı: Səda, 2004

3. **Hənəfi Zeynallı. Azərbaycan türk mahnıları haqqında.** Mətni nəşrə hazırlayan və “Ön söz”ün müəllifi İsrafil Abbaslı, elmi redaktoru Hüseyn İsmayılov. Bakı: Səda, 2004

4. **Bayatılar və manilər**. Transliterasiya və “Ön söz”ün müəllifləri Rza Xəlilov, Afaq Xürrəmqızı, elmi redaktoru İsrafil Abbaslı. Bakı: Səda, 2005

5. **Bəhlul Bəhcət. San Aşığın bayatıları**. Transliterasiya və “Ön söz”ün müəllifi Rza Xəlilov, elmi redaktoru İsrafil Abbaslı. Bakı: Səda, 2006

6. **“Aşıq Qərib” dastanı.** Transliterasiya və “Ön söz”ün müəllifi Rza Xəlilov, elmi redaktoru Hüseyn İsmayılov. Bakı: Səda, 2006

7. **Folklor çələngi** (XVII-XIX əsrlər əlyazmalarından seçmələr). Transliterasiya, mətnlərin hazırlanması, tərtib və ön sözün müəllifi İsrafil Abbaslı, elmi redaktorları Hüseyn İsmayılov, Rza Xəlilov. Bakı: Nurlan, 2003

8. **Hənəfi Zeynallı. Azərbaycan atalar sözü.** Transliterasiya edəni Rza Xəlilov, tərtib edənlər Rza Xəlilov, Afaq Xürrəmqızı, elmi redaktoru Səbinə İsayeva. Bakı: Elm və təhsil, 2012

9. **Vəli Xuluflu. El aşıqları.** Transliterasiya edib çapa hazırlayanlar Rza Xəlilov, Afaq Xürrəmqızı, elmi redaktoru İsrafi Abbaslı. Bakı: Elm və təhsil, 2013

10. **Hənəfi Zeynallı. Azərbaycan tapmacaları.** Translite-

rasiya edib çapa hazırlayanlar Rza Xəlilov, Afaq Xürrəmqızı, elmi redaktoru İsrafil Abbaslı. Bakı: Elm və təhsil", 2013

11. **Hümmət Əlizadə. Azərbaycan el ədəbiyyatı.** Mətni çapa hazırlayan Sönməz Abbaslı, elmi redaktoru və ön sözün müəllif İsrafil Abbaslı. Bakı: Elm və təhsil, 2013

12. **Vəli Xuluflu. Tapmacalar.** Transliterasiya edəni Rza Xəlilov, tərtib edənlər Rza Xəlilov, Afaq Xürrəmqızı, elmi redaktoru Muxtar Kazımoğlu. Bakı: Elm və təhsil, 2013

13. **Salman Mümtazın şəxsi fondundan folklor mətnləri.** Transliterasiya və tərtib edənlər Rza Xəlilov, Afaq Xürrəmqızı, elmi redaktoru Muxtar Kazımoğlu. Bakı: Elm və təhsil, 2013

# TƏRTİBÇİLƏRDƏN

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Azərbaycan mədəniyyət və incəsənətində, teatr sənətində dərin və silinməz iz buraxmış görkəmli aktyor, rejissor və publisist Hüseynqulu Sarabskinin müxtəlif toplama folklor mətnlərindən, etnoqrafik materiallardan və əlyazmalardan ibarət F-15№-li şəxsi fondu qorunur.

1879-cu ildə Bakıda anadan olmuş sənətkarın nəşr edilmiş xatirələrindən məlum olur ki, o, hələ uşaqlıq və gənclik illərində müxtəlif xalq şənliklərində, mərasimlərdə, tamaşalarda və uşaq oyunlarında yalnız tamaşaçı olmamış, həm də bu tədbirlərdə birbaşa iştirak etmiş, beləliklə də peşəkar aktyorluğun ilk sirlərinə də məhz bu mühitdə yiyələnmişdir.

Mənsub olduğu xalqın gündəlik həyatına, məişətinə, geniş mənada mədəniyyətinə olan sonsuz marağı, onu öyrənmək və unudulmaqdan, itib batmaqdan qorumaq arzusu doğma şəhərin adət-ənənələrinin, mərasimlərinin, ümumiyyətlə, ictimai-mədəni həyatının onun ədəbi, publisist əsərlərində, məqalələrində öz əksini tapması ilə nəticələndi. Heç şübhəsiz, onun aktyor, teatr xadimi kimi formalaşmasında ömrünün uşaqlıq və yetkinlik çağlarında müxtəlif mərasim və folklor tamaşalarında iştirakı müəyyən rol oynamamış deyildir.

Bu amil, eyni zamanda, onun özünəməxsus dəsti-xətti olan bir publisist kimi yetişməsində də rol oynamışdır. Onun xalq oyunlarının təsvirinə aid yazdığı məqalələri ilə tanış olarkən bu yazıların bunları kənardan izləyən, tamaşaçıların arasında olan bir şəxsin deyil, məhz bu oyunları bilən, onların iştirakçısı olan bir şəxsin qələmindən çıxdığını görmək olar.

H.Sarabskinin zəngin həyat yolunu, səhnə fəaliyyətini əks etdirən müxtəlif material və sənədlərin yer aldığı şəxsi fondunda onun folklor toplayıcılığı fəaliyyətinin nəticəsi olaraq Azərbaycan, daha dəqiq desək, Bakı folklorunu, etnoqrafiyasını əhatə edən örnəklər, xalq uşaq oyunlarının təsviri, el mahnıları geniş yer tutmaqdadır. Onun məlum publisistik məqalələrindən, xatirə

kitablarından çıxış edərək demək olar ki, Bakı folkloru, etnoqrafiyası məkanında, mühitində böyüyüb-başa çatmış sənətkar həm də Əliheydər Tahirov kimi bu folklorun ilk toplayıcılarındandır. O, özünün "Bir aktyorun xatirələri", " Köhnə Bakı", "H. Ərəblinskinin tərcümeyi-halı" kimi kitablarında yeri gəldikcə istifadə etdiyi folklor və etnoqrafiya materialları burada diyarşünaslıq, kulturoloji fonda təqdim edilməkdədir.

Təəssüf ki, sənətkarın şəxsi fondundakı folklor və etnoqrafik materiallar son illərədək filoloji elmimizin diqqətindən kənarında qalmışdır. Bu baxımdan dos. Q.Vaqifqızının tərtib etdiyi Hüseynqulu Sarabski "Qərənfilsən, butasan"[1] kitabı ilk və uğurlu təşəbbüs olmaqla yanaşı, bu sahədə başqa kitabların və tədqiqatların da ərsəyə gəlməsinə təkan verəcəkdir.

H.Sarabskinin folklor və etnoqrafiya sahələrindəki toplama işinin xronologiyasını, tarixini izləmiş olsaq görərik ki, bu, 2 noyabr 1923-cü ildə yaradılmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bu sahədəki fəaliyyəti bir vaxta düşür. Məlum olduğu kimi, cəmiyyətin fəaliyyətə başlaması Azərbaycan folklorunun toplanılması işinə böyük vüsət vermiş, bu işin milli, etnik mədəniyyətimizin, mənəvi dəyərlərimizin qoruması yolundakı böyük əhəmiyyətini göstərmişdir.

H.Sarabskinin Azərbaycan şifahi xalq ədəbiyyatının, musiqi folklorunun, el mahnılarının toplanılması sahəsindəki fəaliyyətinə müsbət təsir göstərən ikinci amil, fikrimizcə, keçən əsrin 20-30-cu illərində dahi bəstəkar Ü.Hacıbəyovun təşəbbüsü ilə, musiqi folklorumuzun toplanılmasına başlanılmasıdır. Yeri gəlmişkən, 1927-cı ildə nəşr edilmiş "Azərbaycan türk el nəğmələri" (toplayanlar və nota salanlar Ü.Hacıbəyov və M.Maqomayev) həmin fəaliyyətin nəticələrindən biri kimi dəyərləndirə bilər.

Folklorumuza bağlılıq H.Sarabskinin bədii yaradıcılığından da təsirsiz ötməmişdir. Belə ki, atalar sözlərimizin dərin çox əsrlik hikmətini təsdiqləyən, ona səhnə həyatı verən "Axtaran

---

[1] . Hüseynqulu Sarabski. Qərənfilsən butasan. Nəşrə hazırlayan və ön sözün müəllifi: Qətibə Vaqifqızı redaktor filologiya üzrə fəlsəfə doktoru Mehri Məmmədova. Bakı: Elm və təhsil, 2013.

tapar", "Nə doğrarsan aşına, o da çıxar qaşığına" ("Nə əkərsən, onu da becərərsən") adlı pyesləri bu bağlığı bir daha göstərməkdədir.

H.Sarabskinin şəxsi fondundakı şifahi xalq ədəbiyyatı materiallarının janr tərkibinə gəlincə isə, burada bayatılar, atalar sözləri, lətifələr, uşaq folklorundan kiçik poetik parçalar, mənzumələr, el nəğmələri, mərasim folkloru və müxtəlif oyunların təsvirləri yer almaqdadır. Göründüyü kimi, sənətkarın şəxsi fondunda Azərbaycan folkloru əsas etibarilə kiçik janrlarla təmsil edilmişdir və burada həmçinin onlardan bəzilərinə həsr olunmuş müxtəlif məqalələr də vardır. Haqqında bəhs edilən həmin materiallardan bəziləri aşağıdakılardır: F-15.s.v. 1. "Azərbaycan xalq lətifələri.- 21 vərəq, F-15.s.v-1.13. "Saray xanım-3vərəq, F-15.s.v.23 "Muğamat və xalq mahnıları haqqında izahat və dərs planı"-10 vərəq (rus dilində); F-15 s.v. 24 "Muğamat və xalq mahnıları haqqında məqalə-6 vərəq; f-15 s.v. 25 "Muğamat və xalq mahnıları haqqında məqalə - 4 vərəq; F-15 s.v. 26 "Muğamat və xalq mahnıları haqqında məqalə -6 vərəq; F -15 s.v. 42, 43, 44 "Keçmiş günlər haqqında xatirələr, etnoqrafik məlumatlar, xalq mahnıları, oyunlar və s. haqqında (makina çapı); F-15 s.v. 27 "Müxtəlif adət və oyunlar haqqında məqalə" – 14 vərəq; F-15 s.v. 95 "Azərbaycan xalq lətifələri"- 23 vərəq; F-15. 344 "lətifələr" – 1 dəftər. F-15 s.v. 345 "Lətifələr" 1 dəftər; F-15 s.v. 350 "Müxtəlif xalq mahnıları və şeirlər"- 6 vərəq ; F-15 s.v. 365 "Türk bayatısı və atalar sözü" – 17 vərəq və s.

Fondda Əziz Şərif tərəfindən rus dilinə tərcümə edilmiş "Qədim Azərbaycanın dini mərasimlərindən biri Məhərrəmlik" və "Qədim Azərbaycanın xalq oyunları" adlı iki məqaləsi də yer almaqdadır.

Görkəmli sənətkarın şəxsi fondundakı "Türk bayatısı və atalar sözü" əlyazma dəftərdə yazıya alınmış örnəklər ənənəvi mövzu və forma özəlliklərinə görə hər iki janr üçün səciyyəvi olan normaların tələbələrinə cavab verməklə yanaşı, bəzi bayatılar başlanğıc, inisial formullarına görə diqqət çəkməkdədir. Məsələn:

Alçalar, ay alçalar,
Yarpağı yaşıla çalar.
Mafəmi gendən apar,
Düşmən görər, əl çalar.

Və ya

Quşum gəl, ay quşum, gəl,
Qanadı sınmışım, gəl.
Ölümə mən gedirəm,
Diri ayrılmışım, gəl və s.

18 vərəq həcmində olan əlyazma dəftərin üzərindəki qeydə söykənərək buradakı bayatı və atalar sözlərinin 1927-ci ildə yazıya alındığını ehtimal etmək olar. Bayatılar və atalar sözlərinin tərtib prinsipinə gəlincə buradakı örnəklər, mətnlər əlifba sırası ilə deyil, nizamsız, pərakəndə şəkildə düzülmüşdür.

H.Sarabskinin şəxsi fondunda xalq mahnıları müxtəlif yönlərdən geniş təmsil olunmaqdadır. Belə ki, buradakı "Muğamat və xalq mahnıları haqqında izahat və dərs planı"-10 vərəq, rus dilində (F-15 s.v.23); "Muğamat və xalq mahnıları haqqında məqalə" – 6 vərəq (F-15 s.v. 350) və s. adlı materiallar həm dərs vəsaiti, həm tədqiqat xarakterli məqalələr olmaqla yanaşı, həm də onun özünün topladığı mahnı mətnlərindən ibarət olduğunu göstərməkdədir.

"Müxtəlif el mahnıları" toplusunda "Yarın canı", "Gözəlim sənsən", "Bülbüllər oxur", "Yeri, dam üstə yeri", "Uca dağlar başında" və s. kimi lirik-romantik mahnılar yer almaqdadır.

Sənətkarın şəxsi fondunda "Keçmiş günlər haqqında, xatirələr, etnoqrafik məlumatlar, xalq mahnıları oyunlar və s. haqqında" adlı başlıq altında toplanmış böyük həcmli üç əlyazmada (F-15.s.v. 42;43;44) müxtəlif mahnı mətnləri, o cümlədən "Saray xanım" mahnısı və xalq oyunları haqqında geniş məlumatlar vardır. Buradakı "Saray xanım" mahnısı adıçəkilən məşhur mahnının başqa bir versiyasını təmsil etməkdədir.

Bu sənətkarın şəxsi fondunda Novruz bayramı, xalq şənlikləri, toy, Məhərrəmlik mərasimi və s. kimi mərasimlərdə icra edilən xalq oyunlarının, uşaq oyunlarının, xalq tamaşalarının ge-

niş və təfsilatlı təsvirləri və onların icrası vaxtı ifa olunan mahnı və nəğmələrin mətnləri də vardır. Bu baxımdan onun "Xalq oyunlarının təsviri" - 28 vərəq (F-15 s.v. 29) maraq doğurmaya bilməz. "Cızıq turnası", "Kosaldıqaç" "Gizləmpaç", "Şumaqədər", "Kos-kosa" və s. kimi oyunları, mərasimləri etnoqrafik cəhətdən təsvir edən müəllifin onları dərindən bildiyi görünməkdədir. H.Sarabskinin müxtəlif məzmunlu uşaqlıq xatirələri ilə tanış olarkən onun vaxtilə bu oyun-tamaşaların, mərasimlərin yaxından iştirakçısı olduğunu bilmək olar. Etnoqrafiya və folklorun sərhəddində duran bu oyun və mərasimlər onun folklor toplayıcılığı sahəsindəki fəaliyyətində mühüm yer tutmaqdadır.

Azərbaycan şifahi xalq ədəbiyyatının geniş yayılmış janrlarından olan lətifələr də sənətkarın şəxsi fondunda 1, 344 və 345 № li saxlama vahidlərində yer almaqdadır.

1 №li saxlama vahidindəki lətifələr dəftərinin üzərindəki yazıda onların xalq artisti H. Sarabski tərəfindən toplandığı göstərilir. Ehtimal etmək olar ki, bu dəftərdəki lətifələr 1932-ci ildə və ya daha sonrakı vaxtlarda H.Sarabski tərəfindən toplanmışdır. Buradakı lətifələrdə təsvir edilən hadisələr bir şəxs ətrafında deyil, müxtəlif şəxslərin ətrafında cərəyan edir. Burada diqqəti çəkən cəhətlərdən biri də odur ki, "Azərbaycan xalq lətifələri" adlı dəftərdəki lətifələr yerli ləhcədə, "Lətifələr" dəftər, 69 vərəq və "Lətifələr" – 1 dəftər, 53 vərəq isə ədəbi üsulda verilmişdir.

"Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasının növbəti cildinin Hüseynqulu Sarabskinin şəxsi arxivindəki folklor materiallarına həsr edilməsi bu mətnlərin qiymətli məxəz olması, bir qisminin müəllifin çap olunmuş kitablarından kənarda qalması ilə əlaqədardır. Kitab tərtib olunarkən əlyazmaların bəzi nöqsanlı cəhətlərinin (bayatıların yarımçıq olması, mahnıların qarışıq şəkildə verilməsi, mətnlərin fərqli əlyazmalarda təkrarlanması və s.) olmasına baxmayaraq, gələcəkdə elmi mənbə olacağını nəzərə alaraq, digər tərəfdən orijinallığı saxlamaq və nəşrin elmiliyini qorumaq üçün onları olduğu kimi nəşrə daxil etmək qərara alınmışdır.

# LƏTİFƏLƏR

***F-15***
***s.v.344***

## İki kəndlinin södəsi

Bir gün iki kəndli bir-biri ilə södə edirdilər. Birincinin atı, digərinin isə tənbəkisi vardı. Birinci dedi:

– Malımızın eybini deməliyik, qardaş.

Tənbəkisi olan dedi:

– Tənbəkimin eybi budur: narın doğra, çubuğa bərk basma, qırmızı odu isə üstündən əksik etmə və çəkəndə heç kim ilə danışma. Yanmadı mənim malım.

Atı olan kəndli dedi:

– Mənim də malımın eybi budur: yoxuşda götür dalıva, enişdə qat qabağıva, qırmızı çubuğu da sağrısından əskik etmə! Yerimədi mənim malım.

## Dərviş və əkinçi

Bir kəndli əkin əkirdi. Bu zaman bir dərviş bunun zəmisinin yanına gəlib dayandı və oxumağa başladı. Kişinin xoşuna gəlib dərvişə dedi:

– Ağa dərviş, xırman vaxtı gələrsən xəcalətindən çıxaram.

Dərviş getdi. Amma xırman vaxtı gəldi əkinçinin xırmanına və dedi:

– Ay kəndli qardaş, mənə vədə vermişdin ki, xırman vaxtı gələrsən hesablaşarıq. İndi mən də gəlmişəm.

Əkinçi buna böylə bir cavab verdi:

– Əkin vaxtı gəldin, mənim üçün oxudun, mənim də xoşuma gəldi. Mən də sənə bir söz dedim, sənin xoşuna gəldi. Oldu əvəz-əvəz. Dəxi məndən nə istəyirsən?

## Mötəbər molla və hiyləgər qadın

Bir şəhərdə mötəbər bir molla var idi. Camaatın hər bir işinə o çatar idi. Camaat ona çox inanırdı. Bir gün o, şəhərin devlətli bir taciri səfərə gedirdi. Bu evində olan bir para qiymətli şeylərini gətirib mollaya verdi.

Və özü səfərə gedib alış-verişini etdikdən sonra qayıdaraq dübarə mollanın yanına gəldi. Və əmanətini molladan geri istəyəndə molla büs-bütün haşaladı. Tacir nə qədər yalvardı – yaxardısa da, molla boyun olmadı.

Bu yazıq hər kəs üçün bu əhvalatı danışdı, heç kim buna inanmadı. Buna dedilər molla düz adamdır. Yazığın əli hər yerdən üzülüb bikef evə qayıtdı. Bunun arvadı gördü ki, kişinin qanı qaradı, əhvalı sarımsaq dadı verir. Xəbər aldı:

– Ay kişi, nə var belə fikirdəsən?

Kişi başına gələn əhvalatı arvadına söylədi.

Arvad buna cavabında:

– Ay kişi, heç fikir etmə, mən onun atasını yandırıb əmanətimizi geri alaram. Sən mənim sözümə qulaq as. Bən nə tevr tədbir töksəm, siz də o tevr rəftar edərsiz.

Kişi dedi:

– Qadavı alım, arvad, görək nə edəcəksən.

Arvad gedib qonşulardan çoxlu daş-qaş yığıb gətirdi evə. Qulluqçusu ilə ərini öyrədib özünə zinət verərək dedi:

– Ay kişi, mən gedib mollanın evinə girəcəyəm, beş dəqiqə keçdikdən sonra gəlib içəri girərsən və əmanətüvü istərsən.

Qulluqçuya dedi ki:

– Ağan bayıra çıxandan sonra sən içəri girib deyərsən ki, muştuluğumu ver ağam gəldi.

Arvad birbaş getdi mollanın evinə. İçəri girib molla ilə çəm-xəm ilə danışmağa başladı. Arada üz-gözünü və bir yaylıq daş-qaşı da mollaya göstərirdi. Molla arvadın gözəlliyini, bir yaylıq qiymətli şeyləri gördükdə ağlı başından çıxdı.

Arvad:

– Molla əmi, sahibim səfərdədir. Mən də tək qadın olduğumdan bunları evdə saxlamağa qorxuram. İstəyirəm...

Arvad sözünü qurtarmamış kişi içəri girir və deyir:

– Molla əmi, mənim əmanətimi zəhmət çək ver!

Molla xəyal edir ki, qoy bunun əmanətini verim. Arvad mənə lap yaxşı inansın. Azı keçməsəm, çoxa sahib ola bilmərəm.

Molla:

– Bu saat, bu saat, – deyib getdi. Sandığı açdı. Kişinin əmanətini geri qaytardı.

Kişi getdikdən sonra arvad:

– Molla əmi, bu əmanəti sənə tapşırıram. Sən Allahın mömin bəndələrindənsən.

Bu əsnada qulluqçu içəri girib oynaya-oynaya deyir:

– Xanım! Xanım, muştuluğumu ver, ağam gəldi.

Arvad bunu eşidən kimi oynamağa başlayır. Kişi də içəri girib görür ki, qulluqçusu ilə arvad oynayır. Bu da oynamağa başlayır. Molla görür ki, hamısı oynayır, bu da qarışır onlara. Sonra arvad dayanıb mollaya deyir ki:

– Mənim ərim gəlib oynayıram, onun da ağası gəlib oynayır, ərimin də qızılı əlinə çatıb onun üçün oynayır. Bəs sən nə üçün oynayırsan?

Molla cavabında:

– Mən də sənin kimi hiyləgər qadının feylinə düşdüm, onun üçün oynayıram.

## Qoz üstə qoz

Bir gün bir qozbel kişi hamama getdi. Və gördü ki, hamamda toydur. Bu kişi ortaya düşüb başladı oynamağa. Kişinin bu hərəkətindən xoşlanıb belinin qozunu götürdülər. Bunun beli düzəlib sevinə-sevinə bazara gəlir.

Bu kişinin bir qozbel yoldaşı varmış. Bu da buna rast gəlib gördü ki, bunun beli düzəlib. Bundan xəbər aldı:

– Belinə nə etdin ki, belivin qozu yox oldu?

Bu kişi dedi:

– Hamama getmişdim, gördüm ki, hamamda toydur, çalıb oynayırlar. Bən də ortalığa düşüb oynadım. Odur ki, bu işdən xoşları gəlib bənim belimin qozunu götürdülər, belim də düzəldi.

Bu da xəyal etdi ki, bən də gedib oynaram, bənim də belimi düzəldərlər.

Bu kişi də yügürdü hamama. Tələsik soyunub içəri girdikdə gördü ki, ağlayırlar. Bu heç qulaq asmadan oynadı. Bundan

ötəri ona çox acıqları tutdu. Hə, birinci kişinin də qozunu bunun qozuna qoydular. Və oldu qoz balayı qoz.

## Ağız duası

Bir gün bir taciri ehsana çağırmış idilər. Nahar edib qurtarandan sonra qonaqlara əl suyu gətirdilər ki, əllərini və ağızlarını yusunlar. Qaidə belə idi. Ən əvvəl gərək ki, molla yuya idi. Molla ağzını yuyanda bir ağız duası oxudu. Bu dua da tacirin xoşuna gəldi. Sonra isə molla ilə görüşdükdə o, duanı ondan öğrəndi.

Nə isə... Tacir xörək yeyən zamanda bu dua onun yadına düşməzdi ki, oxusun. Bir dəfə bu tacir ayaq yolunda ikən bu dua bunun yadına düşdü. Və başladı ağız duasını ayaq yolunda oxumağa. Bunun bir çoxbilmiş nökəri var idi. Nökər gördü ki, ağası zaxotda ağız duası oxuyur. Nökər gülə-gülə bərkdən dedi:

– Ağa! Duan düzdür, əmma deşigi itirmişsən.

## Muşduluq

Bir kənddə bir kişinin arvadı doğmuşdu. Qonşunun uşağı yügürüb bu kişinin yanına gəldi və dedi:

– Əmi! Muşduluğumu ver, arvadın oğlan doğdu.

Bu kişi çox xəsis olduğu üçün pul verməк istəmədigindən oğlana dedi:

– A balam, arvadın peşəsi doğmaqdır. Burada təəccüblü bir iş yoxdur ki, əgər gəlib desə idin ki, qardaşın doğub, onda bu təəccüblü ola bilərdi. İndi mən sənə nə muşduluq verim?

## Qələm düşmən əlindədir

Bir nəfər şeytanın əksini çəkib divardan asmışdı. Böylə ki, cırım-cındır və pis sifətli idi. Burnu uzun, bir gözü də kor idi. Bir nəfər də buna tamaşa edirdi. Tamaşa edən adam yanına baxıb gördü ki, bir təmiz paltarlı gözəl bir şəxs də bu əksə tamaşa edir. Bir az baxdıqdan sonra birinci kişi xəbər aldı:

– Balam, bu kimin şəklidir?

Kişi cavab verdi:

– Şeytanın şəklidir.

Və bu adam güldü. Dedi ki, şeytan mənəm.

Birinci kişi güldü və təəccüblə dedi:

– Yaxşı, sən ki böylə gözəlsən, səni bu günə bəs niyə salıblar?

O gözəl oğlan bir az güldükdən sonra dedi:

– Balam, qələm düşmən əlindədir.

## Xəbərçilik ev yıxar

Bir gün bir tacir Ərəbistana qul bazarına qul almağa getdi. Gördü bir gözəl qul satırlar. Xəbər aldı:

– Bu qulu niyə satırsınız? Bunun bədəni dürüst, özü gözəl, eybi nədədir?

Şəxs cavab verdi:

– Bunun, bil, çox bir eybi vardır ki, büsbütün gözəlliyini korlayır.

Tacir xəbər aldı:

– Nə eybi var?

Fəqət sahib cavab verdi:

– Xəbərçilikdir, söz gəzdirəndir.

Tacirin bu quldan açıq xoşu gəldigi üçün fikir etdi ki, xəbərçilik bir şey degil, bən bunu ona tərgidərəm. Tacir qulu alıb evinə qayıtdı. Bu qul çoq yaxşı qulluq edir idi. Ev adamları bu qulun xətrini çoq istəyirlərdi. Böylə ki, hamının əzizi olmuşdu.

Bir gün xanımın yanına gəldi. Xanım da bunun əhvalın soruşdu. Gördü qulun əhvalı xarabdır. Xanım:

– Sənə nə olub? Kim incidib?

Qul:

– Beni incidən yoqdur. Əmma ...

Xanım:

– Necə əmma. Tez ol de görüm nə olub.

Qul köhnə adətinə başladı:

– Xanım, bəni bağışlayınız. Çünki, bən sənin çörəgivi yeyirəm və borcumdur sənə deyəm.

Xanım:

– Əlbətdə, əlbətdə borcundur. Tez ol, de görüm nə olub?

Qul:

– Xanım, sən ki, böylə gözəl, heç bir yerində eybin yox, ... bilmirəm ağam niyə səni evdə qoyub, gedib özgə qadına möhöbbət yetirir?

Xanım çox acıqlandı və dedi:

– Sən hardan bilirsən?

Qul:

– Onları bu gözlərim ilə bir yerdə görmüşəm. İmdi sən bu işə bir çarə tapmalısan.

Xanım:

– Əgər bilirsən, de!

Qul:

– Deyərəm. Ancaq səbr etməlisən və heç kəsə də bir söz söyləməməlisən.

Xanım:

– Xatircəm ol, deməcərəm.

Qul:

– Sən bir iti ülgüc taparsan. Gecə ağa yatanda gedib onun boynunun ardından bir az tük qırxıb gətirərsən bənim üçün. Bən də dua yazaram. O zaman ağa o qadından soyuyar.

Xanım:

– Çoq yaxşı.

Qul sonra ağanın yanına gəlir. Ağası gördü qulun əhvalı yodur. Və xəbər aldı:

– Sənə nə olub, bikefsən?

Qul:

– Bənə bir şey olmayıb. Əmma... sənə...

Ağa:

– Bənə nə olub, de görüm?

Qul:

– Ağa, deyərəm, qorxuram acığın tuta.

Ağa qışqıraraq:

– Tez de görüm, nə olub.

Qul:

– Ağa, xanımın oynaşı var.

Ağa:
– Sən haradan gördün və haradan bildin?
Qul:
– Bən çoqdan bilirəm. Amma danışmırdım. Sözü bu ediblər ki, səni bu gecə öldürsünlər.
Ağa:
– Əşi, nə deyirsən?
Qul:
– Vallahi ki, doğru deyirəm.
Ağa axşam evə gəlib şamını etdi və getdi yatmağa. Əmma yatmamışdı, gözləyirdi. Gördü ki, gecənin bir aləmində arvadı əlində ülgüc içəri girdi. Ağa olayı belə gördükdə qan başına vurdu. O saat duraraq arvadını vurub öldürdü.
Aləm qarışdı bir-birinə. Səhər arvadın adamları gəlib bu kişini öldürdülər. Və kişinin adamları başladılar arvadın adamları ilə davaya. Hər iki tərəf qırılıb çatılaraq tumbur oldular. Böylə ki, hər iki tərəfin əqrabasından bir riyahət qalmadı.

## Tamarzı

Bir gün bir baqqal dükanın qabağında bal boşaldırdı. Bir nəfər şəxs də oradan keçirdi. Gördü ki, baqqal bal boşaldır. Dayandı və baxdı bala, yedi çörəyi, baxdı bala, yedi çörəyi, axırda çörəyi qurtardı. İstədi ki, getsin. Fəqət baqqalın fikri bu kişidə idi. Baqqal kişini saxlayıb dedi:
– Ay kişi, balın pulunu ver!
Kişi bir az baqqalın üzünə baxdıqdan sonra dedi:
– Aç əlivi!
Baqqal əlini açdı. Kişi isə əlini yumrulayaraq baqqalın ovcuna qoydu.
Baqqal baxıb ovcunda bir şey görməyib dedi:
– Ay kişi, sən bəni ələ salmısanmı?
Kişi dedi:
– Bən səni ələ salıram, ya sən bəni ələ salırsan? Elə bal yeməyin böylə də pulu olar.

## Nə keçəl bu küçədən keçər, nə də o ox o halqadan keçər

Bir padşahın gözəl bir qızı vardı. Bu qız üçün çox yerdən elçi gəlmiş idi. Qızı istəyənlər şahzadələr idi. Şah vəzirinə dedi ki, necə edək ki, heç kəs bizdən inciməsin.

Vəzir:

– Padşah sağ olsun, əmr verin meydançada bir ağac basdırılsın və o ağacın da başında halqa asılsın. Hər kəs o halqaya oxu atıb, o oxu halqadan keçirsə, qızı ona verərsən.

Padşahın bu təklifdən xoşu gəldi və bunu əmr etdi. Meydana halqalı ağac sancıldı və camaat oraya cəm oldu. Şəhzadələr də gəldilər.

Bir nəfər keçəl şəxs gördü ki, şəhərin meydançasında izdiham var. Oraya yügürüb, soruşdu nə olubdur ki, camaat buraya toplaşıb sual verir.

Ona cavab verdilər:

– Hər kəs ox atıb ağacın başındakı o halqadan keçirsə, padşah qızını ona verəcəkdir.

Keçəl soruşdu:

– Olar ki, bən də atım?

Dedilər:

– Olar.

Keçəl oxu kamana qoyaraq, nişan alıb atdı. Ox da gedib halqadan keçdi. Padşah məəttəl qalıb vəzirindən tədbir istədi. Vəzir dedi:

– Qurbanın olum, bir dəfə atmaq şəhzadələr üçündür. Qara adam gərək iki dəfə atsın. Əgər oxu bir də halqadan keçirsə, qız onun olar.

Keçələ dedilər, əmr böylədir bir də at! Əgər halqadan keçsə, qız sənindir.

Keçəl çox fikirdən sonra dedi:

– Ay qardaşlar, nə keçəl bu küçədən keçər, nə də o ox o halqadan keçər.

Keçəl əlini başına uzadıb dedi ki, qurbanın olum, nə verəcəksən ver, çıxım gedim.

Padşahın keçəldən çox xoşu gəldi, keçələ istədiyini verdi. O da, alıb getdi.

## Pinəçi Məmi

Bir gün bir ölkənin padşahı ölür. Orada böylə bir qaidə var idi. Dövlət quşu deyilən bir quş uçurdurdular. Bu quş hər kəsin başına otursa idi, o şəxsi o ölkədə padşah tikərdilər.

Camaat şahlıq meydançasına yığılıb dövlət quşu uçurtdular.

O cümlədən, o şəhərin bir pinəçi Məmisi var idi. O da bir tərəfdə dayanıb tamaşa edirdi. Quş birbaş gəlib Məminin başına qondu. O saat yapışdılar Məminin yaxasından ki, gəl padşah ol! Bu yazıq bir belə çığırdı, bağırdı, yalvardı, yaxardı, ay kişilər, bəndən əl çəkin, bəndən padşah olmaz.

Olmadı.... dedilər olmaz, sən gərək padşah olasan. Bu yazığın əlacı kəsilib, razı oldu. Məmi əmr verdi:

– Ölən padşahı yuyun, gətirin bənim hüzuruma.

Meyidi yudular, gətirdilər bunun hüzuruna. Məmi meyidin kəfənini açıb, ağzını qoyur meyidin qulağına. Bir söz deyir və əmr verir ki, aparsınlar, basdırsınlar.

Bunu basdırıb qayıdandan sonra bundan xəbər alırlar:

– Meyidin qulağına nə dedin?

Məmi cavabında deyir:

– Onun qulağına dedim ki, əgər o dünyada səndən xəbər alsalar ki, filan ölkənin əhvalı necədir? Sən deyərsən, necə olacaq? Bir ölkənin ki, padşahı pinəçi Məmi olsun, vay o ölkənin halına.

## İt bilir ki, dağarda nə var

Bir dilənçi küçə ilə gedərkən, bir it gəlib başladı buna hürməyə. Dilənçi iti nə qədər qovdusa, it əl çəkmədi. Dilənçinin çiynində bir dağar vardı. Dağarı fırladıb itin sağrısına çəkdi. Dağar itə dəgən kibi it zingildəyə-zingildəyə qaçdı. Bir nəfər bundan soruşdu:

– Ay balam, bu dağarın içində nə vardı ki, itə vuran kibi belə zingildəyərək qaçdı?

Dilənçi cavab verdi:

– İt bilir dağarda nə var.
Deməyin ki, dağardakı daş imiş.

## Dalağa qane olmayan pişik qənarədən asılı qalar

Bir gün bir qəssab küçədən keçərkən gördü ki, bir yazıq pişik divarın dibində acından miyoldayır. Qəssabın bu pişiyə yazığı gəlib düşündü ki, bunu apararam, dalağdan, cigərdən verərəm kökələr, dükandakı siçanları da dükanda qoymaz. Pişigi dükana gətirdi. Pişik bir neçə gün burada qalıb, yeyib, içib əmələ gəlmişdi.

Bir qəssab ətləri satıb, təzə ətləri şapalayıb, qənarədən asmışdı. Və pişigi də dükanda qoyub dükanı bağlayıb getmişdi.

Pişik ətlərə baxıb dedi ki, dalağ, cigər yeyincən qənarədəki ətlərdən yeyərəm. Sahibim nə biləcək?

Atlandı ki, qənarədən ət yesin. Pəncəsi ətdən rədd olub boğazı keçdi qənarəyə. Ha çırpındı xilas olsun, olmadı. Pişigin canı çıxdı və qənarədən asılı qaldı.

Səhər qəssab gəlib dükanı açarkən nə gördü? Gördü pişik asılıb qənarədən. Onda qəssab dedi ki, ey dalağa qane olmayan pişik, qənarədən asılı qalarsan.

## Papaqçı

Bir nəfər müştəri papaqçıya papaq tikdirirdi. Papaqçı bunun başını ölçüb dedi:

– Balam, papağın nə rəng olsun?

Papaq tikdirən dedi ki, papağın rəngi nə qara, nə ağ, nə boz olsun və nə də çal.

Papaqçı dedi ki, baş üstə.

Müştəri soruşdu ki, hə, usta, nə vaxt gəlim aparım?

Usta cavab verdi:

– Nə cümə gəl, nə şənbə gəl, nə yek şənbə gəl, nə düşənbə gəl, nə seşənbə gəl, nə cahar şənbə gəl, nə də cümə axşamı gəl.

Papaq tikdirən dedi:

– Bütöv həftə günlərinin heç birində gəlməyim, bəs haçan gəlim?

Usta:

– Haçan sən papağın rəngini deyəndə mən də günün adını deyərəm.

## Arvadı yaxşı olanın günü də xoş keçər

Bir gün Şah Abbas dərviş libasında gördü ki, bir ustanın əli, ayağı, üstü, başı tərtəmiz, keyfi kök oxuya-oxuya işləyir. Şah buna yaxınlaşıb dedi:

– Usta, maşallah olsun, keyfin çox kökdür. Yəqin bir səbəb var bu şadlığuva?

Usta:

– Ağa dərviş, niyə olmasın? Axşam evə gedən kibi, arvadım yügürür qapıya, qollarını dolayır boynuma, bəni öpə-öpə aparır otağa, əlimi, ayağımı yuyur, altıma döşək, dalıma yasdıq qoyur. Və nə olanından bişiribsə, gülə-gülə yedirdir, başımı qoyub yatıram. Səhər də bəni can-can ilə yola salır. Əlbətdə bu cür yaxşı arvadı olanın günü nə xoş keçər.

Şah öz-özünə – gör nə oda salaram səni, – deyir.

Şah evinə gələrək, əmr edir ki, buna bir küpəgirən qarı çağırsınlar. Qarını tapıb gətirdilər. Şah o qarıya əmr edir, gedib o xarratın evini tapsın, onun arvadını tovlayaraq onun üçün alsın.

Qarı gedib xarratın evini tapır və başlayır dilənçi kibi zarlamağa.

– Ay evin yiyəsi, bənə bir parça çörək ver. Acından ölürəm.

Haman arvad həyətə çıxdı. Qarını görərkən yazığı gəldi. Çörəkdən-zaddan qarının qabağına qoydu. Qarı doğrudan-doğruya bu qadının gözəlliyinə aşiq oldu. Qarı o yana-bu yana baxmağa başladı. Arvad dedi:

– Ay qoca, niyə belə təəccüb evə baxırsan?

Qarı hiyləsini başladı:

– Sən ki belə gözəlsən, sənin ərin kimdir?

– Heç, kasıb bir kişi. Nə üçün xəbər alırsan, ay qarı nənə?

Qarı dedi ki:

– Sən heyifsən, sənin bu saat geyinib, içən, yeyən, gəzən vaxtındır. Nə üçün bu donuz daxmasına girmisən?

Arvad:

– Bəs nə edim, ay qarı nənə?
Qarı:
– Qadan alım, acığın tutmasa, sənə bir söz deyərəm.
Arvad:
– Ay nənə, de görüm!
Qarı:
– Doğrusunu deyim, məni buraya padşah göndərib. Özü də səndən ötəri aramı yoxdur. Bilmirəm səni harada görüb sənə aşiq olub. Sən də fürsəti fot eyləmə. Qoca, kasıb kişidən sənə nə olacaq?
Nəhayət arvadı tovlayıb yoldan çıxartdı. Arvad da padşaha getməyə razı oldu. Qarı dedi:
– Mən gedirəm, iki gündən sonra gələrəm, bənə axır sözüvü deyərsən.
Qarı çıxıb getdi. Arvad özlügündə fikir etdi:
– Doğrudan da bən bu kasıb kişidə niyə qalmışam? Gedərəm padşaha, beş gün ömrümü keyflə keçirdərəm.
Axşam kişi evə gəldi. Gördü ki, arvad bunun qabağına gəlmədi. Nə isə.... Arvadı öğrədən var, o, özi ilə degil. Kişi ondan söz soruşduqda, arvad ona acıqlı cavablar verdi, kişinin atası yandı. Ha arvadın o yan bu yanına keçdi, bir şey olmadı. Yazıq danışmadı. Gecəni sabahladı, gündüzü axşamladı. Gördü arvad o arvad degil. Kişini fikir almışdı. Dükəndə işləyəndə əlini, ayağını əzirdi.
Padşah yenə bunun dükəninin qabağına gəlib gördü ki, kişi o kişi degil, atası yanıb qanı qaradır. Dərviş xəbər aldı:
– A kişi, nə var, nə olub?
Kişi bunu gördükdə dedi:
– Nə olacaq, evim yıxılıb, vəssalam. Arvad bənimlə yola getməyir. Gündə dava, gündə şava, gündə qalmağal. Bilməyirəm nə edim?
Padşahın buna yazığı gəlib dedi:
– Ay kişi, arvadını ögrədən var.
Kişi:
– Bəs nə edim, dərviş ağa?
Dərviş:

– Ay kişi, sən bu saat get evə, aftafanı götürüb su başına getmək bəhanəsi ilə bayıra çıxanda vur yerə sındır. Sonra başla ağlamağa, çığırıb bağırmağa. Arvad sənə deyəcək:

– Ay kişi, bir köhnə aftafadan ötəri ağlamaqmı olar? O zaman sən ona deyərsən:

– Ay arvad, mən aftafa üçün degiləm. Bəni ağladan özgə şeydir. Arvad sənə deyəndə ki, – o nə şeydir? Sən deyərsən. Bu aftafa neçə ildi bizimlə yoldaşdır. Biz onun halına bələd olmuşuq, o bizim halımıza bələd olmuşdu. İndi taza aftafa alanacan, o bizim halımıza bələd olanacan, biz onun halına bələd olanacan ömrümüz də qurtarıb gedər. Sən get bunu et! Sonra görərsən.

Kişi evə gəlib aftafanı sındıraraq ağlamağa başladı. Arvad bunu görüb dedi:

– Ay kişi, bir köhnə aftafadan ötəri niyə bu qədər ah-vah edirsən?

Kişi:

– Ay arvad, bən aftafa üçün ağlamayıram, bəni ağladan özgə şeydir.

Arvad:

– Nə şeydir? De görüm.

Kişi:

– Bu aftafa neçə il idi bizdə idi. Biz onun halına bələd idik, o bizim halımıza bələd idi. İndi təzə aftafa alanacan, o bizim halımıza bələd olanacan, biz onun halına bələd olanacan ömrümüz də qurtarıb gedər.

Sonra arvad öz-özünə düşündü ki, ey dili-qafil, bən də təzə ərə gedənəcən, o, bənim halıma bələd olanacan, bən də onun halına bələd olanacan ömrüm də qurtarıb gedər.

Bundan sonra yenə arvad öz ərinə hörmət etməyə başladı.

## Göy mıncıq kimdədir, bənim canım ondadır

Bir kişinin iki arvadı vardı. Bu yazıq bunların əlindən zinhara gəlmişdi. Bilməyirdi nə etsin. Çox fikirdən sonra gedib bazardan iki dənə mıncıq aldı. Böyük arvadı çağırıb mıncığın birini ona verib və dedi:

– Bən haçan desəm ki, göy mıncıq kimdə, bənim canım onda, bil ki, səni deyirəm.

Sonra kiçik arvadını çağırıb ona da bu sözü dedi. Arvadların ikisi də bunun yanında olanda deyərdi: göy mıncıq kimdə, bənim canım onda. Arvadlarının hər ikisində göy mıncıq olduğu üçün fikirləşərdilər ki, aha, göy mıncıq bəndədir. Demək kişi bənimlədir, bəni sevir.

Göy mıncıq səbəbinə kişinin canı arvadlarının əlindən qurtardı.

## Adət

Bir padşah ova çıxmışdı, yanında istəkli hərəmini də aparmışdı.

Bunlara bir ceyran rast gəldi. Ceyran ayağı ilə başını qaşıyırdı. Padşah oxu qoydu çilləyi-kəmanə. Ceyranın da xəbəri olmadan hərəminə dedi:

– Bən bu dəqiqə ceyranın başını ayağına mıxlayacam.

Padşah oxu atdı. Ox isə gedib ceyranın ayağını deşib, kəlləsinə keçdi. Demək ceyranın ayağı başına mıxlandı. Padşah hərəminə dedi:

– Gördünmü hünərimi?

Hərəmi:

– Qurbanın olum, hünər deyil, bəlkə də adətdir.

Bu cavab şaha xoş gəlməyib acığı tutdu. İmarətinə qayıdıb, hökm etdi ki, bu hərəmi sürgün etsinlər. Əmma qadın çox ağıllı idi. Dedi ki, indi ki bəni sürgün edirsiniz onda bəni ölkənin filan yerinə göndərin.

Padşahın əmri ilə bunu yola saldılar. Bu getdigi yerdə bir neçə vaxt qaldıqdan sonra öz yaşadığı yerdə qırx pilləli bir pilləkən tikdirdi və camış balasını da hər gün qucağına alıb gündə iki dəfə qırx pilləni qaldırıb və düşürdərdi.

Tam bir il bu iş buna adət olmuşdu. Və bir ilin müddətində bu bala böyüyüb bir camış olmuşdu. Bir neçə vaxtdan sonra padşah hərəmini xəbər aldı. Buna dedilər ki, ölkənin filan yerindədir. Padşah oraya getmək üçün hazırlaşmanı əmr etdi və yola düşüb getdilər.

Bunlar gəlib çatdıqda qadın onları məmnuniyyətlə qəbul etdi. Sonra bunlar həyətə çıxdıqda qadın bunların qabağına camışı gətirib dedi:

– Kim bu camışı qırx pilləkəndən qaldırıb düşürdər?

Hamısı bir-birinin üzünə baxıb heç kəs danışmadı. Bu zaman qadın camışı qucağına alıb qırx pilləkənə qaldırıb düşürtdü. Hamı bu işə təəccüblə qalıb mərhəba dedilər. Padşahın çox xoşuna gəldi və dedi ki böyük hünərdir.

O zaman qadın:

– Qurbanın olum, bu təəccüblü iş dəgil, adətdir.

## Kişisən yemə!

Keçmiş zamanlarda bir padşah tiryək atmağı adət etmişdi. Fəqət tiryək buna zərər etdigindən əmr verdi ki, hər kəs bənim tiryək atmağımı bənə tərgidərsə, onu hər cəhətdən təmin edərəm.

Çox həkimlər buna müalicə etdilər. Fəqət yenə də tərgizmədi. Bir gün lotulardan biri padşahın imarətinin qabağından keçərkən gördü ki, bir böylə elan yazılıb. Hər kəs padşaha tiryək atmağı tərgizsə, çoxlu pul veriləcəkdir.

Lotu tez padşahın qapısını dögdügü zaman qulluqçular qapını açıb soruşdular:

– Kimsən? Nə istəyirsən?

Lotu:

– Bən təbibəm.

Bunu səvinə-səvinə qəbul edib padşahın yanına apardılar və padsaha müalicə etmək üçün gəldigini söylədilər.

Şah:

– Əgər bacarmasan səni asdıracağam.

Lotu dedi:

– Eybi yoxdur.

Lotu padşaha him etdi ki, səndən və bəndən başqa adam olmasın.

Padşah hamını bayıra çıxartdırdı.

Lotu padşaha dedi:

– Soyun.

Padşah soyundu. Qaldı bircə alt tuman. Lotu:

– Kişisən ya yox?

Padşah:

– Əlbəttə, kişiyəm.

Lotu:

– Əgər kişisən deginən: Ay tiryək, bən bir də səni yeməRəm. Sən kişi olsan sözün bir olar.

Padşah özü-özünə – bən axı kişiyəm, bənim sözüm gərək bir ola.

Odur ki, bundan sonra tiryək yeməgi tərgizdi.

## Oğru və ac ailə

Bir gecə bir kasıb kişinin evinə oğru gəlib taxca-baxcanı axtarırdı ki, hər nə tapsa aparsın. Bu halda uşax yuxudan oyanıb ağlamağa başladı. Uşaxların səsinə anası oyanıb gördü ki, paho, bir nəfər evi axtarır. Başa düşdü ki, oğrudur. Bu zaman uşağına dedi ki, ağlama balam, ağlama, əmi çörək üçün gəzir, taparsa bir parça sənə də verər.

Oğru bunu eşidən kimi o saat qoyub getdi.

## Gən qazıyıb

İki kəndli yol ilə gedərkən söhbət edirdilər. Bunların söhbəti bu yerə çatdı. Birinci kəndli dedi:

– Həqq Əli ilədir.

İkincisi isə dedi:

– Həqq Ömərlədir.

Höccət edə-edə bir arxın qırağına çatdılar. O vaxt biri o birisinə dedi:

– Birimiz Əlini çağırıb atılaq, o birimiz Öməri. Hansımız hoplanıb keçdik həqq onun tərəfindədir.

İkisi də razı olub geriyə çəkildilər. Şiə qardaş – ya Əli, ya mədəd, – deyib irəli yüyürərək hoppandı. Fəqət arxın taraz ortasına düşdü. Suyu süzülə-süzülə arxın o biri tərəfinə çıxıb məyus-məyus baxırdı. Sünnü qardaş – ya Ömər, ya mədəd, deyib yüyürərək şest ilə hoppandısa da, bu da haman şiə düşən yerə düşdü.

Sünnü qardaş da suyu süzülə-süzülə o biri taya çıxıb şiə qardaşının yanında məyuscasına durdu. Sonra bir-birlərinə dedilər:

– Qardaş, təqsir nə Əlidədir, nə də Ömərdə. Arxı qazıyan zalım balası çox gən qazıyıb.

## Üç Lotu

Üç lotunun pulu qurtarmışdı. Bunlar sözü bir yerə qoyub deyirlər ki, biz bu saat çıxarıq küçəyə, hər kəs bizə rast gəldi onu tutub boynuna bir söz (böhtan) atarıq. Bəlkə bu günkü xarcımızı çıxardarıq.

Bunlar çıxdılar küçəyə. Bir qısa və kosa kişinin gəldigini görcək yaxınlaşaraq:

– A kişi, adın nədir?

Kişi:

– Musadır.

Birinci lotu:

– Bizim papağı oğurlayanın adı Musadır.

İkinci lotu:

– Düz deyirsən adı Musadır, boyu qısadır.

Üçüncü lotu:

– Düz deyirsiniz. Adı Musadır, boyu qısadır, özü də kosadır. A kişi, gedək hakimin yanına. Bizim papağımızı oğurlamısan.

Kişi:

– A balam, nə papaq, nə oğru?

Bunlar buna baxmayaraq:

– Çox danışma! Sən bu gecə gəlib bizim papağı oğurlamısan. Gedək hakimin yanına.

Bunlar bunu sürüyə-sürüyə hakimin yanına apardılar. Hakim:

– Nə olmuşdur?

Bunlar isə:

– Bizim papağımızı oğurlayıb.

Hakim kişini dindirib:

– A kişi, doğrudurmu?

Kişi:

– Qurbanın olum, bunnar yalan deyir. Bən oğru dəgiləm.

Hakim üç nəfərə:
– Sübutunuz varmı?
Birinci lotu:
– Bizim papağı oğurlayanın adı Musadır.
İkinci lotu:
– Doğrudur, adı Musadır, boyu qısadır.
Üçüncü lotu:
– Düzdür. Adı Musadır, boyu qısadır, özü də kosadır. Bu kişidə bizim nişanlarımızın üçü də var.
Hakim kişidən:
– A kişi adın Musadır?
Kişi:
– Bəli Musadır.
Hakim bunların lotu olduğunu anlayıb deyir:
– Yaxşı, indi bən sizə ovcumda gizli bir şey göstərəcəgəm. Əgər ovcumun içindəkinin nə olduğunu bilsəniz, deməl siz haqlısınız.
Birinci lotu:
– Lotunun varıdır.
İkinci lotu:
– Doğrudur. Lotunun varıdır, rəngi də sarıdır.
Üçüncü lotu:
–Düzdür. Lotunun varıdır, rəngi sarıdır, ovcundakı da darıdır.
Hakim ovcunu açdıqda doğrudan da, darı olduğunu gördülər.
Hakim gülür. Buna baxıb lotular da gülürlər. Kişi də bunlara baxıb gülür.
Hakim lotulara:
– Bən sizin lotuluğunuzu başa düşüb gülürəm. Siz nəyə gülürsünüz?
– Biz də sizin bizim lotuluğumuzu başa düşdügünüz üçün gülürük.
Hakim kişiyə:
– A kişi, bəs sən nəyə gülürsən?
Kişi:

– Qurbanın olum! Bir yerdə ki hakim gülə, lotular gülə, işin nə olduğu aşkara çıxa, bən olmayım, hər kəs olsa gülər.

Hakim lotulara bir tümən verib rədd etdikdən sonra kişini də mürəxxəs edir.

## İki paxıl

Bir ölkədə iki paxıl var idi. Bunlar bir padşahın bağında bağban idilər. Bunlar bir-birinə paxıllıq nəticəsində başladılar bağa yaxşı qulluq etməgə. Hərəsi özlügündə fikir edirdi ki, yoldaşımın acığına padşahdan yaxşı baxşış alaram.

Doğrudan da, o il bağın məhsulu, gülü, çiçəyi çoxaldı və bağ özü də yaxşılaşdı.

Bir gün padşah bağa gəldi. Bağın hər bir yerini gəzdi. Gördü ki, bağ bir parça behişt olmuşdur. Padşahın xoşu gəlib bağbanları çağırdı. Dedi:

– Sabah hər ikiniz gələrsiniz, sizə baxşeyiş verəcəgəm.

Padşah getdi. Bu iki paxıl səhərdən axşama, axşamdan səhərə qədər o günü paxıllıqdan dolayı yata bilmədilər: bənə verən baxşayışdan yoldaşıma verməsin.

Nə isə, səhər oldu. Bunlar padşahın yanına getdilər. Padşah bunlara dedi ki, bəndən nə istəyirsiniz sizə bağışlayım? Onu da bilin ki, bəndən əvvəlinci baxşış istəyənə nə versəm, ikincisinə ondan iki qat artıq verəcəgəm.

Padşahın bu sözü deməkdə fikri vardı. Çünki padşaha demişdilər ki, bunlar paxıl adamdırlar. Padşah yenə sözünü təkrar etdi:

– Hə, istəyin görüm.

İkisi də fikirləşirdi ki, nə etsinlər, birisi o birisindən çox almasın. Kim qabaqca nə istəsə, ikinci ondan iki dəfə artıq alacaq. Bu səbəbə görə hər ikisi susmuşdu. Birdən birisi dedi:

– Padşah sağ olsun, əmr verin bənim bir gözümü çıxarsınlar.

Padşah təəccüblə:

– A kişilər, bən sizi baxşış verməgə çağırmışam. Bəs nə üçün gözünü çıxartdırmaq istəyirsən? Bunu bənə bəyan et!

Kişi:

– Bən nə alsam, o bəndən iki qat artıq alacaq. Buna heç birimiz heç vaxt razı ola bilmərik. Bən bir gözümdən keçirəm. Qoy onun iki gözünü çıxarsınlar.

Padşah cavabında:

– Yoldaşına paxıllıq edən özü də itirər.

İkisinin də cəzaya məhkum edilməsini əmr etdi.

## Dəllək Fərzalı

Dəllək Fərzalı kim idi? Bakıda məşhur bir adam idi. Sənəti isə dəlləklik idi. Qol qanı alar, xəlifəlik edər, yaraya müalicə edər, oğurluq da edərdi.

Bir gün bu oğurluğa gedir. Ev sahibi xəbər tutur ki, damda adam var. Çığırır:

– Ey! Kimdir damdakı?

Dəllək Fərzalı bilmir nə etsin və deyir:

– Adə, bənəm, dəllək Fərzalıyam. Yat keşigivi çəkirəm!

Böylə ki bu söz Bakı camaatı üçün məsəl olmuşdu. Məclislərdə və söhbət arasında deyərdilər:

– Dəllək Fərzalıyam, yat, keşigivi çəkərəm.

Bir gün bu dəllək Fərzalını qan almağa apardılar. Dəllək Fərzalı qoçaq bir yekə küpəni xəstənin dalına yapışdırıb sonra çərtməgə başlayır. Çox dərindən çərtdigi üçün azarlının atası yanır, və başlayır qışqırmağa. Dəllək Fərzalı dəstəyə deyir:

– A balam, nə üçün bağırırsan? Ülgüc ilə bir az çərtmişəm, balaca dərindən olub. Nə olar? Bəlkə sən dəstə-pıçaq davasına düşdün. Onda nə edərsən?

Xəstə deyir:

– Usta, biraz dayan.

Usta bir az dayanır. Azarlı qalxıb küpəni götürərək ustanın başına çırpır. Usta yumbalanır və başlayır çığırıb-bağırmağa.

Azarlı deyir:

– Usta, nə çığırıb bağırırsan? Bu ki, balaca küpədir. Bəlkə sən sovca, səhəng, küp davasına düşdün. Onda nə edərsən? Bu ki, balaca küpədir. Nə üçün bağırırsan?

## Yalanı qaydası ilə danış

Bir ölkədə iki qardaş varmış. Biri yalançı, o birisi isə doğruçu idi.

Doğruçu qardaşın söylədiginə heç kəs inanmaz idi. Amma yalançıya isə hamı inanardı.

Bir gün doğruçu qardaş yalançı qardaşına dedi:

– Ay qardaş, sözün düzünü, doğrusunu söyləyirəm heç kəs inanmayır. Sən necə edirsən ki, bu camaat sənin bütün yalanlarına inanır?

Yalançı dedi:

– Bən yalan danışmağın qaydasını bilirəm.

Doğruçu qardaş:

– Mən bir yalan danışacağam görək nə olar?

Yalançı qardaş dedi:

– Danışma, biyabır olarsan.

Doğruçu buna inanmadı. Küçəyə çıxıb ucadan çığırdı:

– Ay camaat! Bilirsiniz nə var? Bən gögdən it səsi eşitdim.

Camaat başladı bunu ələ salmağa. Heç gögdən it səsi gələr?

Yalançı qardaş baxırdı gördü ki, doğruçu qardaşın işi şuluxdur. Cavab verəb bilməyir. .. Dərhal iləri yeriyib:

– Nə olubdur? – deyə soruşdu.

Camaat:

– Bu deyir ki, göydən it səsi gəlib. Heç elə şey olar?

Yalançı bir doğruçunun üzünə baxıb gördü ki, doğruçu lap karıxıb, cavab verə bilməyir. Qardaşına yazığı gəlib, o saat üzünü camaata tutaraq:

– Canım, bu kişi doğru deyir. Ola bilər ki, gögdən it səsi gəlsin. Çalağan quşu it küçüyünü caynağına vurub aparanda küçük zingildəyib və gögdən səsini eşidib.

Camaat inanaraq – ola bilər, – dedi.

Yalançı qardaş doğruçuya:

– Sənə demədimmi yalan danışmağın gərək qaydasını biləsən!

## Eşit inanma

Bir tacirin ağır yükü vardı. Bunu evinə aparmaq istəyirdi. Lakin yükün ağırlığından heç kəs yaxın düşməyirdi. Bu kişi bərkdən dedi:

– Ay hammallar! Hər kəs bənim bu yükümü evimə aparsa, bən ona bir qiymətli söz deyəcəgəm.

Həmmallardan birisi özi-özinə:

– Bən gedib bunun yükünü aparacağam. Görüm bu kişi nə deyəcək.

Yaxın gəlib yükü dalına alaraq evinə apardı. Bu kişinin də evinin qırx pilləkəni var imiş. Yazıq hammal ölüm zülmlə yükü yuxarı çıxardı. Kişi istədi ki, yükü bunun dalından alsın, hammal dedi:

– Əvvəlcə sözü bənə öyrət, sonra yükü yerə qoyum.

Kişi:

– Hər kəs sənə desə ki, sirkə baldan şirindir, eşit inanma!

Hammal bu axmaq sözü kişidən eşidən kibi qanı qaraldı və dedi:

– Bən sənə bundan yaxşısını öyrədəcəgəm.

Deyib özünü yan verərək tayı pilləkənbaşı aşağı yuvarlatdı. Tay pilləkəndən yumbalana-yumbalana həyətə düşdü. Hammal:

– Hər kəs sənə desə ki, tayın içindəkilər salamat qaldı, eşit inanma!

Tayın içindəkilər sınan qab imiş.

## Birələrin insanlardan şikayəti

Birələr insanlara dedilər:

– Birələri tutanda öldürün, burmayın, ya da burun öldürməyin.

İnsanlar da böylə bir cavab verdilər:

– Çox yaxşı. Biz buna razıyıq. O zaman siz də şah atlanmayın, ya da atlanın sancmayın.

## Dana batırıb baltanın dəstəsinə

İki kəndlinin bostan üstündə davaları düşmüşdü. Bunların hər ikisini mollanın yanına göndərirlər ki, işlərini ayırd etsin.

Molla bunların hər ikisini dindirib dedi:

– Gedin, sabah gələrsiniz, cavabını deyərəm.

Bu iki kəndli olayı böylə gördükdə hər ikisi xəyal edir ki, mollanın buğunun altından keçmək lazımdır ki, işi bənə sarı kəssin.

Kəndlinin biri mollaya balta bağışladı. O birisi isə bir dana bağışladı.

Səhər ikisi mollanın qulluğuna gəlib işin nə yerdə olduğunu bilmək istədilər.

Molla bunları bir dəfə də dindirdikdən sonra fikrə getdi ki, işi hansına sarı kəssin. Hər iki kəndli xeyli gözlədikdən sonra balta gətirən dedi:

– Molla əmi, burada çox fikir lazım degil, baltala getsin də...

O, onu demək istəyirdi ki, bən sənə balta vermişəm, işi bənə sarı kəs!

Balta gətirən kəndlinin xəbəri yox idi ki, o biri kəndli molla üçün dana gətirib.

Molla balta gətirənin üzünə baxıb dedi:

– Sən düz deyirsən, baltalamaq lazımdır, ancaq dana batırıb baltanın dəstəsinə.

## Bir dəridən dörd papaq

Bir gün lotulardan birisi papaqçının yanına gəlib dedi:

– Ay usta, mənə bir papaq tik!

Usta:

– Baş üstə, – deyib müşdərinin qabağına dəriləri qoydu:

– Bax, hansı birini istəyirsən sənin üçün tikim.

Müştəri dərilərdən birini seçib ustaya dedi:

– Bundan iki papaq olarmı?

Usta:

– Nə üçün olmayır? Olar.

Müştəri bir də dərinin o yan bu yanına baxıb dedi:

– Bəlkə üç dənə oldu?

Usta:
– Nə üçün olmayır? Olar, olar.
Müştəri:
– Başına dönüm usta, sən gəl dörd dənə tik.
Usta:
– Nə üçün tikməyirəm? Tikərəm.
Müştəri əlini səvinə-səvinə cibinə salıb beh verdi:
Müstəri:
– Haçan gəlim aparım?
Usta:
– Bir həftədən sonra gəl apar.
Müştəri çıxıb getdi.
Usta dörd dənə balaca-balaca papaq tikdi.
Bir həftədən sonra gəldi.
– Usta, hazırdırmı?
Usta:
– Bəli, hazırdır!
Dörd dənə balaca papaqları gətirib onun qabağına qoydu. Müştəri papaqlara baxıb dedi:
– Ay usta, bən bu balaca papaqları nə edecəm? Bir az böyük tikə idin.
Usta buna böylə bir cavab verdi:
– Sən lotusan, bən səndən ikiqat artıq lotuyam. Sən bənə papağın böyük-kiçikliyini demədin. Dedin ikisi olar? Dedim olar. Dedin üçü olar? Dedim olar. Dedin dördü olar? Dedim olar. Bir dəridən dörd papaq bu boyda olar.

**Bi kisəyi, bi çubuğu, bi tütün**

Bir qarabağlı tacir ildə Qarabağdan Təbrizə alış-verişə gedib alış-veriş mevsimi qurtarıb Qarabağa qayıdanda üç-dörd ay Qarabağda qalıb yenə alış-veriş mevsimində Təbrizə qayıdardı. Bu Təbrizdən çıxanda özü-özünə hesab edir ki, bənə üç-dörd ayda beş girvənkə tənbəgi bəsdir.

Tənbəkini alıb Qarabağa gəldi. Gedib öz hücrəsini açıb alış-verişinə məşğul oldu. Qarabağın tacir və bəgləri bunun ya-

nına gəlib söhbət edirdilər. Bu binəva tacir peşiman olub tənbəki kisəsini çıxarıb qəlyanı doldurub onlardan birinə təklif edir ki:

– Buyur, bu qəlyanı çək! Yaxşı tənbəkidir.

Birisi çəkdikdən sonra tərif etdi:

– Heç belə tənbəki olmaz.

Bundan sonra hər gün gəlib yer basandan başladılar:

– Kisəvi ver, bir qəlyan doldurum.

– Ə kişi, əcəb tənbəkidir.

Qərəz.... Dörd aylıq tənbəki bir ayda qurtardı.

Bu tacir Təbrizə böylə bir məktub yazdı:

– Bi kisəyi, bi çubuği, bi tütün.

Çubuğ çəkər əhli Qarabağ bütün
Bənə tənbəki göndərin, tənbəkim qurtarıb.

## Üç gün deyərlər

Bir ölkədə bir devlətli oğlu üçün bir devləti dul qadın almaq istəyirdi. Oğlu bu işə razı olmaq istəməyirdi. Atası oğlundan soruşdu:

– Nə üçün razı olmaq istəməyirsən?

Oğlu buna cavab verdi:

– Dünyada nə çoxdur bakirə qiz. Nə üçün bən dul arvad alım? Camaat bənə rişxənd edər.

Atası dedi:

– Oğlum, üç gün deyərlər.

Oğlu başa düşməyib razı olmayır.

Atası oğluna:

– Bənə bir toyuq gətir.

Oğlu gedib ona bir toyuq gətirdi. Atası alıb toyuğu diri-diri ütdü. Qıçına bir ip bağlayıb oğluna dedi ki:

– Apar bunu küçə qapısında bağla.

Oğlu aparıb toyuğu küçə qapısına bağlayıb tamaşaya dayandı. Bu toyuğun başına xeyli adam yığılaraq "tüksüz toyuq" deyib gülürlərdi.

Oğlan atasının yanına qayıdarkən atası ondan soruşdu:

– Hə, nə gördün?

Oğlu dedi:

– Dəstə-dəstə camaat gəlib tamaşa edərək gülürlər.

Üç gündən sonra atası oğluna dedi:

– Get bala, bax gör nə görürsən?

Oğlu gedib gördü ki, tək-tək adamlar baxıb keçirlər. Oğlan qayıdaraq atasına dedi:

– Küçədən keçən baxıb heç bir söz demədən keçir.

– Sənə demədimmi üç gün deyərlər? Deməli camaatın qulağı doldu. Oğlum, üç gün deyərlər. Gəl, sən bən deyənə razı ol!

## Qovurma

Bir gün iki nəfər bir-biri ilə höccət etdilər ki, "qovurma" "qayn"la yazılır və ya "qaf"la.

Bunlar çox höccətdən sonra mollanın yanına getdilər ki, bu məsələni həll etsinlər. Bunlar məsələni mollaya nəğl etdilər.

– Molla əmi, deginən görək "qovurma" "qayn"la və ya "qaf" la olur?

Molla dedi:

– Balam, "qovurma" nə "qayn" la, nə də "qaf"la olar. Ət ilə yağı tökərsən tavaya qovurarsan, olar qovurma.

## İmamı divarın dalında qoyma!

Keçmişdə Təbriz dübbələrindən biri Bakiyə gəlib özünü abid qələmə verməklə Bayıl qayalarının dibində özünə bir qazma qazıyıb ibadət edərdi....

Bu nəfər Bakidə məhşur bir adam olmuşdu. Bakı lotularından bir neçə nəfəri bir yerə yığılıb bu abidə bir kələk düzəltdilər.

– Gedib ondan xəbər alarıq ki, imam divarın o tərəfində olanda bu tərəfdə nə olursa bilə bilər? Abid deyərsə ki, bilər, onda bir söz soruşarıq ki, nə edir ki, bilir? Əgər desə ki, bilməyirəm, onda biz ona deyərik ki, o, necə imamdır ki, bilməyir.

Bunlar qət edib gedirlər. Gəlib mağaraya girirlər. Hərif o dəqiqədə bunların da bunun kibi lotu olduqlarını bildi. Nə isə deyirlər:

– Molla əmi, imam divarın o tayında olanda nə olursa bu tayda, bilə bilər?

Abid böylə bir cavab verir:

– Balam, siz nə üçün imamı divarın dalında qoyursunuz? İmamı çıxarın divarın üstünə, o yandakını da görsün, bu yandakını da görsün.

## Gül Mirzənin qətiri

Gül Mirzə İçəri Şəhərdə məşhur bir dəgirmançı idi. Onun bir qətiri vardı. Bu qətirin qəribə tərcumeyi-halı var idi.

Haman qətiri o qədər dəyirmana qoşub işlədərdilər ki, heyvan lap yorulardı. Gül Mirzə dəgirmərdən həyətə çıxanda qətir dayanıb ağzını dəgirmanın sər-sərəsinə uzadaraq buğda oğurlayıb yeyərdi. Camaat arasında bir misal olmuşdu "qətirin köhnəsi sər-sərdən buğda oğurlar". Bu qətir çox bicləşmişdi. Məsələn, birisi dəgirmana buğda gətirib qapını dögəndə qətir dayanardı və qulaqlarını şəkləyərdi.

Gül Mirzə qışqırardı:

– Adə kimsən?

Qapı dögən deyərdi:

– Gül Mirzə əmi, buğda gətirmişəm ügütməgə.

Gül Mirzə:

– Neçə batmandır?

Müştəri:

– On batman! On!

Qətir on batman sözünü eşitdikdə, dəgirmanı şıllaqlamağa başlardı.

Gül Mirzə buğdaçıya yavaşcadan:

– Adə, deginən iki batman, iki batman! Qətir dəgirməni uçurdu.

Buğdaçı bərkdən:

– İki batmandır! İki batmandır!

Qətir iki batman sözünü eşitdikdə sakitləşərdi.

Bu qətirin yaşını bilmək üçün dəgirman qabağında hər gün mübahisə edib bu qətirin dodağını igirmi dəfə qaldırıb dişinə baxardılar. Ona görə də bu heyvan adətkərdə olmuşdu.

Qəflətən bir nəfər bu qətirin yanından keçdikdə elə bilərdi ki, bunun yanına gəlib dişinə baxmaq istəyirlər. O saat başını

qaldırıb dodağını qovzayardı. Odur ki, qətirin bu hərəkəti camaat arasında məsəl olmuşdu: "Adə, yanından keçəndə, Gül Mirzənin qətiri kibi dodağıvı qovzayırsan".

## Tələ yiyəsi gələndə

Bir gün bir ac tülkü özünə şikar axtarırdı. Gördü ki, bir bağda tələ qurulub, tələnin içində də bir parça quyruq var. Tələnin o yanına, bu yanına gedib quyruğu çıxarmaq istədisə də gördü heç mümkün degil. Nə tövr etsə özü də düşəcək tələyə.

Gördü ki, uzaqdan bir qurd gəlir. Tez qurdun qabağına yüyürüb dedi:

– Ay qurd qardaş, yaxşı oldu sən gəldin. Bu bağda bir parça quyruq var, gəl gedək onu göstərim sənə ye.

Qurd:

– Bəs sən nə üçün yeməyirsən?

Tülkü:

– Mən orucam.

Qurd quyruğu görən kimi tələnin üstünə sıçrayıb ağzı ilə götürmək istədisə də tələyə düşdü.

Tələ çərtilib quyruğu ortalığa sıçradı. Tülkü quyruğun üstünə cumub yeməyə başladı. Qurd tülküdən soruşdu:

– Bəs sən deyirdin orucam?

Tülkü:

– Bən ayı gördüm. Bənim bayramımdır.

Qurd:

– Bəs mən ayı haçan görəcəgəm. Bənim bayramım haçandır?

Tülkü cavab verdi:

– Sənin bayramın tələ yiyəsi gələndə.

## Baqqal, şair və daraqsatan

Bir baqqalın bir şair tanışı vardı. Ona küçədə rast gəlib söhbət edərək gedirdilər. Şair gördü ki, bir kişi tində oturub qabağında nə isə satır. İləri yeriyib soruşdu:

– A kişi, nə satırsan?

Kişi cavab verdi:

– Mirzə, saqqal darağı.

Şair:

– Neçəyə deyirsən?

Kişi:

– Mirzə, bir qrana.

Şair əgilib daraqlardan birisini götürüb oyan-buyanına baxdıqda daraqsatan:

– Mirzə, imdi onun qiyməti oldu yüz qran.

Şair daraqsatanın üzünə təəccüblə baxıb əlindəki darağı saqqalına apararaq durdu saqqalını daramağa və dedi:

– Nə üçün bir qranlıq şey birdən – birə yüz qrana qalxdı?

Daraqsatan:

– İndi isə qiyməti həddindən ziyadə oldu.

Şair daraqsatandan daha təəccüblə soruşdu:

– Nə üçün bir qranlıq şey bir dəqiqənin içində həddindən ziyadə oldu?

Darağı satan böylə bir cavab verdi:

– Öylə ki, bir qranlıq şeyi Mirzə əlinə aldı onun qiyməti oldu yüz qram. Sonra ki, Mirzə onu saqqalına vurdu, onun qiyməti oldu həddindən ziyadə.

Bu söz şairin xoşuna gəlib darağı satana bir abbası bağışlayaraq çıxıb getdi.

Baqqal öz-özünə düşünürdü:

– Bən də gedib bu şair kibi haman daraq satandan darağı xəbər alacağam. Yəqin ki, şairə deyən sözlərdən bənə də deyəcək.

Neçə vaxtdan sonra baqqal haman daraqsatanın yanına gəlib dedi:

– Kişi, darağı neçəyə verirsən?

Daraqsatan:

– Bir qrana.

Baqqal birini əlinə götürdü. Daraqsatan:

– İndi onun qiyməti oldu yarım qran.

Baqqal saqqalını darayaraq:

– Nəyə baha deyirsən?

Daraqsatan:

– İndi at çölə.

Baqqal təəccüblə:

– Nə üçün?

Daraqsatan:

– Darağın qiyməti bir qran idi. Sən ki, onu əlinə aldın oldu yarım qran. Sonraki batırdın p..lu saqqalıva oldu bayıra tullamalı.

Baqqalın acığı tutub darağı tullayıb çıxıb getdi.

## Bir də vursan, heç nə

Bir gün bir hammal dalında bir ağır tay küçə ilə gedirdi. O tərəfdən bir dəlinin biri hammala yaxınlaşıb əlini qaldıraraq hammalın dalındakı taya vurdu və soruşdu:

– Ay kişi, yükün nədir?

Hammal təəccüblə onun üzünə baxıb dedi:

– A balam, bir də vursan heç nə.

Hammalın dalındakı saxsı qab imiş.

## Mıxı mismar edən Pərvərdigar

Bir gün bir dəmirçini aparırlar padşahın yanına. Padşah əmr verir ki, bu kişi bu gecə səhərə qədər min dənə mıx qayırsın. Əgər qayırmasa, başı kəsiləcək.

Kişi evə qayıdar, çox fikirdən sonra gedir bazara ət, düyü, yağ, qaysı, kişmiş alır gətirir evə. Arvad kişinin bu hərəkətini görüb xəbər alır:

– Ay kişi, olmaya qonağın var? Axşama plov bişirtdirirsən?

Kişi cavab verir:

– Arvad, padşah mənə əmr eləyib ki, bu gecə səhərə qədər min dənə mıx döyüb hazırlamalıyam, əyər hazırlayamasam sabah öləcəyəm.

Arvad xəbər alır:

– Bəs bu dəsgah nə üçündür? Götür mıxını qayır.

Kişi cavabında deyir:

– İş elə orasındadır ki, mən mıxı qayırmayacağam.

Arvad:

– A kişi ölməyini istəyirsən?

Kişi:

– İş burasındadır ki, mən nə qədər özümü öldürsəm, işləsəm, min dənə mıxı səhərə qədər qayıra bilməyəcəyəm. Sabah zəhmətim də gedəcək, özüm də öləcəyəm. Yaxşısı budur ki, dur ayağa plovu bişir, balalarımı yığım başıma, ağzı ləzzətli plovu yeyək. Balalarımla da doyunca görüşüm, sabaha çox qalıb, Allah kərimdir.

Arvad plovu bişirir və yeyirlər. Başlarını atıb yatırlar. Sübh tezdən dəmirçi durub ailəsi ilə görüşüb şahın fərmanını gözləyirdi. Bir də gördü ki, qapı döyülüb kişi qapını açır ki, görsün kimdi. Görür ki, iki nəfər hökumət tərəfindən göndərilmiş qara geyimli adamlardır. Kişi soruşdu:

– Əmriniz nədir? Mən hazıram.

Deyirlər:

– Ay kişi bu gecə qəflətən padşah ölüb, tez get dükanına, padşahın qutusu üçün dörd dənə mismar qayır. Özün də azadsan.

Onda dəmirçi şad olaraq deyir:

– Ey mıxı mismar eyləyən pərvərdigar.

## İş fərasətdədir

Padşahın vəzirin və naxırçının oğlanları birlikdə bir məktəbdə oxuyurdular. Molla padşahın və vəzirin oğlanlarına nə qədər səy edirdisə, fəqət uşaqların zehinsizliklərindən bir şey öyrədə bilmirdi. Amma naxırçı oğlu isə molla bir dəfə dərsi dedikdən sonra yaxşı çalışıb dərsini öyrənərdi.

Padşah oğlunun oxuması ilə maraqlanıb vəziri yanına çağırdı və uşaqların necə oxuduqlarını sordu. Vəzir padşahın əmrini yetirmək üçün mollanın yanına gedərək uşaqların necə oxumasını sordu. Molla isə cavabında – iş fərasətdədir, – deyir.

Vəzir mollanın bu cavabını anlamadığından molladan soruşur:

– Sən bu sözünlə nə demək istəyirsən?

Molla cavab verir ki, bunların üstə mən çox çalışıram, amma bir şey çıxmayır, zehinsizdirlər.

Vəzir padşahın yanına qayıdaraq – qibleyi-aləm sağ olsun! Uşaqlar yaxşı oxumurlar. Molla deyir ki, iş fərasətdədir.

Padşah bu sözü fikirləşərək vəzirlə bərabər mollanın yanına gəlir. Molla əhvalatı danışdıqdan sonra "İş fərasətdədir" deyir. Padşah bunu eşitcək qəzəblənərək "necə iş fərasətdədir" soruşur. Molla:

– Qibleyi-aləm sağ olsun, izn verin mənə bu saat sizə göstərim.

Molla uşaqları həyətə çıxaraq beş təbəqədən ibarət kağızı padşahın və vəzirin oğlanlarının döşəyinin altına qoyur, amma naxırçının oğlunun döşəyinin altına bir təbəqə kağız qoyur. Molla uşaqları təkrar otağa çağırıb öz yerində uşaqların oturmasını göstərir.

Uşaqlar hamısı sakit öz yerində otururlar, ancaq naxırçının oğlu təşvişə düşərək o tərəf, bu tərəfə baxır. Molla naxırçının oğlundan sual edir:

– Nə üçün yerində sakit oturmursan?

– Uşaq isə cavabında – molla, bilmirəm mən böyümüşəm. Yoxsa ki, döşəyim qalınlaşıbdır. Özümü yarım saat bundan əvvəlkindən oturduğum yerdən hündürdə hiss edirəm.

Molla, padşah və vəzirin oğlanlarından soruşur:

– Siz özünüzü necə hiss edirsiniz?

Padşah və vəzirin oğlanları cavabında "biz heç bir şey hiss etmirik" deyə cavab verirlər.

Molla padşahın və vəzirin oğlanlarının döşəyinin altında beş təbəqə kağız, amma naxırçının oğlunun döşəyinin altından isə bir təbəqə kağız çıxardaraq padşaha göstərir:

– Budur, qibleyi-aləm! Naxırçı oğlu bir təbəqə kağızı hiss edir, amma sizin oğlanlarınız beş təbəqə kağızı hiss etmirlər.

Padşah bi qədər fikiləşdikdən sonra deyir:

– Doğru deyirsən, molla iş fərasətdədir.

## Şah və odunçu

Bir gün bir kasıb kişi meşədə odun qırırdı. Ölkənin padşahı da o meşəyə ova çıxmışdı. Yolu meşənin kənarından düşüb bu kişiyə rast gəldi. Vəzirə dedi ki:

– Vəzir, bən buna bir neçə sual verəcəm. Əgər sualıma yaxşı cavab versə, bu kişini bu zəhmətdən azad edəcəyəm. Əgər düzgün cavab verə bilməsə boynunu vurduracağam.

Padşah bu kişiyə çatıb dedi:

– Ay kişi, sən nə üçün üçü doqquza vurmadın?

Kəndli:

– Qurbanın olam, vurdum, əmma otuz iki qoymadı.

Padşah:

– Ay kişi, atlısan ya piyada?

Kəndli:

– Qurbanın olum, ikini üç etmişəm.

Padşah əmr verdi ki, bunun xurcununu qızıl ilə doldursunlar. Çünki düzgün cavab verdi və kəndlinin xurcununu qızıl ilə doldurdular. O, da usta addımlarla sevincək evinə doğru düzəldi. Vəzir padşaha dedi ki:

– Qurbanın olum, o kəndlidən nə xəbər aldın ki, ona o qədər qızıl verdin?

Padşah dedi:

– Vəzir, bən o kişidən xəbər aldım ki, nə üçün üçü doqquza vurmadın? Yəni üç ay yayda doqquz ay qışın tədarükünü görmədin ki, rahat olaydın. Kişi isə bənə cavab verdi: Qurbanın olam, vurdum, əmma otuz iki qoymadı. Yəni otuz iki dişim yeyib qurtardı. İkinci dəfə soruşdum ki, atlısan ya piyada? O, isə bənə dedi: ikini üç etmişəm, yəni bən ondan soruşduqda qol-qıçın salamatdır? O, bənə dedi: qol-qıçım səlamət degil, iki ayağım vardı, üçüncüsü olaraq əlimə bir əsa aldım.

Üçüncü sualda dedim ki, uzaqdasan ya yaxında? Kəndli isə bənə cavab verdi – yeddini səkkiz etmişəm. Yəni yetmişi səksən etmişəm, qocalmışam.

Vəzir:

– Qurbanın olam, bən də gedib ona bir neçə sual verəcəgəm. Əgər bildi, bilib və illa bilməzsə, qızılların hamısını ondan alacağam.

Padşah dedi ki:

– Vəzir, gəl sən getmə, o kişi çoq bilmiş adama oxşayır, səni aldadar.

Nə isə... Vəzir izn alıb getdi. Və kişiyə çatar-çatmaz dedi:

– Ay kişi, bən də sənə bir neçə sual verəcəgəm. Bildin heç, əgər bilməsən, onda qızılları səndən alacağam.

Kişi:
– Vəzir, buyurun!
Vəzir:
– Ay kişi, dünyanın ortası haradır?
Kişi:
– Helə bura.
Vəzir:
– Haradan bildin?
Kişi:
– Əgər inanmırsan, ölç bax.
Vəzir:
– Göydə ulduz neçədir?
Kişi:
– Bənim bu eşşəyimin tükü nə qədər olsa, o da o qədər.
Vəzir:
– Bu ola bilməz!
Kişi:
– İnanmayırsan? Say bax!
Vəzir:
– Bəs bu çərxi – fələk nə deməkdir?
Kişi:
– Hə... bu məsələ çox uzundur və mühüm olur. Deyərəm, ancaq bir iş var. Onu etsən buna da cavab verərəm.

Vəzir razılıq verdi. Kişi:

– Bax, ay vəzir, sən düş atdan, bən də düşüm eşşəkdən. Sən gəl min eşşəgə, bən də xurcunumla minim o ata. Onda deyərəm.

Vəzir razı olaraq atdan düşdü və mindi eşşəgə. Kişi də eşşəgdən düşüb mindi ata və xurcunu da qoydu yanına. Kişi:

– Vəzir, bilməyirsən bil. Çərxi-fələk budur: Atlını eşşəgli, eşşəglini atlı edər.

Deyib atı çapdı. Vəzir ha əlləşdi, fəqət buna çata bilmədi. Kor və peşman geriyə qayıtdı. Padşah gördü vəzir gəlir, əmma eşşəglə. Padşah dedi:

– Vəzir, sənə bən demədim ki, o kişi çoq bilmiş adama oxşayır? Səni aldadar. Bax, bən deyən oldu!

## AZƏRBAYCAN QADINLAR MAHNISI

***F-15***
***s.v. 350***

Adaxlı qızlar öz sevgililərinə belə mahnılar qoşardılar:

Nəmçilər, ay nəmçilər,
Qapını kəsib elçilər.
Ana deyir, verməərəm,
Atam deyir, dur görək.
Ağzına qurban, dayı
Sən də bir danış, barı.

Qızıl üzüyüm laxladı,
Vərdim anam saxladı.
Anama qurban olum
Tez məni adaxladı!

Qızıl üzük firuzə,
Gedin deyin xoruza.
Bu gecə bannamasın
Yar gəlib məhləmizə.

Bir maralı qova-qova gətirdim,
Gətiribən mənzilgaha yetirdim,
Duman oldu, çiskin oldu, itirdim,
Bu dağda bir maral nə yaman ağlar.

Dağların başında lalalar bitər,
Qırılır qolbağım, danası itər.
Yar yardan ayrılmaq ölümdən betər,
Qadaların mənə, nə dedim sənə.

Bağ evləri bağımıza yanaşa,
Meynələri meynəmizə dolaşa,
Yar gəlib keçəndə anam savaşa,
Ver bağı-bostanı, verməərəm yarı.

Həştərxana gedib alarsan ciyər,
Yığılar qonşular kababın eylər,
Vaxt başa gələndə muzdur zəng deyər,
Əs, gilavar, gəl, qadasın aldığım.

Əyninə geyinibdir hümayın ağı,
Belinə bağlayıb gümüş belbağı,
Belbağıya dəyər saatın bağı,
Bu sözümün sağı, Gülməmməd tağı.

Çıxdım divar üstə, gördülər məni.
Yarım əzazildir, öldürər məni.
Anama deməyin, o, döyər məni.
Qadaların mənə, nə dedim sənə.

Qatı yaxdım, çıxdım divar üstünə,
Əmim oğlu gördü məni dəstinə,
Bir də gördüm anam gəldi üstünə,
Qadaların mənə, nə dedim sənə.

Getdim Bibiheybətə, bişirdim aşı,
Çağırdım Allahı, tökdüm göz yaşı,
Allah saxlasın bircə qardaşı,
Əlin ver əlimə, gec gələn bəla.

Mənim yarım ətirlidir, hillidir,
İndiki cahillər ikidillidir,
Alnında çətiri, qoşa tellidir,
Qadaların mənə, nə dedim sənə.

Kababı bişirəndə səpərsən sumaq,
Mən burda yerliydim, olmuşam qonaq,
Salaram başına mən bir ağ duağ,
Qadaların mənə, nə dedim sənə.

Başına dörd rəngli düyüt bağlayıb,
Nəzərə gəlibdi, başın bağlayıb,
Yarın araqçının yaza saxlayıb,
Getmə, gəl, başına can dolandırım.

Çıxdım eyvanına, göründü bağın,
Baxdım əhvalına keçibdir çağın.
Şirmayı xəncəlin, gümüş bıçağın,
Batsa ürəyimə dönən deyiləm.

Gördüm səni, ağlım çıxdı başımdan.
Oduva yanıram on beş yaşından.
Elçi göndər, məni al qardaşımdan.
Səninlə gedərəm, yol gedən oğlan.

Qaşların qaradır, gözlərin girdə,
Xəbər göndərərəm gəl bizə bir də,
Dərdimi danışım sən olan yerdə,
Getmə, gəl, başına can dolandırım.

Qaşların cadıdır, kipriyin almas,
Hər yerdən oxlasan, yaram sağalmaz,
İyid istəklisin bu dərdə salmaz,
Qaragöz yarımın bənd divanıyam.

* * *

Oğlan:

Mən səni bir qız bilirdim,
Göydəki ulduz bilirdim,
Doğru bilib dür bilirdim,
Bilsəydim almaz idim,
Canım oda salmaz idim.

Qız:

Eyləmişəm səhvi-xəyal,
Aldı məni dərdi-məlal,

Kağızımı ver, yola sal,
Mən sənə allanmaz idim,
Canım oda salmaz idim.

Oğlan:

Sənə məhəbbət eylədim,
Almağa curət eylədim,
İndi də nifrət eylədim,
Bilsəydim almaz idim,
Canım oda salmaz idim.

Qız:

Görməmiş idim səni mən,
Bəs niyə gəldim sənə mən,
Gündə burub buğunu sən,
Mən sənə allanmaz idim
Canım oda salmaz idim.

Oğlan:

Fikrini de indi mənə,
Başımı ağrıtma daha,
İtil cəhənnəmə, gora
Bilsəydim almaz idim,
Canımı oda salmaz idim.

Qız:

Söyləmişəm fikrimi ta,
Bir neçe dəfə mən sənə,
Gəl məni rədd eylə, boşa,
Mən sənə allanmaz idim,
Canım oda salmaz idim.

Oğlan:

Ax, o imansız anam,
Söylədi, evlən, ay balam.

Qoy sənə mən bir qız alam,
Bilsə idim almaz idim,
Canımı oda salmaz idim.

Qız:

Mənə də o dinsiz anam,
Söylədi ki, qoyma yanam,
Gəl ərə get sən, ay balam.
Mən sənə allanmaz idim,
Canımı oda salmaz idim.

Oğlan:

Boşamaq dişvardır,
Namus ilə ardır.
Anam günahkardır,
Bilsəydim almaz idim,
Canımı oda salmaz idim.

* * *

## Mən gəlmişəm

Qız:

Mən gəlmişəm qənddana qənd qoymağa,
Gəlməmişəm ürəyimə dərd qoymağa.

Mən gəlmişəm birçəyi yan qoymağa,
Gəlməmişəm yürəyimə qan qoymağa.

Mən gəlmişəm məxmər tuman geyməyə,
Gəlməmişəm qaynananı söyməyə.

Mən gəlmişəm yetimləri çimdirim,
Gəlməmişəm qəm odunu söndürüm.

Mən gəlmişəm sağrı başmaq cütdəyəm,
Gəlməmişəm yetimləri bitdəyəm

Mən gəlmişəm yasa gedib ağlayam,
Gəlməmişəm dana, buzov bağlayam.

Mən gəlmişəm ipək geyib sallanam,
Gəlməmişəm çitə, bezə allanam.

Mən gəlmişəm qızıl qatar taxmağa,
Gəlməmişəm azarlıya baxmağa.

Mən gəlmişəm qızıl toqqa qurşuyam,
Gəlməmişəm bir ölümü oxşayam.

Mən gəlmişəm qızıl üzüklü olam,
Gəlməmişəm qızıl təsəksiz qalam.

Mən gəlmişəm ürəyimi sağlayam,
Gəlməmişəm keçəl başı yağlayam.

Mən gəlmişəm simavara od salam,
Gəlməmişəm yalqız otaqda qalam.

Mən gəlmişəm istəkana qənd salam,
Gəlməmişəm gecə-gündüz ac qalam.

Mən gəlmişəm stəkana çay töküm,
Gəlməmişəm ağlayıb qan-yaş töküm.

Mən gəlmişəm uşaq doğub bələyəm,
Gəlməmişəm qoyun kimi mələyəm.

Mən gəlmişəm ələ həna bağlayam,
Gəlməmişəm gecə-gündüz ağlayam.

Mən gəlmişəm gözəl üzə baxmağa,
Gəlməmişəm saqqala rəng yaxmağa.

Mən gəlmişəm bu evə ziynət üçün,
Gəlməmişəm böylə müsibət üçün.

Mən gəlmişəm xanım kimi gəzməyə,
Gəlməmişəm qara günə gəzməyə.

Mən gəlmişəm arvad olum lap düzü,
Gəlməmişəm baldız deyə "it qızı".

* * *

**Qız ərə gedəndən iki il sonra**

Qız öz-özünə:

Mən nə günah eyləmişəm, ay xuda,
Gəldim ərə, oldu da günüm qara.
Başıma gəldi nə cəfa, nə bəla,
Qızıl boz oğlan nə vəfasız olur,
Xuruz göz oğlan nə vəfasız olur.

Bəxtəvər olsun başıma ərliyəm,
İpəkli, qumaşlı, gümüş rəngliyəm,
Azca qalıb at kimicə çərliyəm,
Qəddi düz oğlan nə vəfasız olur,
Gözəl üz oğlan nə vəfasız olur.

İt günüdür günüm bəxti qarayam,
Çarə tapılmaz mənə biçarayam,
Nə ərliyəm, nə də dulam, avarayam.
Şirin söz oğlan nə vəfasız olur,
Gözəl üz oğlan nə vəfasız olur.

Bağlarına uyub ərə gəlmişəm,
Ərə gələndən nə deyib, nə gülmüşəm,
Lap saralıb incəlib ölmüşəm,
Qızıl boz oğlan nə vəfasız olur,
Xoruz göz oğlan nə vəfasız olur.

* * *

## Qız ilən oğlan

Qız:

Ər nə idi qanmaz idim,
Səni belə sanmaz idim,
Mən sənə allanmaz idim.
Buğların allatdı məni,
Gül topun allatdı məni.

Oğlan:

Bağrımdan asılsaydım,
Səni belə bilsəydim,
Doğranıban ölsəydim.
Səni mən almazdım,
Canım oda salmaz idim.

Qız:

Qoyma günü qara məni,
Salma bu odlara məni.
Mən sənə allanmazdım,
Canım oda salmaz idim.

## BAYATILAR

Keşkəm mən lal olaydım,
Göbəgində xal olaydım.
Çəkəydim ovsarından
Sənə rəhban olaydım.

Gökdə qara bulutlar,
Para-para bulutlar.
Mənim bu qussə halımı
Yetir yara, bulutlar.

Bu gün bazar günüdü,
Carxı bezar günüdü.
Küçələr mərmər olsun
Yarın gəzmə günüdü.

Qiblədən külək əsdi,
Eşqin səbrimi kəsdi.
Yarıma xəbər apar
Ağlama, dəxi bəsdi.

Umacıq umma məni,
Dağlara qovma məni.
Yarım gəlib çatınca
Qəbrə qoyma məni.

Sağ bögrümdə sancım var,
Sol bögrümdə gəncim var.
Əzrail, alma canım
Uzaq yerdə bacım var.

Əzizim, sarı qız,
Sarı köynək, sarı qız.
..... cənnət meyvəsi
Özün dünya malı qız.

Əzizim minayə dəgər,
Xalın min ayə dəgər.
....
....

Siyah mənəm, bad mənəm,
Qəmli könlüm, şad mənəm.
Bu dərd məni öldürər
Yar özgənin, ad mənim.

Əzizim, sal yana,
Dara zülfün, sal yana.
İstərəm bir ah çəkim
Kür qovışa, sal yana.

Bu dağı gəzən mənəm,
............................
Bivəfa yardan ötrü
Sərkərdən gəzən mənəm.

Araqçının yan qoyar,
Yan götürər, yan qoyar.
Sənin ala gözlərin
Məgər məndə can qoyar.

Araqcının haşımı,
Hara qoyum başımı.
Səni mənə verməzlər
Tökmə gözün yaşını.

Saçın uçun örməzlər,
Səni mənə verməzlər.
Əgil üzündən öpüm
Qaranlıqdı görməzlər.

Bu yoldan yol salaydım,
Karvanı yol (bol) salaydım.
O vaxtacan ölməyəydim
Boynuva qol salaydım.

Qaşların qibləgahdır,
Ucun əgmə günahdır.
Dağları duman aldı
O da mən çəkən ahdır.

Su gələr axar gedər,
Evləri yıxar gedər.
Bu dünya bir pəncərədir
Hər gələn baxar gedər.

Bu meşə meşə dəgil,
Gülləri bənövşə dəgil.
Qulaq versən mən deyim
Yar sevmək peşə dəgil.

Bu qala nə qaladır,
Torpağı Kərbaladır.
Yar sevmək yaxşı şeydir
Ayrılıq yaman bəladır.

Oturmuşdum dalanda,
Səbr gəldi duranda.
Düşmən, əlin qurusun
Yara sillə vuranda.

Balaca qaşı piçağı,
Mən oldum yar qaçağı.
Bir səhər gəl, bir axşam
Bir də günorta çağı.

İstəkanın ağ olsun,
İç, dimağın çağ olsun.
Bivəfa yar əlindən
Bağrım gərək qan olsun.

Araqçının sərdarı,
Gəl başımın sərdarı.
Həyətimizə gəlmirsən
Qonşumuza gəl barı.

Gül sancdım divara,
Bülbül qalxdı hasara.
Yayı sən ilə dolandım
Qışı qaldım avara.

Havalanır ha, havalanır.
İpək çarxa dolanır.
Yarından ayrılan kəs
Qorxa - qorxa dolanır.

Oğlan adın Həsəndi,
Mənzilin daşı kəsəndi.
Fələgə bel bağlama
Fələk zəncir kəsəndi.

Oğlan adın Talubdur,
Gün dağları alubdur.
Göndərdigin üzüklər
Barmağımda qalubdur.

Oğlan adın Yaqubdur,
Gün dağlara doğubdur.
Göndərdigin üzüklər
Barmağımı boğubdur.

Dağlar başı bütündür,
Kimin könlü bütündür.
Gəl bir yüzündən öpüm
Dünya ölüm itimdir.

Mən aşiq, gülə naz,
Bülbül edər gülə naz
...............
........................

Dağlarda urağandır,
Yürəgim dolu qandır.
Pulsuzu pula tapşır
Pul özü vurağandır.

Əzizim, daşı bulağa,
Suyu daşı bulağa.
Ikimiz həmdərd olaq
Tökək qan yaş bulağa.

Qoltuğunda bağlama,
Mən gedirəm, ağlama.
Gedərəm genə gəlləm
Özgəyə bel bağlama.

Qəlyanı biyaq çəkdim,
Doldurdum biyaq çəkdim.
Səni bivəfa gördüm
Yolundan ayaq çəkdim.

Dağlara dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrimi yol üstə qoy
Anamın yolu düşər.

Əzizim, yaş ağacı,
Kəsməzlər yaş ağacı.
Gözəllər qəbrim olsun
Çirkinlər baş ağacı.

Əzizim, avçı məni,
Gəzərəm gök çəməni.
Ya mələrəm taparam
Ya vurar avçı məni.

Ay doğdu, birə düşdü,
Gün doğdu, dürə düşdü.
Bivəfa yardan ötrü
Ağlamaq bizə düşdü.

Yatmışdım oyandım,
Qara günə boyandım.
Daş olsaydım ərirdim
Toprağdım dayandım.

Gəlin gəlin olmazmı,
Al yaşılı solmazmı.
Gəlin evdən çıxanda
O ev viran olazmı.

Gəzərəm qırağınan,
Gül biçdim orağınan.
Axtarıram tapmıram
Tuturam sorağınan.

O tay bu taya baxar,
Arasından çay axar.
Çıxsın mənim gözlərim
Sənsiz dünyaya baxar.

Şalım qara boyandı,
Ucu yerə dayandı.
Mənim ah naləmdən
Gökdə mələk oyandı.

Qızılgül olmayaydı,
Saralıb solmayaydı.
............................
............................

Bulağ ollam bulannam,
Dağları dörd dolannam.
Əlini əlimə versələr
Sail ollam dolannam.

Dağlar başı qar imiş,
Dibi qar ambarı imiş.
Əvvəli şirin dünya
Axırı zəhrimar imiş.

Əzizim gül ilən,
Bülbül oynar gül ilən.
Aləmə can baxışlar
Məni saxlar dil ilən.

Alma verirəm almaz,
Özü almadan qalmaz.
Canına and içərəm
Gənə yarım annamaz.

Yaylığın miçə-miçə,
Xəbər allam kefin necə.
Bir cüt qurban demişəm
Yar bizə gələn gecə.

Əzizim, bu gün olaydı,
Zülfün dügün olaydı.
Səninlə keçən günlərim
Biri bu gün olaydı.

Əzizim, geridir,
Zülfün üzündə geridir.
Çox bilib az danışmaq
İgitin ləngəridir.

Ağam, gəl, ay ağam, gəl,
Ölməmişəm, sağam, gəl.
Boynumda qəm zənciri
Yolunda dustağam, gəl.

Ayın bədri olmaz,
Çıxar bədri olmaz.
Elindən ayrı düşənin
Qurbı qədri olmaz.

Aya belə baxarlar,
Günə belə baxarlar.
Arxası olmayanın
Evin belə yıxarlar.

Əzizim, buda məni,
Xalların bu da məni.
Gör nə günə qalmışam
Bəgənmir bu da məni.

Əzizim, üzüm qara.
Bağında üzüm qara.
İstərəm dosta varam
Əlim boş, üzüm qara.

Əzizim, kətan ağlar,
Kətanı satan ağlar.
Yarsız evin içində
Yalqız yatan ağlar.

Kababı köz öldürər,
Sürməni göz öldürər.
İgidi qılınc kəsməz
Təhnəli söz öldürər.

Keçmə keçdi qaraldan,
Seçilmirsən maraldan.
Nə dərdim var, nə qəmim
Seçilmirsən maraldan.

Bu dağda maral mələdi,
Bəs niyə lal mələdi.
İtirmişəm balamı
Mənə bir yol bələdi.

Ağlaram öz günümə,
Gülərəm öz günümə.
Fələk əlimə düşsə
Salaram öz günümə.

Gedərəm gedən olsa,
Dərdimi bilən olsa.
...............................
................................

Quşum, gəl, ay quşum, gəl,
Qanadı sınmışım, gəl.
............................
............................

## ŞİKƏSTƏ və BAYATILAR

Bayquş mənəm, bayquş mən,
Hər quşdan say quş mən.
Nə bəlalı başım var
Sızıldaram yay - qış mən.

Bir yaram var qolumda,
Sağımda, həm solumda.
Görüm haçan gəlirsən
Gözüm qaldı yolunda.

Qaradır qaşın, ördək,
Yaşıldı başın, ördək.
Gəzəndə cüt gəzirdin
Hanı yoldaşın, ördək.

Kağızın ağına bax,
Soluna, sağına bax.
Haçan yadına düşsəm
Şirvanın dağına bax.

Yaralandım yanımdan,
Quşlar doymaz qanımdan.
Nə pulum var, nə malım
Ələ gəlmişəm canımdan.

Qızılgül həşəm oldu,
Dərdim həşəm oldu.
Mən səndən ayrılanı
Ağlamaq peşəm oldu

Qızılgül dən - dən oldu,
Dərmədim xəndan oldu.
Mən səndən ayrılmazdım
Ayrılıq səndən oldu

Qızılgül olmayaydı,
Saralub solmayaydı.
Hə ayrılıq, nə ölüm
Heç biri olmayaydı.

Su doldur kurədən,
Dərdim artub tazədən.
Nə yaşımı kəsən var
Nə qibləmi düzəldən.

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı
Nə gələn var, nə gedən
Məgər yollar bağlıdı.

Dərya, səndən kim keçdi,
Kim qərq oldu, kim keçdi.
Fələk gəl hesab eylə
Hanki günüm xoş keçdi.

Dərya səndən üzmərəm,
Boyda versən üzmərəm.
Ölləm, özümü öldürrəm
Əlimi səndən üzmərəm.

Hicrana düşdü yolum,
Qaraldı sağım – solum.
Həsrətinin əilndən
Sındı, büküldü qolum.

Gözləri yedi məni,
Qurd olub yedi məni.
Bir namərdə sirr verdim
Aləmdə dedi məni.

Hancarı getdi yollar,
Canımı qayqu alar.
Bir yandan el tənəsi
Bir yandan ayrıldı yar.

Bağa girdim bağbansız,
Gülün dərdim
( Dəvə gördüm sarbansız).
Aləmə dərman oldum (götürdüm)
Özüm qaldım dərmansız.

Bu dağda gəzən mənəm,
Əhdim var, dözən mənəm
Yuvasız quşdar təkin
Avara gəzən mənəm.

Dəryada mayağam mən,
Əl vurma, oyağam mən.
Qaş altından göz eylə
Yatmamışam, oyağam mən.

Bu gələn yar olaydı,
Əlində nar olaydı.
İkimiz bir köynəkdə
Yaxası dar olaydı.

Əzizim ellər ayrısı,
Bülbüllər güllər ayrısı.
Var gününə dözməzdim
Olmuşam illər ayrısı.

Qızılgül oyum-oyum,
Verin, qoynuma qoyum.
Sən məndən doymuşsan
Mən səndən necə doyum.

Ağlamaqdan həyam (heyim) yox,
Qanadım yox, mayam yox.
Yükləndi qəm karvanı
Qəmdən artıq mayam yox.

Dağlara çən döşəndi,
Gül üstünə nəm döşəndi.
Könlüm oda oyanar
Yadıma sən düşəndə.

Aşıq Allahı neynər,
Gərdən surahı neynər.
Sən orda dur, mən burda
Görək ilahı neynər.

Dəryada mahı neynər,
Mahı surahı neynər.
Göz gördü könül sevdi
Görək ilahi neynər.

Mənim Bakı dərdim var,
Şirvan, Şəki dərdim var.
Sən məndən əhval sor
Deyim nə ki dərdim var.

Mixək əkdim ləgəndə,
Mixək boynun əgəndə.
Sənə qurban demişəm
Sən bizə gələndə.

Şirvanın ağ üzümü,
Ölürəm bas gözümü.
Əzrayıl, canımı alma
Yara deyim sözümü.

Əzizim, bəxti yarım,
Könlümün taxtı yarım.
Yüzündə göz izi var
Sənə kim baxdı, yarım.

Buradan bir atlı getdi,
Quş tək qanadlı getdi.
Həsrətlə baxdı mənə
Yurdumu yaxdı getdi.

Fələgin qəhri mənə,
Gəlməz rəhmi mənə.
Doldurur qəm piyaləsini
İçirdir zəhri mənə.

Bu qala nə qaladı,
Torpağı Kərbəladı.
Aşnalıq yaxşı şeydi
Ayrılıq bir bəladı.

Mən aşiqəm, amandı,
Dağlar dolu dumandı.
Gəlişinə mən qurban
Gedişin nə yamandı.

Mən aşiq, dua göndərdim,
Zülfüm suya göndərdim.
Durdum, gələ bilmədim
Çox - çox dua göndərdim.

Mən aşiq, divanı neylər,
Zülfün suvanı neylər.
...............................
...............................

Mən aşıq, o dağlar,
Çeşməli, sulu dağlar
Bu dərd bir dərddir ki
Göy keşnər, bulut ağlar.

Mən aşiq, alma dara,
Zülf yüzə salma, dara.
Xəlvət bir yar sevmişdim
Kim saldı qalmaqala.

Mən aşiq, ay doğar indi,
Talaş ay doğar indi.
Zülmətdə qalan canım
Tablaş, ay doğar indi.

Mən aşiq, bağım ağlar,
Bağda bağbanım ağlar.
Nə qədər sağam özüm ağlaram
Ölsəm, torpağım ağlar.

Mən aşiq, salma ələ,
Alıbda salma ələ.
Sən haqq aşıq deyilsən
Məni sən salma ələ.

Mən aşiq, qaladı,
Getdiyin yol haradı.
Ölüm Allah işidi
Ayrılıq nə bəladı.

Mən aşiq, sürmə məndən,
Göz səndən, sürmə məndən.
Sən özgənin yarısan
Dövranın sürmə məndən.

Mən aşiq, var mı?
Qolu bazubəndli var mı?
Gəzsən cəmi cahanı
Mən - tək dərdli varmı?

Mən aşiq, sini – sini,
Doldur ver sini sini.
Mənə öz gülüm gərək
Neynərəm özgəsini.

# EL NƏĞMƏLƏRİ

## Qədim şikəstə

Quşum ay qaçdı tüləkdən,
Balam, balam, ay balam.
Qolum ay sındı biləkdən,
Balam, balam ay balam.
Mənimki ay bəd gətirib
Cərxi dönmüş fələkdən.
Balam, balam, ay balam
A dərdin alım, gələm a dərdin alam.

Əzizim ay gülə bəndəm,
Balam, balam, ay balam.
Bülbüləm gülə bəndəm
Balam, balam, ay balam.
Dindirməyin qan ağlaram
Balam, balam, ay balam.
Yanıqlı dilə bəndəm
Balam, balam, ay balam
Gələm a dərdin alım.

Araz qırağındayam
Balam, balam, ay balam.
Çeşm cırağındayam
Balam, balam, ay balam.
İtirmişəm ay bir maral
Balam, balam, ay balam.
Onun ay sorağındayam.
Balam, balam, a dərdin alım
Gülüm, a dərdin alım.

Əzizim, gedər qalmaz,
Axar su gedər qalmaz,

Vəfalıya can qurban
Bivəfa gedər qalmaz.

Ay gedən, haralısan,
Köylüsən, qaralısan.
Gözlərindən tanıram
Bizim dağ maralısan.

Əzizim, dalda yeri,
Mey ver, dalda yeri.
İki məhəbbət bir olsa
Tez tapar dalda yeri.

Əzizim, badələndi,
Badə verdi, badələndi.
Badə içdim, dərdim azalsun
Daha da ziyadələndi.

Saraya bax, saraya,
Sarı könlün saraya.
Həsrət qalan gözlərim
Bir doyunca bax Saraya.

Ay batdı, daldalandı,
Batdıqca daldalandı.
Hamunun yarı gəldi
Bəs mənimki bahara qaldı.

Gecə keçdu qarardan,
Səni seçmərəm maraldan.
Nə dərdim var, nə qəmim
Sənsən məni saraldan.

Bu dağda maral gəzər,
Tellərin darar gəzər.

Mən yara neyləmişəm
Yar məndən ayrı gəzər.

Mən aşiq, oyan dağlar,
Yatmışsan, oyan, dağlar.
Bu yan zülmətxanadır
Necədir o yan, dağlar.

Əzizim, alma məni,
Al, yerə salma məni.
Apar sərraf yanına
Qəlp olsam alma məni.

Qərənfil abı gərək,
Yar yarın babı gərək.
Zərrə eşqi olanın
İllərcə tabı gərək.

Əzizim, nərdibana,
Ayaq qoy nərdibana.
Zər qədrin zərgər bilər
Nə bilər hər divanə.

Narınca bax, narınca,
Saxlaram saralınca.
O çağacan ağlaram
Ta sən evə gəlincə.

Qoy mənə kor desinlər,
Kordan da kor desinlər.
Əlini mənə versinlər
Ölkədən sür desinlər.

Aşıq aşın bişdi, gəl,
Bişib yerə düşdü, gəl.

Yaxşı günün sahibi
Yaman günüm düşdü, gəl.

Şaftalıyam, kalam mən.
Dilim yoxdur, lalam mən.
Çərxi-fələk qoymadı
Arzu kam alam mən.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Xəzəl ollam tökülləm
Viranə bağlar kimi.

Mən aşiq, o yana,
.......... o yana.
Zülfünü kaman eylə
Məni də çək o yana.

Mən aşiq, yara yazdı,
Ağ üstə qara yazdı.
Mən fələyə neylədim
Bəxtimi qara yazdı.

Araz qırağındayam,
Ceşm çırağındayam.
İtirmişəm bir maral
Onun sorağındayam.

Əzizim, dağ başına,
Gün getdi dağ başına.
Bostançı şamama bəslər
Dolanır tağ başına.

Əzizim, suda yandı,
Sümbülüm suda yandı.
Su səpdim eşq oduna
Od tutdu o da yandı.

## QARABAĞ ŞİKƏSTƏSİ və ÇOBAN BAYATILARI

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Qürbətdə yar sevənin
Yürəgində yağ olmaz.

Qarabağda üzüm var,
Yüzüm üstə gözüm var.
Sevdigim üç qardaşdır
Kiçigində gözüm var.

Haray, a dumanlı dağlar,
Solğun çiçəkli dağlar.
Qürbət eldə can versəm
Bəs məni kimlər ağlar?

Göyərçinəm, uçdum, gəl,
Dost bağına düşdüm gəl.
Yaxşı günün aşnası
Yaman günə düşdüm, gəl.

Göyərçin qalxar gedər,
Qanadı salqar gedər.
Mən yara neynəmişəm
Küsülü baxar gedər.

## ŞİRVAN ŞİKƏSTƏSİ və BAYATILARI

Şirvanın balabanı,
Yastı çal balabanı.
Hamunun balası gəldi
Bəs mənim balam hanı?

Yasdığım daşım oldu,
Zırlayan başım oldu.
Mənə təsəlli verən
Gözümün yaşı oldu.

Əzizim, üzə düşdü,
Sürmə gözə düşdü.
Hər kəs öz kefində
Ayrılıq bizə düşdü.

Şirvanın şirin narı,
Yeməlidir şirin narı.
Sizin yar sizin olsun
Göndərin bizim yarı.

Ağacda xəzələ bax,
Dibində gözələ bax.
İtirib istəklisin
Başqası ilə gəzənə bax.

Əzizim, Salyana,
Qara zülfün sal yana.
Nə dersən bir ah çəkim
Kür quruya, sal yana.

Alma versəm almazsan,
Sən almadan qalmazsan.
Hansı bağın gülüsən
İylədikcə solmazsan.

Əzizim, kimi gözlər,
Tar çalan simi gözlər.
Qaşın kimi qaş olmaz
Gözlərin kimi gözlər.

Əziziyəm, yaralandım,
Ox dəydi yaralandım.
Mən səndən ayrılmazdım
Zülm ilə aralandım.

Əzizim, vay dərdim,
Vay dərmanım, vay dərdim.
Aləm gül əkdi, gül dərdi
Mən də gül əkdim, vay dərdim.

Əziziyəm, oyandım,
Yatmış idim, oyandım.
Daş olsaydım uymuş idim
Topraq idim oyandım.

Əzizim, oraxnan,
Çin götür oraxnan.
Mən bir şey üçün gəzirəm
Axtarıram sorağnan.

Əzizim, yastı dağlar,
............ dağlar
Üç ay sazlı söhbətli
Doqquz ay yastı dağlar.

Ay çıxdı peşman- peşman,
Gün çıxdı, ona düşman.
Sənə bir sirr verdim
Nə dost bilsin, nə düşman.

İpin cərxə dolandı,
Cərxdən çərxə dolandı.
Mənim bu yazıq canım
Qorxa - qorxa dolandı.

Ay doğsun aydın olsun,
Ömrün sənin min olsun.
Bu gün bir ..... gördüm
Göz gərək aydın olsun.

Dağlar, saçdı dağlar,
Səndən kim aşdı, dağlar.
Yatdım yuxuya qaldım
Maralım qaçdı, dağlar.

Bir quş gəlir Ağdaşdan,
Xabar verir qardaşdan.
Qardaş bacıdan doysa
Bacı doymaz qardaşdan.

Bostanam, bağım ağlar,
Basma, yarpağım ağlar.
Sağam özüm ağlaram
Ölsəm torpağım ağlar.

Bir çay keçdim, daşı yox,
Bir at mindim, başı yox.
Əzizim durdu can versin
Yanında qardaşı yox.

Qarabağın meşəsi,
Qaradır bənövşəsi.
Bakıda bir anam var
Ağlamaqdır peşəsi.

Göydə bulut qaradır,
Tamam canım yaradır.
Yatdım yuxuda gördüm
Mənim baxtım qaradır.

Göydə buludam səni,
Sərib qurudam səni.
Bir baxanda Ay bildim
Bir baxayan Gün səni.

Dağlar dağladı məni,
Zəncir bağladı məni.
Eylə qərib olmuşam
Görən ağladı məni.

Dağlarda, meşələrdə,
Şam yanır şüşələrdə.
Hamı yar qoynunda
Mən qaldım meşələrdə.

Dağlar başı dolama,
Bəylər gəlir salama.
Qız özü bostançıdı
Məndən istər şamama.

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu.
Gedirdim yar sevməyə
Zalımlar kəsdi yolu.

Şaftalıyam, kalam mən,
Dilim yoxdur, lalam mən.
Qonşuda qiz sevmişəm
Pulum yoxdur alam mən.

Toxum əkdim bel ilə,
Suvardım sel ilə.
Mən yarımdan dönməz idim
Döndərdilər fel ilə.

Bu dağda əkdim əkin,
Aldılar əlimdəkin.
Heç kafər, heç müsəlman
Olmasın mənim təkin.

Əzizim maya getdi ,
Sallandı çaya getdi.
Cavan ömrüm cavan
Nahaq yerə çaya getdi.

Sabah sabah oyandım,
Dərdi - qəmə boyandım.
Daş olsaydım ərirdim
Torpağ idim dayandım.

Dağlara qar düşübdür,
Qar nə hamar düşübdür.
Hər dağlara baxdıqca
Yürəgimə xal düşübdür.

Aşıq duasına nə edim,
Zülfün suasına nə edim.
Özü gələ bilmədi
Quru duasına nə edim.

Qızılgül buta-buta,
Acılıb buta-buta.
İkimiz belə ölək
Qoysunlar bir tabuta.

Bir quş gəlir havadan,
Fanarı zil qaradan.
Yedim içdim gedərim
Ev eşigin abadan.

Gülü sancdım divara,
Bülbül gülə savara.
Yayı səninlə keçirdim
Qışı qaldım avara.

Bağçasında sarı gül,
Yarı gönçə, yarı gül.
Sənin vəfan bu imiş
Açmayaydın barı, gül.

Otaqda sazım qaldı,
Başda qotazım qaldı.
Ala gözlü sevən yar
Boynunda gözüm qaldı.

Qapu açdım, qar gördüm,
Suya gedən yar gördüm.
Bir əlində şamama
Bir əlində nar gördüm.

Ağ qoyun, ağdaş qoyun,
Dolanır dağ - daş qoyun.
Qaranlıq gecələrdə
Qardaşa yoldaş qoyun.

Qapılarında var çinar,
Yaprağı dinar – dinar.
Mənim bu xırda yarım
Saxlasın pərvərdigar.

Mən quşam gül üstə,
Cüt gözüm var yol üstə.
Əzrail, alma canım
Nişanlıyam toy üstə.

Bir su içdim hovuzdan,
Köynəyi qanovuzdan.
Həftədə bir xəbər çıxır
O dağılmış qaladan.

Dağların qarı mənəm,
Gün düşməsə əriмənəm.
Qəbrimi üzdən qaz
Cavanam, çürümənəm.

## BAYATILAR

***"Türk bayatısı"***
***H. Sarabski1927***
***F-15 S. V. 365***

Mən aşıq Qarabağı,
Dolan gəl Qarabağı.
Bir cüt tərlan itirdim
Boynunda qara bağı.

Qızılgüləm, qalxaram,
Açılmamış qalxaram.
Eşitsəm sən gəlirsən
Xəstə olsam, qalxaram.

Mən aşiq, hörən ağlasın,
Zülfünü hörən ağlasın.
Mən ki gün görmədim
Gününü görən ağlasın.

Əzizim, üşüdüm, yar.
Aç qoynun, üşüdüm, yar.
Dərd desən, can deyərəm
Bircə səsin eşidim, yar.

Əzizim, bir dənəsən,
Şirinsən, bir dənəsən.
Mən ölsəm, sənə qurban
Sən ölmə, bir dənəsən.

Mən aşiq, çəndən ötrü,
Dumandan, çəndən ötrü.
Onun burda nə işi var
Gəlmiş idi səndən ötrü.

Bu gələn ələmlidir,
Qaşları qələmlidir.

Dindirmə qan ağlaram
Ürəgim vərəmlidir.

Şirvandan dəstə gəlir,
Boyları bəstə gəlir.
Xaraba ölkənizə
Sağ gedən xəstə gəlir.

Əzizim, gedər qalmaz,
Axar su gedər, qalmaz.
Vəfalıya can qurban
Bivəfa gedər, qalmaz.

Əzizim, səlli əla,
Ay çıxdı səlli əla.
Görüm haçan gəlirsən
Yürəgim təsəlli ala.

Mən aşiq, can sənə,
Qurban sənə, can sənə.
Sən məni şirin çağır
Mən deyim “can” sənə.

Mən aşiq, bad apardı,
Meh vurdu, bad apardı.
Cəfa çəkdim, yar sevdim
Axırda yad apardı.

Əzizim, şirindir yar,
Yeməgə şirindir nar.
Sağ olsun qohum-qardaş
Hamudan şirindir yar.

Əzizinəm, qardaşı,
Get dağlardan qar daşı.

Bayramı o gün olur
Bacı görsə qardaşı.

Mən aşiq, ha səni,
Haqq saxlasın ha səni.
Xəstə könlüm nar istər
Mənim könlüm ha səni.

Mən aşiq, necə alım.
Əlfi bey ilə alım.
Yarım məndən inciyib
Könlünü necə alım.

Qızılgüləm, xəstəyəm,
Bülbüləm, qəfəsdəyəm.
Baş yasdıqda, göz yolda
İntizaram, xəstəyəm.

Sarı qovun dilimi,
Uçurtdum bülbülümü.
Bir otağa xəlb eylə
Danışım dərd dilimi.

Yerişin qara bənzər,
Boyun şahbaza bənzər.
Girəydim yar qoynuna
Qış günüm yaza bənzər.

Dağda duman yeri var,
Daşda kaman yeri var.
İtirmişəm yarımı
Səndə güman yeri var.

Sən mənim ağa dostum,
Gəl gedək bağa dostum.

Gözlərin bahar bulutu
Qorxuram yağa dostum.

Qızıl gül həşəm oldu,
Dərmədim həşəm oldu.
Fələkə nə eylədim
Nökərim ağam oldu.

Araza gəmi gəldi,
Sanadım hamı gəldi.
Evin yıxılsın fələk,
Ayrılıq dəmi gəldi.

Haşa, sevdiyim, haşa,
Yazılanlar gəldi başa.
Bir yandan …….
Bir yandan sən düş daşa.

Əzizim Zülfüqara,
Qaşı qara, zülfü qara.
Balamı məndən eyləyən
Tez gəlsin Zülfüqara.

Əlində fənər gəzər,
Özü fənərdən gözəl.
Heç kimsə pulsuz olmasın
Qardaşı ondan kənar gəzər.

Arazın daşı sənsən,
Dibinin daşı sənsən.
Dünyada dostum çoxdur
Hamının başı sənsən.

Bağında üzüm dəgdi,
Meh əsdi, üzüm dəgdi,

Qan olmaz, qada olmaz
Üzünə üzüm dəgdi.

Əzizim, bir ilə gərək,
Sədəf dür ilə gərək.
Dünyada aşna çoxdur
İqrar bir ilə gərək.

Bu dağda maral azdır,
Avçı çox maral azdır.
………………………
………………………

Dərbənd üstü barıdır,
Əl çatmaz yuxarıdır.
Könül, nə qəm çəkirsən
Allah sənə yarıdır.

Gəlirdim Ağdaşdan,
Papax sürüşdu başdan.
Səndən mənə yar olmaz
Oldum qohum qardaşdan.

Bağlarda bostan oldum,
Dillərdə dastan oldum.
Bivəfa yardan ötrü
Aşnadan-dostdan oldum.

Bağlarda xəzələ bax,
Dibində yalın gözələ bax.
Ayaq yalın, baş açıq
Sərgərdən gəzənə bax.

Bağuva quş gəlməsün,
Yaz gedüb qış gəlməsün.

Heç bəndənin başına
Bir belə iş gəlməsün.

Başımda fitə yandı,
Od tutdu fitə yandı.
Canım sənin əlində
Od tuta-tuta yandı.

Başımda qarmaqım var,
Vırmaqa qarmaqım var.
Mən balamın xatırına
Sənə yalvarmağım var.

Qərənfil qoxudadır,
Xumar göz yuxudadır.
Ağlaram, sızlaram
Gözlərim yuxudadır.

Mən aşiq, dəli qoyuna.
Gəlir qoyuna……
Yarından ayrı düşənin
Adını dəli qoyun a.

Su gələr bağa dəgər,
Güllə yaprağa dəgər.
Mən bir canan sevmişəm
Cümlə cahana dəğər.

Bostanda tağım ağlar,
Basma yaprağım ağlar.
………………….
…………………

Yağaram yağış kimi,
Titrərəm qamış kimi.

……………………
……………………

Ələkbər, ay Ələkbər,
Çirmənub ağ biləklər.
Düşmənə xəbər olsun
Hasil olub diləklər.

Mən aşiq, kabab ağlar,
Od yanar, kabab ağlar.
Əziz balam gedüb
Cigərim kabab ağlar.

Əzizim, bir-bir çək,
Kabab şişə bir-bir çək.
Üç şey mənim qanlımdır
Bir qaş, bir göz, bir bircək.

Narıncı qoyub getmə,
Qabuğu soyub getmə.
Bir gəldin xəstə gördün
Zarıncı qoyub getmə.

Gözlərin balxı-balxı,
Məgər qaşların bostan arxı.
Vədə verdin gəlmədin
İntizarda qoydun xalxı.

Bu kəndin yastı yolu,
Su gəldi basdı yolu.
Gedirdim yar yanına
Əzrail kəsdi yolu.

Qoyunlar mələr gələr,
Dağları enər gələr.

Yarından ayrı düşən
Gör başına nələr gələr.

Mən aşiq, yedi məni,
Qurd oldu yedi məni.
Bir namərdə sirr verdim
Aləmə dedi məni.

Əzizim, sarı canım,
Sancıbdı arı canım.
Səndən mən ayrılalı
Qalmayubdur yarı canım.

Narınca bax, narınca,
Saxlaram saralınca.
Öləydim qurtaraydım
Bu günlərə qalınca.

Gün getdi batan yerə,
Mələklər yatan yerə.
Sinəmi nişana qoyaram
Yar oxun atan yerə.

Əzizim, Gəncə var,
Şəki, Şirvan, Gəncə var.
Elə bilmə ayrıldın
Məhəbbət öluncə var.

Su gəlir lülə-lülə,
Tökülür qızıl gülə.
Düşmən evimi yıxdı
Üzümə gülə-gülə.

Su gəlir lülə neyləyim,
Tökülür gülə neyləyim.

Üzdə yoldaş, qəlbi özgə
Mən belə dostu neyləyim.

Şirvanın gədikləri,
Xurmadır yedikləri.
Gənə yadıma düşdü
Balamın dedikləri.

Dağ ayrı, duman ayrı,
Daş ayrı, kaman ayrı.
Gəl bir qol boyun olaq
Gərək bir zaman ayrı.

Sazım kimi saz olmaz,
Ördək olmaz, qaz olmaz.
Mən səni çox istərəm
Belə ərkü-naz olmaz.

Əzizim, beyim var,
Əlif üstə beyim var.
Məni bura sən gətirdin
Mənim burda nəyim var.

Əlif mənəm, bey mənəm,
Əlif atda tey mənəm.
Gəldi əcəl köynəgi
Mən cavanam geymənəm.

Əzizim, günə düşdüm,
Kölgədən günə düşdüm.
Evin yıxılsun fələk
Sən deyən günə düşdüm.

Mən aşiq, qarğalandı,
Yağdıqca qar qalandı.

Qarğalar laçın oldu
Laçınlar qarğalandı.

Mən aşiq, sini-sini,
Doldur ver sini-sini.
Mənə öz yarım gərək
Neylərəm özgəsini.

Əlimdə qəfəsim var,
Saxlaram, həvəsim var.
Çəkərəm yar qəhrini
Nə qədər nəfəsim var.

Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl.
Xəstə yatdım gəlmədin
Barı can verəndə gəl.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız.
Aləmə dərman oldum
Özüm ölürəm dərmansız.

Əzizim, ağlamazdım,
Gülərdim, ağlamazdım.
…………………………
………………………..

Başımda külahım var,
Bəndəyəm ələmim var.
Göz gördü könül sevdi
Mənim nə günahım var.

Su gəlir bəndə dəgər,
Zülfün kəməndə dəgər.

Mən bir gözəl sevmişəm
Tamam bu kəndə dəgər.

Mən aşıq özüm neylim,
Bu cəbrə dözüm neylim.
Sən yadıma düşəndə
Çıxar gözlərim neylim.

Çıxıbdı dağ başına,
Örtübdü ağ başına.
Oğlan şamama iştər
Dolanar tağ başına.

Çayda balıx yan gedər,
Açma yaram, qan gedər.
Təbib gəlib neyləsin
Əcəl gəlib can gedər.

Ay doğdu, üzə düşdü,
Sürmələr gözə düşdü.
Könlün şad olsun, fələk
Ayrılıq bizə düşdü.

Dağlar dağımdır mənim,
Qəm ovlağımdır mənim.
Dindirmə, qan ağlaram
Yaman çağımdır mənim.

Əzizim, çəkənə ver,
Qəlyanı çəkənə ver.
Bu dərdi mən çəkə bilmərəm
Apar dərd çəkənə ver.

Qəlyanı çək ovcundan,
Qəlyanı ver ovcundan.

Nə namərdə yoldaş ol
Nə bəlanı çək ovcundan.

Dağlarda gəzən mənəm,
Avcıyam, bəzəmənəm.
Dili şad, könlü qəmgin
Sərgərdan gəzən mənəm.

Mən aşiq, baxtı kəm,
Bəxti qara, bəxti kəm.
Fələkə nə eyləmişdim
Fələk mənə baxtı kəm.

Bir atım var zil qara,
Göndər getsin İlqara.
Ömrümün cavan vaxtında
Əcəb geydim zil qara.

Pəncərədə şüşəsən,
Sürüşüb yerə düşəsən.
Necəsən bir ah çəkim
Əldən ələ düşəsən.

Quşum uçdu küləkdən,
Qolum sındı biləkdən.
Bizimki belə gəldi
Çərxi dönmüş fələkdən.

Mənə fələk eylədi,
Özün lələk eylədi.
Girdi güllü baxçama
Ələk vələk eylədi.

İstəkanın taraşdı,
Çaynik qaynadı daşdı.
Əmim oğlu bizdə idi
Könlümü götürdü qaşdı.

## MAHNI

Pərişanam pərişan,
Halım yoxdur danışam.
Var mı mənim kimisi
Dərdi dərdə qarışan.

Can qardaş, canım qardaş,
Ağrıyır canım, qardaş.
Baş qoyum dizin üstə
Qoy çıxsın canım, qardaş.

Kağızın ağa dönsün,
Qarası ağa dönsün.
Sən gəl bir qapıdan gir
Ürəgim dağa dönsün.

Bağçada çıraq yanar,
Baxdıqca iraq yanar.
Doldurduğun şərbəti
İçdikcə ürək yanar.

Araz aşanda mələr,
Kür qarışanda mələr.
Analar balasından
Ayrı düşəndə mələr.

Qoyunlar mələr gələr,
Dağ - daşı dələr gələr.
Vəfalı qardaş olsa
Bir an durmaz gələr.

Əzizim, yar göndər.
Ərz halını yaz göndər.
Kağız ələ düşməsə
Yarpaqlara yaz göndər.

Məni görən ağlamaz,
Ürəyini dağlamaz.
İndi görüb ağlasın
Sonra görüb ağlamaz.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Sərin su, göy çəmən
O da marala qaldı.

Əzizim, yaz göndər,
Payız göndər, yaz göndər.
Bağda kağız olmasa
Yapraq üstə yaz göndər.

Bu yola yol salaydım,
Karvanı bol salaydım.
Biləydim atam gəlir
Boynuna əl salaydım.

Bu dağın başı ilə,
Dibinin daşı ilə.
Bu kağızı göndərim
Gözümün yaşı ilə.

Aftafa burma-burma,
İçində sarı xurma.
Kağız yazıb göndərsəm
Üç gündən artıq oturma.

Ay çıxdı, incə qaldı,
Gözüm dalınca qaldı.
Ay kimi gözəl canım
Əridi, incə qaldı.

Apardı göy at məni,
Saxladı ağ at məni.
Baş qoyum yastıq üstə
Çox yatsam, oyat məni.

Əzizim, daldadan yeri.
Ləbləri baldadan yeri.
Vədə verdin gəlmədin
Yeri, adam aldadan, yeri.

Duman gəlir çisginli,
Qərib öldüm, pis günlü.
Burada bir qərib sədası gəlir
Çox ağlayır nisgilli.

Armud ağacı Əli,
Dibində ipək xalı.
Düşmüşəm müşkül işə
Ya Məhəmməd, ya Əli.

***Yazan Əliş Həsənzadə***

## AZƏRBAYCAN EL MAHNISI

### Yarın can

Başıma kulli bağlaram,
Sinəmi carpaz dağlaram.
Sən gedərsən, mən ağlaram.
Yarın can,turun can
Sən olasan yarın can.

Baqlarında var boyana,
Qorxuram anam oyana.
Bir zaman sən get oyana .
Yarın can, turun can
Sən olasan yarın can.

Evlərində var əhrişin,
Özgə ilə yoxdur işim.
Hələ səninlə coxdur işim.
Yarın can, turun can
Sən olasan yarın can.

### Dağlar

Bizim dağlar yuxarıdır,
Qoynundakı mirvaridir.
Arpa,buğda çox varlıdır.
Bizim dağlar, bizim dağlar.

Şal örtübdür ipəklərdən,
Baş əsdirməz küləklərdən.
Al güllərdən, çiçəklərdən
Geyib əlvan bizim dağlar,

Qolxozların gülü var,
İpəklərdən olub taxt.
Günə baxar səhər vaxt,
Heyran-heyran bizim dağlar (2).

Traktorlar çıxır bağa,
Yağış gəlir yağa-yağa
Qara neftə, ağ pambığa,
Oxur meydan bizim dağlar (2).

## Gözəlim sənsən

Gözəlim sənsən, gözümün nuru,
Sən təki olmaz cənnətdə huri.
Öldurdun məni Məcnuni.
Ona mən yar oldum, ona mən qul oldum.
Yaralıyam dəymə, dəymə, dəymə
Başındakı fəsi əymə, əymə.

## Bülbüllər oxur

Bülbüllər oxur, cəh-cəh elər bağda gül üstə,
Ay oğlan, boyu bəstə, gəl əyləş dizim üstə,
Sən məndən öpüş istə, mən deyim gözüm üstə.

Altında boz at, belində qatar, əlində tatar.
Ay oğlan, səni tarı, dolan gəl bizə sarı.
Ay oğlan, qadan allam, qolum boynuna sallam.
Gedərsən yola sallam, qalarsan dərdin allam.

## Saray xanım

Duyunu tökdüm tabaqa,
Bişmədi qaldı sabaha.
Çilovdar duşsun qabaqa
Apardı sellər Sarayı

Bir başı şallı cananı,
Bir ala gozlü maralı.

Arpa çayı dərin olmaz,
İçmə, suyu sərin olmaz.
Saray kimi gəlin olmaz
Apardı sellər Sarayı
Bir başı şallı cananı,
Bir ala gözlü maralı.

Beş manat verdim qoyuna,
Bəylər yığıldı toyuna.
Baxmadım Saray boyuna
Apardı sellər Sarayı
Bir başı şallı cananı,
Bir ala gözlü maralı.

Pəncərədən gördüm ayı,
Gözəllikdə yoxdur tayı.
Çox daşqındır Arpa çayı
Apardı sellər Sarayı
Bir başı şallı cananı,
Bir ala gözlü maralı.

Külək dəyəndə o al dodağa,
Gümüş sırğanı salıb qulağa.
Saray gələndə sərin bulağa
Apardı sellər Sarayı
Bir başı şallı cananı,
Bir ala gözlü maralı.

## Yeri, dam üstə yeri

Yeri, dam üstə yeri, bala,
Ay qızıl cam üstə yeri.

Ayaxların incisə, bala.
Ay çıx sinəm üstə yeri.
Getdim gördüm yar otaxda,
Əlin-üzün yar yumaqda.
Qoşa-qoşa xal buxaxda, hay buxaxda.

Ayaqında çəkməsi, balam.
Ay qızıldandır düyməsi.
Məni yandırdı yaxdı, balam,
Ay nazlı yarın hiləsi.
Getdim gördüm yat otaxda,
Əlin-üzün yar yumaxda.
Qoşa-qoşa xal buxaxda, hay buxaxda

**Dərya kənarında bir ev tikmişəm**

Ay dərya kənarında bir ev tikmişəm,
Hasarın çəkməmiş üstün örtmüşəm.
Ay bu gələn Sonaya gözum tikmişəm,
Bağçada güllər, oxur bülbüllər,
Belə deyirlər təzə yar gəlir.

Ay Həştərxana gedən gəmi bənd olur,
Ay qayıdıb gələndə yükü qənd olur.
Gözəlin köhnəsi gözə bənd olur.
Bağçada güllər, oxur bülbüllər,
Belə deyirlər təzə yar gəlir.

**Bəri bax, bəri bax**

Bayramınız mübarək,
Pəncərədən baxanlar
Üstünüzə od yaqar
Tez soyunub yatanlar.

Ay bəri bax, bəri bax
Açıxlanıb bəri bax.

Pəncərənin milləri,
Açıb qızıl gülləri.
Oqlanı yoldan eyləyən
Qızın şirin dilləri.
Ay bəri bax, bəri bax,
Açıxlanıb bəri bax.

Pəncərədən daş gəlir,
Xumar gözdən yaş gəlir
Səni mənə versələr
Allaha da xoş gəlir.
Ay bəri bax, bəri bax
Açıxlanıb bəri bax.

**Uca dağlar başında**

Uca dağlar, qarlı dağlar başında
Bir yar sevdim aqlı, şüuru başında
Aman balam, körpə balam, gül balam
Küsdürmüşəm, gəl üzümə gül balam (2)

Araxçının baftalıdır başında
Eyibin yoxdur kirpiyində, qaşında
Aman balam, körpə balam, gül balam
Küsdürmişəm, gəl könlumu al, balam (2)

Qurban olum səni doğan anaya,
Səni doğdu məni saldı bəlaya.
Aman balam, körpə balam, gül balam
Küsdürmüşəm, gəl könlumu al, balam.

Qarqamışam bənövşələr bitməsin,
Bülbül gəlib daldasından ötməsin.
Aman balam, körpə balam, gül balam
Küsdurmüşəm, gəl könlümü al, balam(2) .

**Kəklik**

Kəkliyəm(2) ovla məni maralım, ceyranım
Dağlara(2) qovma məni
Gecələr al qoynuna
Gündüz(2) buxovla məni.
Gəl, gəl, ay mənim maralım,
Sənsiz (2) gəlmir qərarım.

Quşlar (2) nə çiq-çiq eylər maralım, ceyranım
Həyəti (2) palçıx eylər
Zəhləm (2) o yerdən gedər
Gündüz (2) bir açıx eylər.
Gəl, gəl, ay mənim maralım,
Sənsiz (2) gəlmir qərarım.

## ATALAR SÖZÜ

Kim gəldi kim bacardı,
Gic dedi bağ mənimdir.

Pulsuzu pula tapşır,
Pul özü vurağandır.

Çəkmə, çəkmə, bilməzsən,
Bərkdir fələğin payı.

Həmnişinin bab eylə,
Görən desin ha beylə.

Gücüvə bax, şələni bağla.

Çox danışmaq gümüş olsa,
Az danışmaq qızıldır.

Güvəc yumbalanar, qapağını tapar .

Kotan nə bilir camış nə çəkir.

Kor koru tapar,
Su çuxuru.

Su bir yerdə qalanda iy verər.

Ağıllınız kimdir? Qabaqdakı zəncirli.

Mal yeməyənin malın yeyerlər.

Ağ at arpa yeməz?

Toydan sonra hənanı itə yaxarlar.

Toy mənim gərək, xeyrat babamın.

Xalam kişi olsa idi,
Ona dayı deyərdim.

Pişiyin qanadı olsa,
Quşların ...... üzər.

Dəvənin qanadı olsa,
Bir koma abad qalmaz.

Sərçə anasından haçan süd görüb.

Eşşəgin buynuzu olsa,
Bir öküz sağ qalmaz.

Yüz min təbib neyləsin
Bir fələk qarqayana.

Bəxtim olsa idi
Anadan qız olardım.

Aləm aləmindədi
Keçəl xalamnan.

Kül başına, Araz,
Üstündən təzək keçir.

Kül başına, Şərif,
Hamamçı səndən pul istəyir.

Getdin gördün gözü qıpıq,
Sən də ol gözü qıpıq.

Əbləh odur bu dünya üçün qəm çəkə,
Heç bilməzsən kim qazanar, kim yeyər.

Könlü balıq istəyən
Özünü soyuq suya verər.

Molla Nəsrəddinə dedilər örkənini ver!
Dedi üstə darı səpmişəm.

Oturan yerdə oyuna düşdün.

Kor bazara getməsə bazar korsuz qalmaz.

Qoçun buynuzu qoça ağırlıq eyləməz.

Ağrımayan başına dəsmal bağlama.

Mis düşməsə cinqildəməz.

Azarlı yanında armud yemə.

Köpəgin quyruğunu kəsməklə köpək olmaz.

İt qulağını kəsəndən qorxar.

Cəhd çarıq yırtar,
İş odur haqqa vara.

Ətə pul verməz, küftənin böyügündən yapışar.

El dəlisin bayıra atmaz.

## XALQ OYUNLARININ TƏSVİRİ

Azərbaycanda dramaturgiya səhnə tarixi M.F. Axundovla başlanır. M.F. Axundov 1812-ci ildə anadan olmuşdur. Onun[2].....

Lakin Mirzə Fətəlidən qabaq Azərbaycan xalqının öz adətləri və xalq yaradıcılığı ilə xalq oyunları yaranmışdır. Nağıl deyənlər, suxəngələr, camaatı başına yığıb bu kimi söhbətlərlə məşğul olanlar var idi. Bununla bərabər xalq oyunları var idi.

## NOVRUZ BAYRAMI

Novruz bayramı Bakıda Qurban və Orucluq bayramlarından dəfələrlə artıq bir təntənə ilə keçirilərdi. Novruzu bir ay əvvəldən qarşılamaq Bakıda bir adət idi. Həftənin hər çərşənbə axşamı hər evin həyətində və yaxud darvazasında tonqal qalanardı, bu tonqala arvadlar üzərlik töküb bu sözləri oxuyardılar:

Üzərliksən havasan,
Cəmi dərdə davasan.
Hər yerdə sən yanarsan
Qada,bala apararsan.

Bakıda gəmiçilik edən, dənizdə işləyən çox olardı. Hələ buna görə də oğlu, əri, dənizdə olan bir ana, bir arvad ya atasının səfərdən gəlməsini gözləyən bir uşaq bu sözlərə bu misraları da əlavə edərdi:

Əs, Xəzri, mən də verim nəziri,
Əs, Gilavar, əs, qadasın aldığım.
Xəzri yat, Gilavar gəl............
/Atam/ yaxud oğlum,ərim/gəlsin səfərdən.

Çərşənbə gecələri xonça düzəltmək, şam yandırmaq adətdir.

Novruza iki həftə, on gün qalmış hər kəs öz halına görə hazırlıq görərdi. Qapı, bacanı əhənglə ağartmaq, evləri, bayır-bacanı sürtmək, palaz-xalçanı çırpıb təmizləmək, evi, otağı səliqəyə salmaq, yeni ili bir təmizlik içərisində qarşılamaq ümumi bir həvəs idi.

---

[2] *Əlyazmada bu hissə oxunmur – tərt.*

Varlılar, tacirlər və alverçilərin hazırlığı daha geniş olardı. Onlar, bayrama xüsusi şəkərçörəyi, badamcörəyi, paxlava və sairə bu kimi şirniyyat bişirib hazırlardılar. Belə şirniyyat bişirməyə imkanı olmayanlar, bayramı sadəcə xüşkəbar ilə kecirərdilər.

Bir həftə əvvəldə istər aşağı bazarda, istərsə yuxarı bazarda bir qızğınlıq müşahidə edilərdi. Baqqallar dükanlarını güzgülər, Firdovsinin "Şahnamə"sindən alınaraq ağ parça üstünə cəkilmiş cürbəcür şəkillər, kağız fasunlar ilə bəzərdilər. Hər dükançı qapısından bir zəng asardı. Onu çalaraq qışqırıb malını təriflədiyi kimi yola saldığı müştərisinin arxasınca da o zəngi təkrar çalardı.

Bayrama bir neçə gün qalmış məhəllə uşaqları həyətləri gəzməklə "Kosa-kosa" adlanan xüsusı bir oyun oynar, tamaşaçılardan pul, xüşkəbar toplardılar.

Rəqs etməyi bacaran bir uşağın əyninə tərsinə çevrilmiş bir kürk geyindirərdilər, üstünə kağızdan qayrılmış üzlük/maska/ taxıb başına da kəlləqənd kağızından uzunca şiş papaq qoyardılar. Belinə zınqırovlu bir kəmər bağlanardı. Habelə boynundan zınqırovlar asardılar. Bu şəkildə hazırlanan kosanı məhəllə uşaqları araya salıb həyətləri gəzərək xüsusi bir hava ilə aşağıdakı sözləri xor halında oynayardılar. Kosa isə oynayardı.

A kosa, kosa, gəlsənə.
Gəlib salam versənə
Çömçəni doldursana,
Kosanı yola salsana.

* * *

Ay uyruğu,uyruğu,
Saqqalı it quyruğu
Kosam bir oyun eylər,
Qurdun qoyun eylər
Yığıb şabyan düyüsün
Mahmudun toyun eylər.

* * *

Novruz, Novruz baharə,
Güllər, güllər, naharə.
Bağçanızda gül olsun,

Bal olsun, həm yağ olsun
Evdəkilər sağ olsun.

* * *

Verənə oğul versin,
Verməyənə qız versin.
Xanım dursun ayağa
Kosanın payını versin.

* * *

Mərmər hovuzun dörd qırağında
Bülbüllər oxur şax-budağında,
Hər nə istəsəm xudadan allam
Dəllək dükanın yadına sallam.
Dəllək dükanı bütün çırağban
Məclisə gedər əlində qəlyan
Qurbanın olum yaşıl çuxalı
Dərbəndli isən, yoxsa buralı?

Bu nəğmə ilə qaytağı oynayan kosa "Kosa mord" /yəni kosa öldü/ söyləndikdə kosa yerə yıxılıb uzanardı. Onunla aşağıdakı sual-cavab başlanardı.

– Kosa haradan gəlmisən?
– Qubadan.
– Nə gətirmisən?
– Qax, qoz!
– Qax,qozu neylədin?
– Satdım.
– Pulunu neylədin?
– Arvad aldım.
– Arvadı bəs neylədin?
– Döydüm öldü!...

Kosanın bu cavabı üzərinə yenə xor halında aşağıdakı sözlər oxunardı:

Başın sağ olsun kosa,
Canın sağ olsun kosa.
Arşın uzun, bez qısa
Kəfənsiz öldü kosa.

Sonra uşaqlar iki dəstəyə ayrılıb birinci dəstə aşağıdakı sözləri oxuduqca ikinci dəstə bu sözləri təkrar edərdi:

Bazarda üzüm,
Mələk salmanı.
Nimçəyə düzüm,
Mələk salmanı.
Sallama birçək
Mələk salmanı.
Bazarda it var,
Mələk salmanı.
Quyruğunda bit var
Mələk salmanı.
Təndirdə küt var,
Mələk salmanı.

Bu mahnılar bitdikdən sonra, kosa papağını açıb ev yiyəsindən və başqalarından pay yığar, aşağıdakı mahnı ilə həyətdən cıxardılar.

Bahar gəldi, bahar gəldi, xoş gəldi.
Xəstə könül onu görçək dincəldi.
Sizin bu təzə bayramınız mübarək,
Ayınız, gününüz, həftəniz mübarək.

Bayramda damları gəzib "nünnünü" getmək adəti də vardı. Bakı evləri əksəriyyətlə alçaq, birmərtəbəli evlər olduğundan küçədən onların damına çıxmaq asan idi. Nünnünü gedən adam ip ucuna kiçik bir torba bağlar, onu mətbəxin bacasından/əgər mətbəxin bacasında adam olarsa/ və ya sadəcə evin damından, bacasından evə sallar. Özünü tanıtdırmamaq məqsədilə şəhadət barmağını burnuna vurmaqla "nünnünü" səsi çıxarıb ev yiyəsini xəbərdar edərdi. Belə nünnünü gəzənlər qətiyyən boş qaytarılmazdı. Onun torbasına bir şey salmaq lazım idi.

Bayram axşamı arvadlar əlvan xonçalarla qəbiristanlığa gedərdilər. Qəbiristanda hər kəs öz xonçasını ölüsünün qəbri üzərinə düzərdi və sonra oxşayıb ağlamağa başlardı.

Görərdin ki, bir qadın ucadan oxşayır: "Əlinin gümüş qələminə, başının oynaq papağına, ağır gəlişinə anan qurban". Bir

başqası onun ağzından alardı: “Qıfıllı qapına, bəzənməyən süfrənə, yanmayan çırağına, başıbəlalı xalan qurban”.

Arabir bayatı da deyərdilər:

Gəlmişəm görəm səni,
Dərmişəm, hörəm səni.
Əlimdə açarım yox
Bir açam görəm səni.

* * *

Dalımı dağa verrəm,
Dağdan da dağa verrəm.
Bilsəm haçan gələrsən
Canımı sadağa verrəm.

* * *

Mən aşiq adı qardaş
Ağzımın dadı qardaş
Cığırram hay verməsən
Tutaram yadı qardaş.

Qəbir üstündə qadınların ürək yandıran oxşama sözləri, mollaların, “........” və “Yasin”i ölgün şüalar saçan günəşin dağlar arxasında gizlənməsinə qədər davam edərdi. Sonra hər kəs öz evinə qayıdardı.

Bayram axşamının gecəsi bütün ailə evə toplaşardı. Qələmkar süfrə ortalığa döşənərdi. Evin yuxarı başında uşaqların atası üçün xüsusi döşəkçə salınardı. Süfrə üstə hazırlanmış xonçaya əl uzatmağa kimsənin ixtiyarı yoxdı. Kiçik yaşlı uşaqlardan birisi ara-sıra xına ilə qızardılmış əlini yemiş almaq üçün qorxa-qorxa xonçaya uzatdıqda böyük bacısı onun əli üstə vurub yavaş səslə “çək əlini ağa hirslənər” deyib onu qorxudardı...

Evin kişisi icazə verməyincə heç kəsin ixtiyarı yoxdur ki, əlini xonçaya uzatsın. Kişi isə hələ məşğuldur. O bir bucaqda salınmış qələmkar canamaz üstündə qiraətlə namaz qılır. Onun qırxılmış başında paxlava çəkili ağ araqçın, əynində qara şaldan beli büzməli don, donun altında tirmə döşlük, belində ağ qurşaq, ayağında göy lifəli qara mahud şalvar və qırmızı badamı puta corabı vardır.

* * *

O, heç tələsmədən namazını bitirdikdən sonra "həvvil haləna ila əhsənül-hal"duasını oxur. Bu halda 18 yaşlı böyük oğlu tələsik evə daxil olub küçələrdə tüfəng atıldığını, beləliklə də ilin təhvil olduğunu xəbər verir. Ata qoltuğundan üstü güləbətin çəkili saatqabını çıxarır, gümüş saatının qapağını açıb, saata baxır, ilin təhvil olmasına belə bir neçə dəqiqə qaldığını bildirir. Canamazı büküb yığışdırır. İrəli gəlib süfrə başında salınmış döşəkçə üstə oturaraq arxasına qoyulmuş nazbalışa söykənir. Hamı xonçanın başına toplandıqdan sonra bir qədər bayram yemişindən yeyir, anaları südlü plov qazanını yerə qoyur. Hər uşağın öz payını öz boşqablarına tökərək verir. Südlü plov yeyilib bitdikdən sonra süfrə yığılır.

Sübh açıla-açılmaya məscidlərin minarələrində sübh azanının səsi eşidilərdi. İcərişəhərdə cümə məscidində Molla Qasım adlı bir azançı var idi. Hündür boylu qara saqqalı olan bu şəxsin başında ağ, Təbriz araqçını olardı. Hərdən bir şəbkülah da qoyardı. Döşü açıq kəyanəsi topuğundan bir qarış yuxarı/dördətək donu/ qırmızı çalan sarı döşlükü, belində üstü sarı ipəklə çəkilmiş naxışlı, ağ qurşağı, qıçında genbalağlı ağ kətandan lifəli yalamat tumanı var idi. Ayağına qara meşindən dikdaban Təbriz dübəndisi və bəzi vaxt sarı rəngli nə`leyin geyərdi. Bu şəxs əcayib bir şəxs idi. Günə baxmaqla vaxtı düzgün söyləyərdi. Əgər birisi ondan soruşsaydı ki, Molla Qasım əmi, saat neçədir, günə baxıb deyərdi: Saat on birdir. Saata baxdıqda isə düzgün on bir tamam olduğunu deyərdilər. Onun güclü səsi vardı. Qədim musiqiçilər bilər. Bu adam ruhülə Dügah, Nəva ilə azan verərdi. Molla Qasımın azanı Bakı xalqını yuxudan oyadardı. Şəhərdə yavaş-yavaş həyat başlanardı. Küçələrdə uşaqların rəngbərəng paltarları, xınaya boyanmış kəkil birçəyini, heydərili başlarını və tinlərdə dəstə-dəstə olub əlvan yumurta döyüşdürənlər gözə çarpardı. Ara-sıra tapança da atılardı.

## BAYRAM GÜNÜ EVLƏRDƏ

Bayram günləri həyət və otaq qapılarının açıq saxlanması ev sahibinin evdə olduğunu bildirərdi. Həyətlərin bəziləri qırlı, bəziləri boş torpaq olardı. Bəzi həyətlərdə su quyusu və çarhovuz görünərdi. Həyətin o biri tərəfində nazik bir daş divarla müntəəm tikilmiş qapı, pəncərəsi biri-birindən hündür, alçaq damı, şirəli mətbəx yanında isə dörd bir tərəfi metr yarım əhənglənmiş toyuq hini, bəzi həyətlərdə kəpək damı da görmək olardı. Mətbəxin damında əhənglə ağardılmış qoşa alçaq bacaları nəzəri cəlb edirdi. Mətbəxdə mütləq təndir, biri böyük, digəri kiçik iki ocaq, biri kürə olmaq şərtdir. Mətbəxin divarında xırda taxçalar, təndirlə üzbəüz divarın içinda beş çörək enində üç arşın hündürlüyü olan suaxan görmək olardı. Suaxan nədir? Uşaqları çox vaxt burada çimdirib yuyundurardılar. Suyu böyük mis qazanda isidərdilər. Bəzən gecə ev sahibləri də burada yuyunardı. Mətbəxin taxçalarında təndir üstə qazan, yuxayayan, aşsüzən, mis qablar, divara söykənmiş mis məcməilər, üstündə ət döymək üçün ət taxtası, qiyməkeş, taxtadan qayrılmış hövsər tabağı, yenə eləcə böyüklükdə bir çərək dərinliyində xəmir tabağı, divarlarda asılmış ələk, xəlbir, qaşıq səbəti, şalbanlardan asılan qışdan qalmış balqabaq, kudu, soğan, quru sərdabı balıq, dəstə ilə qurumuş qarğıdalı, narın süpürgə, bezdən qab dəsmalları nəzərə çarpardı.

* * *

Evin kənarında başmaq çıxarılan yer palaz parçasından salınardı. Otaq qiymətli xəlilərlə döşənərdi. Divarları ağardılmış otağın küncləri xırda döşəkçələr, dər-döşəyi, bəzən də Təbrizdən və Ərdəbildən gəlmə ağ abı putalı kifqandazarla döşənərdi. Otağın divarlarında cumaxatından böyük sandıqların üstə ipək, zərzər üzlü yorğan-döşəklər, qu tüklü balışlar qoyulardı. Taxçalarda xırda mücrülərin üstündə əlvan, çin-çin ipək boxçalar qoyulardı. İki cumaxatının arasında, döşəmədən bir qədər yuxarı bir cüt bədənnüma ayna, iki taxçanın arasında divar saatı, saatın sağ və solunda maral başları, həyətə açılmış pəncərələrin sütun-

larında isə ətəkləri qırmızı xoruz şəkilli ağ, üz dəsmalları asılardı. Burada ara-sıra məxmər, üstünə güləbətin çəkilmiş daraqqabı, saatqabı da nəzəri cəlb edərdi.

Otağın bütün divarlarında ləmə olardı. Ləməyə ikinci əlvan zərli çini kasa və boşqab düzülərdi. Ləməyə bəzən bürünc aftafa-ləyən, çini gülabzən, böyük görkəmli dayaz düşbərəxor, dərin plov nimçələri, bəzən də əlvan yağlı rənglərlə şəkilli dəmir podnoslar düzülərdi. Ləmənin küncləri düşbərəxor/supnik/ və qeyrə bu kimi ev ləvazimatı ilə bəzənərdi. Pəncərədən sarı şamdanlar, bəzi evlərdə isə saxsıdan çil-çıraq/tunc rəngli/ asılardı. Evin ortasında, xalının üstünə böyük qələmkar süfrə döşənərdi.

* * *

Süfrə üzərinə rəngli nimçələrdə şəkərçörəyi, şəkərbura, paxlava, noğul, püstə, badam, əlvan boyanmış yumurta, kasalarda islanmış albuxara, bunu yemək üçün naxışlı taxta qaşıqlar, düzülərdi. Süfrənin ortasında ara-sıra boşqablarda yaşıl səməni qoyulardı. Səmənini bayramdan bir həftə qabaq isti otaqlarda, nimçələrdə bir qarış göyərdərdilər. Yuxarıda saydığımız şirniyyatdan başqa süfrədə tut qurusu miyanpur, innab, ləbləbi, kişmiş, səbzə, alma, portağal da olardı. Evdə bayram görüşünə gələnləri qəbul etmək üçün evin ya böyük oğlu, ya bacıoğlu, yainki qardaş oğlu təmiz, yəni bayram paltarını geyib xınalı əlində gülabzən qapı ağzında əli döşündə, ayaqüstə dayanıb, gələnlərin əlinə gülab səpər, görüşdükdən sonra onlara yer təklif edərdi. Ev sahibi həmən adama işarə edərdi ki, qonaq üçün çay gətirsin. Bayram zamanı hil, darçın, zəncəfil, qəhvə çayı da vermək adət idi. Bundan əlavə şərbət də verərdilər. Bayram görüşündə gələnlərə süfrədə olan şirniyyatdan yeməyi təklif edər və onlarla söhbətə başlardılar. Bu zaman yan otaqdan evin kiçik uşaqları, yeni yetişmiş qızları, uşaqların anası gələn nəfərin kim olduğunu bilmək üçün qapı arasından baxardılar. O dəqiqə uşaqların üst-başını qaydaya salıb Hacı Novruzqulu əmilə bayramlaşmağa göndərərdilər.

Uşaqların gəlməsini görən Hacı Novruzqulu qollarını uşaqlara doğru uzadıb, barmaqlarını tərpədərək özünə tərəf çağırardı.

– Po...qədə....qədə....qədə....gəl, Hacı əminin yanına... Uşaqlar da utanar, bir ayağı gedir, bir ayağı getməz, bir-birini itələyərək Hacı əminin yanına gedərdilər. Hacı əmi onları öpüb sığallayıb hərəsinin ovcuna bir ağ pul bayramlıq basardı. Bayramlaşmağa gələnlər yerin azaldığını görüb, xudahafizləşib gedərdilər ki, başqa gələnlər üçün yer açılsın. Bayram bu qayda ilə üç gün davam edərdi.

Üç gündən sonra qadınlar işə başlar. Bir həftə də qadınlar bayram edərdi. Novruzdan bir ay, ya ay yarım keçmiş hər məhəllənin cahilləri pul qoyub şəhərin ətrafında seyrə çıxardılar. Bu yerlər – Yasamalüstü, Biləcəri qayası, Pirvəzəri üstü və Bibi-Heybətdən ibarət idi. Burada da onlar bəzən həftələrlə çalıb-oynamaqla vaxtlarını keçirərdilər. O yerə qonaq gedən gənclər xəcalətli olmamaq üçün ya bir kəllə qənd, bir girvənkə çay və ya bir qoyun ya da, bir dəstə çalğıçı aparardılar. O zaman əsas etibarilə Quba meydanı, Kömür meydanı, Şamaxı yolundan ibarət olan şəhərin geniş meydançalarında çox vaxt Dağıstandan gəlmiş çobanlar camaata tamaşa verərdilər. Onlar iki möhkəm şalbanı biri-birinə çatıb yerə mayılı surətdə basdırdıqdan sonra ikisini də eləcə 10-15 metr məsafədən sancırdılar. Sonra şalbanların yuxarıdakı haçalarına kəndir bağlayıb birindən o birinə uzadardılar. Tarım çəkəndən sonra həmin kəndiri möhkəmcə bağlardılar.

Bir gənc əlində uzun bir ağac müvazinət ağacı/ləngər/ olaraq ip üstə qalxar, zurnanın çaldığı havanın ritmi ilə kəndirin üstündə rəqs edərdi. Kəndir üstə oynanan rəqslər qaytarı, təkçalma və sairədir. Bunların ahəngi altında oynayan və atılıb düşənə rüstəmbaz ya kəndirbaz deyərdilər. Onun təlxəki də olardı. O, çuxanı tərsinə geyib, boynundan və qollarından zınqırov asar, üzünə dəridən bir üzlük geyib aşağıda təqlid çıxarır və yamsılamaqla pul yığardı. Təlxək hərdən yuxarıya xitabən:

Can Qardaş!  
Hünər kimin üçündür?  
Hünər sənin üçündür.

– Əyər sən ip üstündə bir qaytağı oynasan bura yığlan ağlar bizə cib xərcliyi verərlər. Usta, balabanı kök elə!

Bu qayda ilə uzun zaman davam edərdi. Bayram günlərində gedən oyunların bir də **cızıq turnası** oyunu idi. Geniş küçələrin birində, yerdə 5-6 kvadrat sajen dövrə çəkərdilər. Cızıq turnası oynunda iştirak edənlər iki dəstəyə bölünərdi. Çevrənin kənarında olan uşaqların əlində turna olardı. Uşaqlar qurşaqlarını bellərindən açıb eşər və düyümlərdilər ki, ona turna deyərdilər. Çalışmalı idilər ki, xaricdəkilər təpik vursunlar, kənardakılar çalışmalı idilər ki, əllərində olan turna ilə daxildəkiləri döysünlər. Fəqət hər kəs ayağını cızıqdan içəri və ya kənara qoysa idi, onu tez bərk vurardılar ki, içəri girsin və yaxud ayağını xaricə qoysa idi, həmçinin onu da turna ilə döyərək içəri qovardılar. Əgər xaricdəkilərdən birisinə təpik dəysəydi, o zaman dəstələr dəyişməli idilər... Bu növ davam edən oyuna cızıq turnası deyərdilər. Cızığın içinə girməyə birinci dəfə heç kəs razı olmazdı. Bu səbəbdən cızıq turnası oyununun mahnısı vardı. Həmin mahnının axırıncı kəlməsi hansı dəstəyə düşsəydi o azad idi. O biri dəstə cızığın içərisinə girməli idi.

Motal, motal, tərsə motal,
Yağ atar, qaymaq tutar
Hacı oğlu Mustafanın
Qoltuğundan bir top atar..

* * *

Əkilkə bir quş idi,
Divarda oturmuş idi.
Getdim onu tutmağa
O məni tutmuş idi,
Meydana salmış idi.
Meydanın ağacları
Dən gətirib ucları.
Çəpər çəkdim yol açdım,
Qızıl gülə dolaşdım.
Bir dəstə gül dərməmiş
Anası gəldi mən qaçdım.

* * *

İynə-iynə, ucu düymə
Şam ağacı, qotur keçi
Happan-huppan
Su iç qurtul.

Bəziləri mahnını bu aşağıdakı şəkildə oxuyardı.

Bülbülü çala-çala getdim bağa,
Bir sürü qızlar ilə oynamağa.
Əl atdım kiçik qızın məməsinə
Böyüyü haray çəkdi nənəsinə
Nənəsi xəncər-bıçaq, o böyrümə, bu böyrümə
Böyrümü tuta-tuta getdim həcə
Yeddi gün, yeddi gecə ağlamışam
Atımı çəllərdə bağlamışam
Atıma kişmiş gərək kişnəməyə
İtimə sümük gərək gəmirməyə.

* * *

Əkilkə Məkilkə
İstoitdi namala
Qəbil- təbil eşil-vəşil
Adı var....padıval
Atdım, matdım
Mən səni aldatdım.

* * *

Sən gedərsən, mən ağlaram dalınca
Yaylıq elə məni apar yanınca.

* * *

Qoltuğuda bağlama,
Mən gedirəm ağlama.
Gedərəm tez qayıdaram,
Özgəyə bel bağlama.

Yuxarıdakı mahnıların axırı hər kəsdə qurtarsaydı, o dəstə azad idi. Yəni cizginin kənarında uşaqlar **“Qələndər, ay qələndər”** oyunu oynayardılar. Bu oyunu belə oynayardılar: Uşaq-

lardan bir nəfər nüfuzlusu ana olardı. /oyun başçısı/. O, əldəki turnanı verərdi və aşağıdakı tapmacanı söyləyərdi:

Bir quşum var, bu xartana,
Xor: Qələndər, ay qələndər.
Dimdiyi var, bu xartana,
Xor: Qələndər, ay qələndər.
Su içər bu xartana,
Xor: Qələndər, ay qələndər,
Ayaqları bu xartana,
Xor: Qələndər, ay qələndər.
Gözləri var bu xartana,
Xor: Qələndər, ay qələndər.
Qanatları bu xartana.
Xor: Qələndər, ay qələndər.
Başı mənim, ayağı sənin tap görək?

Bu zaman uşaqlardan biri yaxınlaşıb deyərdi: Qarğa Ana: Ver qarğaya/yəni bilmədin/. Uşaq əlindəki turnanı tapmadığı üçün yoldaşına ötürərdi. O biri: Ördək. Ver ördəyə. Uşaq verərdi o birinə. Daha o birisi: Toyuq. Ana: Ver toyuğa. Daha başqası - göyərçin. Ana: Qalan/yəni tapmısan/.

Uşaq turnanı alıb yanındakı uşaqları döyməyə başlardı. Ana isə bu zaman: palan, palan deyərək bir qədər davam etdikdən sonra uşağın dalınca yüyürüb tutar və qapazlamağa başlardılar. Əgər turnaçı özünü vaxtında mollanın yanına yetirsə idi, o zaman oyun yenidən mollanın “qalan” sözü ilə başlanardı. Oyun yenə lap əvvəlindən başlanardı.

Belə maraqlı oyunlardan birisi də xalq arasında **“Kosaldıqaç”** adı ilə məşhur olan oyundur. Bu oyunda bir istiqamətdə üç ayrı-ayrı məhəllə olardı. Birinci kosalan, ikinci isti məhəllə, üçüncü isə qaçan məhəllə.

Kosalan məhəllədən isti məhəlləyədək məsafə 12 metr olardı. Qaçan məhəllə, isti məhəllədən dayanardı. Bundan başqa oyunda iştirak edənlərdən bir neçə nəfər də isti məhəllədən olardı. Bu vaxt kos verən, kosu adam yuxarı atıb tutmalı idi. Bu zaman isti məhəllədəkilər fürsət tapıb birbaş dal-dalı qacan

məhəlləyə yüyürərdilər. Bu yürüş zamanı kosu tutan bu kosla bunlardan birini vurmalı idi. Əlindən başqa kos harasına dəysəydi o məğlub olurdu. Hərgah qaçanlardan biri kosu əlilə geri qaytarsaydı o zaman kos verənin yoldaşı kosu tutub qaçanlardan birinə vurmalı idi. Bədəninə dəysə idi, o məğlub olurdu. Hərgah o da əlilə qaytarmış olsaydı kosu verənin yoldaşı uzaqlara kosun dalınca yüyürərdi. O zaman, bu uşaqlar yüyürüb isti məhəllədə dayanardı.

**"Gizlənpaç"/Gizlən-Paç/** oyununda on nəfərdən on beşədək adam iştirak edə bilərdi. Uşaqlardan bir nəfər yuxarıda söylədiyimiz mahnılardan birini oxuyardı. Mahnının axırı kimə düşsəydi, o azad hesab olunardı. Axırıncı kim qalırdısa o gözlərini yumardı. Ta onlar gizlənənədək gözlərini yummalı idi. Onlar gizləndikdən sonra gözlərini açıb, gizlənənləri tapmalı idi. Onlardan birisini tapsaydı, o adam gərək yenidən gözünü yumaydı. Oyun təzədən başlayaydı. Hərgah gizlənənlər aşikara çıxıb qaçsaydılar o zaman gözyuman adam onları qovmalı və birini tutmalı idi. Qaçanlar yüyürə-yüyürə bu sözləri söyləyərdilər.

Gəl məni tut ştotdu,
Gəl məni tut ştotdu.

Və özlərini məhəlləyə çatdırmağa çalışardılar. Hərgah qovan adam onlardan birisini tutsaydı, tutulmuş adam göz yummalı idi. Hərgah heç birisini tuta bilməsəydi, o zaman təzədən gözlərini yumub oyun yenidən başlanmalı idi.

"**Oğru-oğru"** oyununda iştirak edənlər öz aralarında birini "Xan" seçərdi. "Xan" uşaqları iki dəstəyə bölüb birinə oğru, o birinə isə yasavul adını verərdi. Oğrular qaçıb qapı dalında, damda, təndirdə, töylədə, mətbəxdə gizlənərdilər. Onlar gizlin getdikləri kimi, gizlin də gəlib özlərini "xana" təslim etməli idilər. Hərgah yolda onların birisini yasavullardan görən olsaydı, o vaxt o tutulmuş hesab olunardı. Bir azdan sonra kimi gizli, kimi tutulmuş, hamısı gəlib 5-10 turna və əllərində yasavulluq vəsiqəsi verərdi. Oğruları tutmuş yasavullar bu dəfə həmin tutulanları əvəz edər və "oğruluğa"gedərdilər. Yasavulların borcu oğruları axtarıb tapmaq idi. O adamlar tutulmasa və görün-

məsəydi, oyun yenidən başlana bilməzdi. Bəzən bu oyun 2-3 saat çəkərdi.

**“Şumaqədər oyunu”** yumşaq şum yerdə oynanardı. Əvvəlcə bir parça yeri qazıyardılar. Şumaqədərin ucunu sındırmasın deyə torpağın içindəki daşları təmizləyərdilər. Sonra onu ayaqları ilə tapdalayıb, əzişdirərdilər. Uzun ağac parçalarının ucunu yonub iynə kimi şiş edərdilər. Hər adam əlində 3 ağac almaq şərtilə o qazılmış və hazırlanmış yerə gəlirdi. Əlindəki ağaclardan birini yerə vuraraq o biri yoldaşı isə öz ağacını isə həmin yerə elə vurmalı idi ki, həmin yerə sancılmış ağac bunun zərbəsindən yerindən çıxsın və bu özü yerə möhkəm sancılsın. Ağacın bir dəfə yerdən çıxarılması kifayət deyildi. Gərək ağac yerindən iki dəfə çıxarılaydı. Bunun birinə borc, birinə də xərc deyərdilər. Bəzən ağacı yerə vuranda hər iki ağac yerindən oynayıb düşərdi. Buna car deyərdilər. Car salan adam yenidən yortmalı/vurmalı/idi. Ağac yerdən oynadılmış adam müqabil tərəfə üzünü döndərib “Car salmasan, yort” deyərdi. Hərgah hərə biri-birinin ağacını bir dəfə yerdən çıxarsaydı, həm xərcini, həm də borcunu verib ağaca sahib olardı. Hərgah uduzan adam uduzduğu ağacı..............gərək əlindəkilərdən birini verəydi. Bu qayda ilə oyun xeyli davam edərdi.

## XATİRAT və ya KÖHNƏ BAKININ HƏYAT VƏ SƏRGÜZƏŞTLƏRI HAQQINDA

*F-15/s.v.42*

İndi söhbətimizin ardına keçəlim. O vaxtlar Novruz bayramı çox təntənəli və zənzənə ilə keçərdi. Bir ay qabaqdan axır çərşənbə saqlardılar. Çərşənbə gecəsi hər həyətdə od yanaraq üzərlik yandırardılar. Həyətdə nə qədər adam olsa onun üzərindən atılmalı idi. Onlar atılaraq bu sözləri deyərdilər:

Üzərliksən həvasan,
Cəmi dərdə dəvasan.
Hər yerdə sən yanarsan
Qada bala salarsan.
Gilavar gəl, Xəzri yat.
Atam gəlsin səfərdən.

Bayrama iki həftə qalmış evlərdə ciddi tədarük görünərdi. Uşaqlara yeni əlvan paltarlar tikərdilər. Evi, eşiyi səliqəyə salardılar. Al-əlvan boqca bəzənərdi, nə bəzənərdi. Evin xalça palazını təmiz döşərdilər, onluq, igirmilik, yüzlük lampalar təmizlər və hazırlardılar.

Ay kos-kosa gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana
Kosanı yola salsana.

Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu.
Kosam bir oyun eylər,
Qurdunu qoyun eylər.
Yığar savan düyüsünü,
Mahmudun toyun eylər.

Novruz-Novruz bahara,
Güllər-güllər nahara.

Bağçamızda gül olsun
Gül olsun,bülbül olsun.
Bal olmasın, yağ olsun,
Evdəkilər sağ olsun.
Xanım dursun ayağa
Kosanın payın versin.

Mərmər hovuzun dörd qırağında
Bülbüllər oxur şah budağında
Hər nə istəsən xudadan allam
Dəllək dükanı yadıma sallam
Dəllək dükanı tamam çıraqban
Məscidə qədər əlində Quran
Qurbanın olum, yaşıl çuxalı
Dərbəndlisən, yoxsa buralı?

Kosa murd deyib yerə yıxılardı. Bu sualları ona verərdilər və əvəzində kosadan cavab alardılar:

– Kosa, hardan gəlirsən?
– Qubadan.
– Nə gətirmisən?
– Qax-qoz.
– Qax-qozu neylədin?
– Satdım.
– Pulu neylədin?
– Arvad aldım.
– Arvadı neylədin?
– Döydüm öldü.

Sonra bu mahnını oxuyardılar:

Başın sağ olsun kosa
Arşın uzun bel qısa
Kəfənsiz öldü kosa.

Kosaya sual verdikdən sonra uşaqlar ağız-ağıza verib bu mahnını oxuyardılar:

Bazarda həsir, mələk sərmani,
Göydə yel əsir, mələk sərmani.
Kosam tələsir, mələk sərmani.

Bazarda üzüm, mələk sərmani.
Nimçəyə duzum, mələk sərmani,
Bir ala gözum, mələk sərmani.

Bazarda dibçək, mələk sərmani,
Al suyun içək, mələk sərmani,
Sallanma birçək, mələk sərmani

Pazarda it var, mələk sərmani,
Quyruğunda bit var, mələk sərmani,
Kəndində küt var, mələk sərmani.

Bu mahnıdan sonra ev sahibi kosaya pay verərdi. Payı aldıqdan sonra hamı ağız-ağıza verib yeni bir mahnı oxuyardılar:

Bahar gəldi, xoş gəldi,
Xəstə könül onu görçək dincəldi.
Sizin bu təzə bayramınız mübarək,
Ayınız, gününüz, həftəniz mübarək.

Durarlar səhər, xanəni gəzərlər,
Olanda il təhfili xonça bəzərlər,
Sizin bu təzə bayramınız mübarək
Ayınız, gününüz, həftəniz mübarək.

Bayramı təbrik etdikdən sonra kosa oynayıb dayanardı. Al-əlvan bəzənmiş qızlar, gəlinlər hər kəs özünə görə kosaya pay verərdi.

Gecələr isə beş-altı uşaq bir yerə yığılıb bir kisənin ucuna ip bağladıqdan sonra damdan-dama gəzib bacalardan bu kisəni salladardılar və yavaşcadan aşağıdakı sözləri söyləyərdilər:

Verin bizim payımızı,
Aparaq ustamıza.
Ustamız bizi azad eyləsin
Nin...nin...nin

Bu oyunun adına “**ninnini oyunu**” deyirdilər.

Bakının binaları o vaqtı çox alçaq olardı. Özü də hamısı bir birinə yapışıq. Belə ki, şəhəri damdan-dama gəzmək olardı.

Ya biri ev tikdikdə qonşusundan təvəqqe edərdi ki,-Kəblə Səfdər, mənim həyətimə iki caxca qoyginən - o da qonşusunun xətrinə dəymədən öz divarında onun həyətinə iki caqca qoyardı.

Bunlar öldükdən sonra varislərdən biri evini söküb təzədən tikmək istədikdə digəri isə.....

* * *

....görərdin ki, bir qadın ucadan oxşayır: "Əlivin gümüş qələminə, başının oynaq papağına, ağır gəlişinə ata-anan qurban". Başqası onun ağzından alardı: "Qıfıllı qapına, bəzənməyən süfrənə, yanmayan cırağına, başı bəlalı xalan qurban". Arabir bayatı da deyərdilər:

Gəlmişəm görəm səni,
Dərmişəm hörəm səni.
Əlimdə açarım yox
Bir açam, görəm səni.

Dalımı dağa verrəm,
Dağdan da dağa verrəm.
Bilsəm haçan gələrsən
Canımı sadağa verrəm.

Mən aşiq, adı qardaş,
Ağzımın dadı qardaş.
Çağırram, hay verməsən
.................................

Dəvə gəlir Dərbənddən,
Yükü dolu qənddən.
Fələk, özün dadeydin
Bizə verən zərbədən.

Mən aşiq .............
Yanmışam ............
O qəmlər ki, sənin var
Mənim də xəbərim var.

Dəryanın başı yandı,
Dibində daşı yandı.
.........cavan adını
Ürəyimin başı yandı.

Bayquş mənəm, bayquş mən.
Hamı quşlardan say quş mən.
Nə bəlalı quş oldum
Sızıldaram yay-qış mən.

Fəleyi dindireydin,
Bilməzin bildireydin.
Mənə yazı yazanda
Qələmin sındıreydin.

Bu daqda mal mələdi,
Bəs niyə lal mələdi.
İtirmişəm balamı
Mənə bir yol belədi.

Mən aşiq, yasa mənsiz,
Xalların yasa mənsiz.
Bülbülün gülü ölüb
Getməyir yasa mənsiz.

Mən aşiq, ya səməni
Xalların yasəməni.
Aparmadı şadlıqa
Apardı yasa məni.

* * *

***F-15/sv.43***

...kiçik gəlinciklər qayırırdılar və onları yeşiyin divarına söykəyirdilər. Bəzən bu qızlar bir qonşudan o qonşuya (bu yeşikdən o yeşiyə) cehiz verən dəsgahla gəlin köçürərdilər. Bunların da mahnısı vardı:

Nəmçilər, ay nəmçilər,
Qapını kəsib elçilər.
Anam deyir, verməram
Atam deyir, dur görək.
Ağzına qurban, dayı
Sən də bir danış barı.

* * *

Qızıl üzük laxladı,
Verdim anam saxladı.
Anama qurban olum
Tez məni adaxladı.

Araxçının məndədir,
Sərmişəm çəməndədir.
Aləmdə gözəl çoxdur
Mənim gözüm səndədir.

* * *

Bağ evləri bağımıza yanaşı,
Meynələri meynəmizə dolaşa.
Yar məhəllədən keçmə, anam savaşa,
Ver bağı-bostanı, verməram yarı.

* * *

Bir evdə ağlaram, bir evdə güllәm,
Bir evdə gözümün yaşını silləm.
Bir az gec gəlsən çərrərəmölləm.
Əs gilavar, gəl, qadasın aldığım.

* * *

Unu elədim, basdım çuvala,
Başı qara qurdlar yeriyər divara
Yar gəlib çıxmadı, qaldım avara,
Qara göz oğlanın mən divanıyam.

Bakının bağları cod tutub sirkə,
Təpildim kişiyə, birinci kulkə,
Yarım evə gələ mənimlə birgə
Qara göz oğlanın mən divanıyam.

* * *

Bir ev tikmişəm, dörd yanı şişə,
Bir oğlan sevmişəm, bığı bənövşə,
Yarım nar göndərib, hamı gülöyşə,
Əlin ver əlimə, gec gələn oğlan.

* * *

Dalıma sallan üstən...........
Oğlun evə gec gələr, gərək az danış,
Yar inciyib məndən, mən eliyim barış,
Ala göz oğlanın mən divanıyam.

* * *

Mən belə dəmyəni yeyə bilmərəm,
Dərdimi sərdara deyə bilmərəm,
Sən gedərsən, mən ağlaram dalınca
Yaylıq eylə, məni apar yanınca.

Mən belə dəmyəni yeyə bilmərəm,
Dərdimi sərdara deyə bilmərəm.
Qoltuğumda bağlama,
Mən gedirəm ağlama,
Mən belə dəmyəni yeyə bilmərəm,
Dərdimi sərdara deyə bilmərəm.

Gedərəm tez qayıdaram,
Özgəyə bel bağlama.
Mən belə dəmyəni yeyə bilmərəm,
Dərdimi sərdara deyə bilmərəm.

Sonra üç-dörd qız əl-ələ verib birinciyi dövrəyə alıb deyərdilər:

– Miyo-miyo,
Xor - Nə pişiyisən?
– Xan pişiyi
Xor - Nə üçün gəlmisən?
– Ələk üçün
Xor - Bizdə deyil, o xaladadır.

# ОДИН ИЗ РЕЛИОГИОЗНЫХ ОБРЯДОВ СТАРОГО АЗЕРБАЙДЖАНА

## МАГЕРРАМ

В прошлом Баку делился на квартал (мехле). Каждый квартал имел свою мечеть. Во внутреннем городке (в пределах старой крепости) были следующие мечети: Джума-мечеть, Мамед-яр-мечеть, Килей-мечеть, Шахская-мечеть, Гаджи Бану-мечеть. А во внешнем городе были мечети: Тазапир, Касимбей, Ширванлылар, Гаджи-Пирверди, Гаджи-Джебраиль, Гаджи-Мамалы, Чемберекенд, Гаджи-Джавад. Кроме мечетей были еще «текийе» (религиозно-траурные собрания) кубинцев, иранцев, даглинцев, карабахцев.

В начале месяца Магеррама в каждом квартале мечеть убиралась, украшалась, в них производилась побелка стен и потолков, постоялые дворы, где происходили «текийе», также готовились к Магерраму: на дворе устраивали навесы, стелили ковры и паласы. Каждая мечеть и текийе имела своего розехана (полудуховное лицо, рассказывающее религиозные предания).

После заката солнца, население каждого квартала собиралась в своей мечети. Молодые выстраивались в два ряда лицом друг к другу и обнажали грудь. Один из них запевал марсие (религиозная элегия):

О пророк! Ночью я видел деда на площади,
Обезглавленный, он лежал, залитый кровью.

Остальные подхватывали песню хором и в такт ей шлепали себя по груди. Это называлось «тяжелая марсие».

Затем такт менялся.

Увидя запекшиеся губы бойцов, Хазрат-Аббас[3],
Как море, приходит в волнение Хазрат-Аббас.

---

[3] Имя одного из святых ( имамов)

Это называлось «джуши» (быстрая марсие). Наконец, розехан поднимался на минбар (трибуна в мечети), расскАзывал нараспев предание, люди плакали, и этим заканчивался. Все первые девять дней Магеррама проходили таким образом.

В десять дней Магеррама выступала процессия, предшествуемая знаменем и «комнатой Касима». Разодев нескольких девочек в арабские платья и распустив им волосы, сажали их в комнату Касима. Перед ними насыпали кучу соломенной мякины. Девочки, то и дело нанося себе удары по голове и по груди рассыпали мякину. Мужчина лет 30-35, стоя на крыше «комнаты» распевал «минаджат» (славословие Магомету).

Украшали лошадь, к седлу прикрепляли чалму, саблю и пару походных сапог. Покрывали седло вымазанной красной краской простыней. Эта лошадь должна была изображать «Зульджалала», коня имама Гусейна.

На другую лошадь сажали мужчину в белом халате без рукавов с красными пятнами. Всадник держал в зубах кинжал. На голове его под чалмой или другой повязкой прикреплялась сабля, получалось такое впечатление, что голова рассечена застрявшим в черепе кинжалом. Этот всадник изображал сына Али, Абуль-Фазля, иначе говоря Хазрат-Аббаса, верхом на его коне Угабе. Эта сцена имела свою марсие, которую распевали окружавшие коня мальчики в черном.

Кроме того, готовили чучело человека в сапогах, УКладывали его на доске, а вокруг привязывали белых голубей. Чучело и голубей красили в красный цвет.

Кого-нибудь еще с вечера брали в круг и, массируя обнаженное до пояса тело, беспрерывно распевали марсие, чтобы соответственно настроить взятого в круг человека. Затем, не переставая петь они вонзали ему спереди в кожу груди и в кожу спины по паре кинжалов крест-накрест; в кожу плеч, груди, лопаток, живота вдевали замка, кольца,

стрелы, куски дерева, лампы, зеркальца и всякую такую мелочь. Не довольствуясь этим, перекидывали через плечо тяжелую цепь. Затем давали ему в руку обнаженную саблю. Этот человек должен был вести за собой шеренгу белорубашечников.

Таким манерам каждая мечеть сколачивала свою процессию и, выйдя за город, занимала какую нибудь площадь. Тут люди, одетые в черное, с обнаженными спинами (материя на спине вырезывалась), били себя по спине пучком железных цепей, прикрепленных к железной ручке. При этом они распевали :

Как нам не бить себя цепями,
Когда били цепями Абдина !...

Удары цепями производились под такт пению, которое все ускорялось; при этом люди ритмично двигались по площади. Многие, не выдержав боли, лишались чувств. У многих лопались кожа на спине. После них наступал черед белорубашечников, которые наносили кинжалами раны себе по бритым головам. Они пели так:

О боже, что за день,
Похожий на страшный суд!
В этот миг Фатима,
Неся в руке голову Гусейна,[4]
Придет изливать скорбь.
Эй-вай, бедствие Кербелы,[5]
Увы, бедствие Кербалы!...

Песня приводила народ в трепет, и начиналась работа кинжалами. Некоторые, увлекшись так сильно ударяли себя кинжалом по голове, что тут же падали замертво, некоторых выносили из шеренги в бессознательном состоянии и, завернув в палас, отсылали домой.

После этого начинался шебих, т.е. представление, религиозный театр (мистерия) .

---

[4] Имя святого.

[5] Город в Ираке, где произошло убийство святых.

Протянув веревку, образовывали круг, за которым становились зрители. В кругу находились в разных концах его две группы людей: Бени-Умейя, т.к. войско Езида, и хашимиды, т.е. 72 мученика во главе с Гусейном. Первые бывали одеты в кровавокрасные платья и устраивались перед тактой (троном) Омар-Сеида; их военначальники рассаживались на скамьях. Над их головами развивалось знамя Езида (врага святых). На стороне вторых разбивались палатки, в которых скрывались семьи святых.

Между двумя лагерями, пересекая круг, проходила канава, изображавшая реку Ефрат. Мистерия начиналась так:

Зейнаб (святая), взяв маленькую Секину за руку, подходила к палатке Хазрат-Аббаса. Роли женщины при этом исполнялись мужчинами. Зейнаб объясняла Хазрат-Аббасу, что девочка умирает от жажды. Расстроенный Хазрат-Аббас, подняв кувшин на плечо, отправлялся к реке за водой. Противная сторона не давала ему набрать воды, и на этой почве начинался бой. Хазрат-Аббас один бился против многочисленных врагов. Касим, узнав, что дядя его ушел к Ефрату за водой, подходил к Гусейну и, получив его благословение, спешил на помощь Хазрат-Аббасу.

Гусейн наблюдал за боем со стороны. Он видел, как Касим, схватив Эзрега за пояс, поднял его над своей головой и хочет ударить оземь. Тогда Гусейн начинал петь:

Бросай наземь, лиши врага жизни,
Отомсти кровь моего сына Али-Акбера!

Через некоторое время воины святых, узнав о происходящем, бежали с разрешения Гусейна на помощь своим.

В бою Хазрат-Аббас лишался руки, а 72 воина погибали мученической смертью. Тогда очередь доходила до имама Гусейна. В бою он также падал, весь израненный. Под конец выступало войско Джинни-Джафар, составленное из ребят, одетых в арабские одежды и вооруженных арабским старинным оружием, с выведенными углем усами и бородами.

Подбежав к Гусейну, они останавливались перед ним, прося разрешенения вступить в бой. Гусейн отказывал им в разрешении и, они, понурив головы, возвращались обратно.

Враги убивали Гусейна, поджигали палатки и оставшихся сторонников имамов забирали в плен. Так заканчивалось представление гибели имамов.

Ночью в каждой мечети составлялись группы в 50-60 человек, одетых в черное, и со свечами в руках, начинали обходить другие мечети. Это называлось «шами герибан» (ночь соболезнования).

Эти группы пели следующую элегию:

Мы пришли, о шииты,
Справить траур по убитым,
Выразить соболезнование
Несчастной Зейнаб.

Находившиеся в мечети отвечали им:

Добро пожаловать, о пришедшие на траур,
Пришедшие выразить
Соболезнование несчастной Зейнаб.

Эти слова произносились быстро и высоким голосом. В конце тушили свет, и народ в темноте начинал плакать, ударял себя по голове.

Многим от слез делалось дурно.

# ИЗ НАРОДНЫХ ИГР СТАРОГО АЗЕРБАЙДЖАНА

## Кеса-кеса

За несколько дней до Новруза-байрама (праздник весенного равноденствия) ребятишки квартала (мехле) начинали обходить дворы и, распевая песни, собирать сушеные фрукты и деньги. На одного из мальчиков, умеющего танцовать, надевали вывертнутую на изнанку шубу (тулуп), закрывали лицо самодельной бумажной маской, а на голову – свернутый конусом бумажный колпак (обычно с сахарной головы). К поясу пришивали бубенцы, на шею также вешали ленту с бубенцами. Такого наряженного кесу (безбородого) сопровождала по дворам ватага мальчишек, распевавшая следующую песню, под которую плясал кеса:

Эй, кеса, кеса, подойти-ка !
Подойди и поздоровайся !
Наполни - ка свой ковш,
Проводи - ка кесу !
А уйругу, уйругу[6]
Борода его из собачьего хвоста,
Мой коса напроказит,
Волку отдаст овцу
……………………(непереводимо)
Сыграет свадьбу Махмуду.

После окончание этой песни, кто нибудь из ватаги выкрикивал :

« Кеса мурд!» (по персидски: кеса умер!)

Тогда кеса падал наземь, и происходил следующий диалог между ним и ребятами :

–Кеса, ты откуда прибыл ?

– Из Кубы.

– Что принес ?

---

[6] Припев без особого смысла.

– Сушеные фрукты, орехи.
– Куда же ты дел их ?
– Продал ?
– А куда девал деньги ?
– Купил жену (женился).
– А где жена?
– Побил, она и померла.

После этого запевал хор :

Пусть голова твоя будет цела кеса![7]
Пусть тело твое будет здорово, кеса!
Аршин велик, а бязь коротка,
Ты умер без савана, кеса!

По окончании песни Кеса поднимался на ноги и, раскрыв полу, просил у хозяев подарка. При этом он распевал вместе с хором:

Пришла весна, пришла весна, привет ей!
Больная грудь, увидя ее, обрадовалось.
Поздравляем вас с новым байрамом,[8]
Да будут светлы ваши годы, месяцы, дни и недели!
Новруз[9], Новруз – весна
Цветы, цветы распустились.
Да покроется цветами ваш сад!
Да будут цветы и соловьи.
Да будут масло, и будет мед!
Да будут здоровы все в вашем доме.
Кто нам подаст, у того сын родится,
Кто не подаст, у того дочь родится.
Пусть ханум[10] встанет
И принесет подарок Кесе.

Получив подарок, ватага переходила на другой двор.

---

[7] Этими словами обычно выражается соболезнование по поводу смерти близкого человека.
[8] Байрам - праздник.
[9] Новруз – значит, новый день / новый год /
[10] Ханум – госпожа.

*Из Шемахи*

## Игра девушек (Башмак)

Садились двое девушек на полу друг против друга и, вытянув ноги, упирались ступнями. Третья девушка перепрыгивала через их ноги, а сидящие ударяли ее башмаком, которой держали в руке, требуя, чтобы она назвала имя свое жениха. Та старалась перепрыгнуть так, чтобы вырвать башмак, при этом не называя жениха. Если ей удавалось вырвать башмак, тогда она садилась на место той. Девушке резвой и сильной удавалось перепрыгнуть так, чтобы сидящие не успели ударить ее башмаком. А слабые девушки не успевали перепрыгнуть, и сидящие, ударяя ее башмаком, заставляли назвать жениха.

Если девушке удавалось вырвать оба башмака из рук сидящих девушек, она в такт ударяла башмаком о башмак и под аккомпанемент бубна и саза (струн. щинковый музык. Инструмент) пела следующую песню:

Имя возлюбленного роза – Гусейн,
Не назову, ты не узнаешь,
Не найдешь его в саду
И не поднесешь ему цветка.
Имя возлюбленного роза – Гусейн !
Имя возлюбленного роза – Гусейн !

После этого девушку заменяла по выбору одну из сидящих, и игра продалжалась.

## Игра девушек (Поиски красавицы)

10-12 девушек взявшись за руки, составляли круг и начинали кружиться вокруг одной, которая становилась в середине круга. Покружившись немного, девушки садились наземь, а девушка в кругу запевала следующую песенку :

Красавица, поднимись на ноги, встань!
Накинь на себя алый дуваг, алый дуваг![11]

[11] Подвенечной фаты.

Ты отвернулась от нас,
Но мы готовы отдать жизнь за тебя, встань!

Девушки поднимались и, кружась, повторяли песенку. Девушка в кругу запевала снова:

Моя девушка вся в шелку,
Серьги твои на гвозде,
Золото твое у менялы,
Твои украшения на свадьбе,
Твой бархат в сундуке.
Я ищу красавицу !
Я ищу красавицу !

Девушки вновь повторяли эту песню, не переставая кружиться быстро. Девушка, стоявшая в кругу, за красавицей пробегала между девушками из круга и в круг, пока не поймает красавицу. Поймав красавицу, она запевала:

Красавица моя, где ты была ?
Красавица отвечала :
Я ходила к роднику
Помыть руки и лицо!

Хор подхватывал песню:

Красавица ходила к роднику,
Помыть руки и лицо.
Дальше игра начиналась снова.

## Товарищ, кто тебя увел

Пять человек становились в один ряд. За ними в пяти шагах от них становились в ряд другие пять человек. У каждой группы бывал свой судья (жюри). Один из заднего ряда подходил на цыпочках к переднему ряду и тихонько прикасался пальцем к одному из них. Тот, не оглядываясь, делал три шага вперед и останавливался, а ударивший занимал прежнее свое место. Тогда судья спрашивал :

– Товарищ, кто увел тебя?

Вышедший из строя называл имя. Если он угадывал, тогда садился на того, кто его тронул и катался на нем на определенное расстояние. В противном случае, он должен был покатать того, что его тронул и кого он не разгадал.

После этого опять каждый становился на место, и игра продолжалась.

### Игра в бенефше (фиалка)

Это – старинная игра. Участники игры делятся на две группы и становятся друг против друга на расстоянии 10 шагов. В каждой группе участники игры крепко брались за руки. Один из группы обращался к другой:

– Бенефше !

– Попадет в сеть ! – отвечали из той группы.

– Кого из нас вы желаете ?

– Из вас мы хотим такого-то.

Названный отходил назад и с разбега бросался к противному ряду, желая прорвать цень. Если это ему удавалось, он забирал кого нибудь из группы и уводил в плен к своим, если нет, то сам оставался пленником у группы.

Случалось, что одна группа перетягивала всех участников другой группы на свою сторону, и та группа сливалась с ней.

### Игра девушек и мальчиков

До 20 девушек и мальчиков собирались на большом дворе или на поляне. Одному из участников завязывали глаза платком. Затем начинали ударять его в спину и убегать стараясь не быть пойманным. А тот, у кого завязаны глаза, старался поймать ударившего. Если это ему удавалось, он снимал повязку, и завязывали глаза пойманному.

## Игра девочек (в куклы)

В старину маленькие девочки брали у матерей, тетушек, бабушек куски бархата, щелка и пр. материй и делали себе кукол. Забрав из дому старые паласы, коврики и пр., они стелили их на заднем дворике, раскладывали подушки, расставляли посуды, тарелки, кастрюльки. Так они собирали свой домик. Посередине ставили табурет, на котором размещали свои куклы.

Затем начиналась игра с девочками из соседного дома. Они посылали друг к другу свах и проводили все обряды, связанные со сватовством и свадьбой. Выдавали куклу, «замуж», потом собирались у «жениха». Если «умирала» кукла, устраивали поминки, когда она «рожала», ходили с поздравлениями.

Так играли в куклы девочки в прошлом.

## Развлечения бакинской молодежи на дачах

В каждом квартале дачного поселка у кого-нибудь из влиятельных дачников отводилась комната для развлечений. Вечерам, после 9 ч. молодежь собиралась в этих комнатах. Один начинал петь, а другие тихо подпевали ему. Еще один бил в бубен. Запевала:

– Ломтик желтой дыни.
Хор: Бай, бай, моя роза – хай! роза – хай!
Зап.: Я выпустил моего соловья!
Хор: Бай, бай, моя роза – хай! роза – хай!
Зап.: Отведи комнату!
Хор: Бай - бай, моя роза – хай! роза – хай!
Зап.: Я выскажу тебе мое горе!
Хор: Тот – же припев.
Зап.: Твоя тюбетейка вышита!
Хор: Тот - же припев.
Зап.: Куда мне положить голову ?

Хор: Тот же припев.

Зап.: Тебя не выдадут за меня.

Хор: Припев.

Зап.: Не проливай слез.

Хор: Припев.

Внезапно вбегали в комнату двое: один, наряженный старухой, а другой в вывернутой на изнанку шубе (тулупе), с привязанной к голове парой башмаков вместо шапки. Они начинали плясать, а находившиеся в комнате кричали «ура» и поднимали гвалт.

– Ни каши, ни хлеба не есть.

– Хорошо, пляшет этот пес.

– Ни дыни, ни арбуза не есть.

– Хорошо пляшет эта свинья.

***

– Просеивает муку, вертит задом.

– На что мне вдовая баба!

– Хлеб выпекает, огрызается.

– На что мне вдовая баба!...

В этот момент кто-нибудь подходил тайком и обливал их водой или, протянув руку, тушил висящую лампу. Тогда участники игры начинали бить друг-друга. На этом игра кончалась.

## Игра в кучу

Один из самых сильных юношей прислонялся обеими руками к стене, клал голову на руку и крепко упирался ногами в землю. Другой обхватывал его сзади за талию и клал голову ему на спину. Третий, разбежавшись, прыгал на них и, став на их спине ногами, считал до 20. Следующий также прыгал на них и считал до 40. Третий, став рядом с предыдущими двумя, считал до 60. И так, каждый следующий, прыгнув на спину стоявших у стены, увеличивал счет на 20.

Число счета зависело от выдержки стоявших у стены. Иногда счет доходил до 180-200. Тогда этих юношей, вы-

державших тяжесть наибольшего количества людей, называли сильными и выносливыми.

## Игра девушек

10-15 девушек, взявшись за руки, составляли круг. Одна оставалась внутри круга и произносила.

– Мийо, мийо! (мяу, мяу)

– Ты чья кошка ? - спрашивал круг.

– Я ханская кошка.

– За чем пришла ?

– За ситом.

– У меня нет, спроси у той тетки.

Девушка в кругу обходила всех девушек, составлявших круг, и вдруг, ударив одну из них, убегала прочь из круга. Девушки бросались за ней, выкрикивая:

– Черная кошка! Чтоб твой дом развалился! Черная кошка! Чтоб у тебя дом развалился!

Девушка, поймавшая бежавшую, наносила ей по тыловой стороне 5-10 ударов.

Затем игра начиналась снова.

## Игра мальчиков

Собиралась группа мальчиков и выбирала одного маткой. Ему давали в руку скрученную из кушака плетку.

Матка: У меня есть птичка вот такая.

Хор: Гелендер, ай, гелендер.[12]

Матка: У нее клюв вот такой.

Хор: Припев.

Матка: Ноги ее вот такие.

Хор: Припев.

Матка: Хвост у нее вот такой.

[12] Припев без особого смысла.

Хор: Припев.

Матка: Крылья у нее вот такие.

Хор: Припев.

Запомнив загаданную птицу, матка обращается к одному:

- Голову мне, а ноги тебе. Разгадай.

- Гусь! – отвечал мальчик.

Матка: Передай гусю!

Мальчик передавал конец кушака – плетки второму. Значит, он не разгадал.

– Утка! – гадал второй.

– Передай утке! – говорила матка и конец кушака переходил к третьему.

– Петух! - говорил третий.

– Передай петуху.

Наконец, кому нибудь удавалось разгадать задуманную маткой птицу.

– Голубь!

– Разгадал! – признавалась матка и передавала кушак мальчику.

Тот брал кушак и начинал бить остальных мальчиков, которые разбегались; матка наблюдала за ними. Когда они отбегали далеко, матка вдруг кричала:

– Палан, палан, палан! (без особого смысла)

Тогда мальчик с кушаком бросался к матке, а остальные начинали преследовать его. Тот кому удавалось догнать, поймать и привести этого мальчика к матке, садился на его спину, и тот возил поймавшего на 20 шагов от матки и обратно. Затем игра возобновлялась.

*Перевел с азербайджанского Аз. Шариф.*
*( примеч. в сносках и в скобках в тексте переводчика)*

# M Ü N D Ə R İ C A T

**"Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasindan çap olunmuş kitablar ....................... 3**

**Tərtibçilərdən........................................................ 5**

Lətifələr ............................................................... 10
Azərbaycan qadinlar mahnısı .................................. 44
Bayatılar............................................................... 52
Şikəstə və bayatılar .................................................. 61
El nəğmələri.......................................................... 68
Qarabağ şikəstəsi və çoban bayatıları....................... 72
Şirvan şikəstəsi və bayatıları .................................... 73
Bayatılar............................................................... 80
Mahnı................................................................... 92
Azərbaycan el mahnısı............................................. 95
Atalar sözü ........................................................... 101
Xalq oyunlarının təsviri ........................................... 104
    Novruz bayramı............................................. 104
    Bayram günü evlərdə..................................... 110
Xatirat və ya köhnə Bakının həyat və sərgüzəştləri haqqında ............................................ 118
Один из релиогиозных обрядов старого Азербайджана.......................................... 125
Из народных игр старого Азербайджана ............ 130

**Hüseynqulu Sarabskinin**
**şəxsi fondundan**
**folklor mətnləri.**
Bakı, Elm və təhsil, 2021.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ləman Abdulxalıqova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60x84
Mətbəə kağızı: № 1
Həcmi: 140 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış,
səhifələnmiş, "Elm və təhsil" nəşriyyatında
hazır diapozitivlərdən ofset üsulu ilə
çap olunmuşdur.